Xalqın qəzeti!

# Xalq qəzeti

№ 215 (30331) 4 oktyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqaæ ti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycan 10 ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Konqres ikinci dəfə Bakıda, eyni şəhərdə keçirilir. Lakin ölkə eyni deyil. Bu gün həmin qlobal tədbirin ev sahibi müstəqil Azərbaycandır. Bu gün burada 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı var.**

# Astronavtika Konqresi Azərbaycana kosmik inkişaf meyarları gətirir

*Ölkəmiz 2030-cu ildə Aya və Marsa missiya göndərməyi hədəfə alır*



**Ölkəmizin 74-cü Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etməsi respublikamızın innovativ sənayedə apardığı islahatlara verilən beynəlxalq qiymət kimi mühüm önəm daşıyır. Bu məclis Azərbaycanda kosmos sənayesinin, eləcə də aparıcı texnologiyaların inkişafını stimullaşdıracaq. Konqresin elmi-təcrübi yekunları respublikamızın qeyri-neft sektoruna birbaşa təsir göstərən amil kimi yüksək dəyərləndirir. Xüsusən də, qeyd edilən istiqamətdən daxilolmalar büdcə üçün çox əhəmiyyətlidir.**

Bu sahənin sürətli inkişafının, kosmik sənayeyə son 10 ildə 600 milyon dollar investisiya yönləndilməsinin nəticəsidir ki, Azərbaycan Aya və Marsa 2030-cu ildə missiya göndərməyi düşünür. Astronavtika Konqresi çərçivəsində İsrail ilə kosmik peykin orbitə çıxarılması ilə əlaqədar bağlanan müqavilə ilə yanaşı, Azərbaycan hökumətinin kosmos proqramını bundan sonra da uğurla həyata keçirəcəyi kosmik sənayenin davamlı inkişafına əminliyi ifadə edir.

74-cü Beynəlxalq Astronavtika Konqresində bütün bunlar barədə ətraflı bəhs olunub. Prezident İlham Əliyev tədbirin açılış mərasimindəki çıxışında kosmik sənayedə əldə edilən uğurlardan danışmaqla bərabər, diqqəti son illərdə ölkəmizin siyasi, sosial-iqtisadi sahələrində qazanılan bir sıra mühüm uğurlara da yönəldib. Dövlətimizin başçısı Azərbaycanın dünyada ilk dəfə XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanındığını, o zaman dünyada neft hasilatının yarısının ölkəmizin payına düşdüyünü, XX əsrin ortalarında isə dünyada ilk dəfə dənizdə neftin məhz Azərbaycanda– Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən çıxarıldığını xatırladıb.

**(ardı 6-cı səhifədə)**

## Barmağımız tətikdə olmalıdır

Ermənistan yeni müharibə hazırlığındadır

**Hazırda Ermənistanda qəribə durum yaranıb. Azərbaycan suverenliyini bərpa edənə, Qarabağa tam sahiblənənədək müxalifət ölkəmizin bölgə ilə kifayətlənməyəcəyini, Ermənistanın ərazisinə də keçəcəyini bildirirdi. Bu deyim daha çox iqtidara əks cinahın ondan narazılığı müstəvisində meydana çıxırdı və məqsəd xalq kütlələrini hakimiyyətə qarşı qaldırmaq idi. İndiki situasiyanı şərtləndirən başlıca məqam isə odur ki, hazırda Ermənistanın hakim komandasının üzvləri də vaxtilə müxaliflərin söylədiklərini dilə gətirməyə başlayıblar.**



Məsələn, ölkə parlamentinin sədri Alen Simonyan Finlandiyanın səfiri ilə görüşündə deyib ki, Azərbaycan Qarabağı ələ keçirdikdən sonra Ermənistan ərazisinə təcavüz edəcək. Xarici işlər naziri Ararat Mirzoyan da demək olar, Simonyanı təkrarlayıb. O, Kiprdən olan nümayəndə heyəti ilə təması zamanı elə tərzdə danışıb ki, sanki Azərbaycanın Qarabağdakı lokal xarakterli antiterror tədbirləri Ermənistana qarşı təcavüzdür. Mirzoyan, hətta, gileylənib də. Deyib ki, İrəvanın beynəlxalq ictimaiyyəti Bakının aqressiv davranacağı ilə bağlı dəfələrlə xəbərdar etməsinə baxmayaraq, məsələyə əhəmiyyətsiz yanaşılıb. Bu isə guya, Azərbaycanı yeni təcavüzlərə həvəsləndirəcək vəziyyət doğurub. Görüşdə mövcud kontekstdə Ermənistanın ərazi bütövlüyünün qorunması ətrafında fikir mübadiləsi aparılıb.

**(ardı 3-cü səhifədə)**

## İrəvan minalanmış ərazilərin xəritəsini Bakıya təqdim etməlidir

**Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində torpaqlarını işğaldan azad etdi. Bundan sonra ölkəmiz üçün məsələnin siyasi yolla tənzimlənməsi mərhələsi başladı.**



Üç ilə yaxın səbr və təmkinlə gözləsək də, İrəvan və onun dəstəklədiyi separatçı rejim öz xislətindən əl çəkmək istəmədi. Ermənistan baş naziri Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bəyan etsə də, sülh danışıqlarında orada yaşayan erməni əhalisinin təhlükəsizliyinin təminatı üçün hansısa beynəlxalq mexanizmlərin yaradılmasında israr etdi. Nəticədə Azərbaycan özünün Qarabağ iqtisadi rayonundakı separatçı rejimin tör-töküntülərinə qarşı lokal xarakterli antiterror tədbirləri görmək məcburiyyətində qaldı. Həmin tədbirlərin nəticəsi məlumdur; separatçılar bir sutka keçməmiş ağ bayraq qaldıraraq, təslim oldular.

**(ardı 8-ci səhifədə)**



## “Heç kəs zərər çəkməyib, heç nə dağıdılmayıb...”

**Bundan sonra Azərbaycanın Qarabağ iqtisadi rayonunda başlayan prosesin adı erməni sakinlərin bərabərhüquqlu vətəndaşlar kimi reinteqrasiyası və bütün mülki infrastrukturun bərpası və işə salınmasıdır.**

Hazırda bölgədən gedən və qalmağı qərarlaşdıran ermənilərin statistikası aparılır. Artıq beynəlxalq ekspertlər də birmənalı şəkildə bildirirlər ki, nə lokal antiterror tədbirləri zamanı, nə də ermənilərin köçü prosesində rəsmi Bakının onlara qarşı hər hansı formada təzyiq və təşviqindən söhbət gedə bilməz. Bunu Qarabağdan köçməkdə davam edən ermənilərin özləri həm Azərbaycanın, həm də Ermənistanın media mənsubları ilə söhbətlərində təsdiqləyirlər. Onlar Azərbaycanı könüllü şəkildə tərk etdiklərini deyirlər. Köçənlərin bir qismi Ermənistan tərəfindən son otuz ildə müxtəlif ölkələrdən qanunsuz formada Qarabağa köçürülənlər, digər qismi isə daşnakların nifrət və düşmənçilik təbliğatının əsirinə çevrilən, Azərbaycan Bayrağı altında yaşamaq istəməyən ermənilərdir. Az bir qisim isə İrəvanın avantürist–revanşist hakimiyyətinin və Xankəndidəki separatçı rejimin ssenarisinə uyğun təzyiqlər altında bölgəni tərk edənlərdir.

**(ardı 4-cü səhifədə)**

## Bolqarıstan Azərbaycandan qaz idxalını artırıb

**Avropa İttifaqının (Aİ) statistika idarəsi “Eurostat”ın məlumatına əsasən, 2023-cü ilin iyulunda Bolqarıstan Azərbaycandan 77,3 milyon kubmetr qaz idxal edib. İyun ayında isə bu göstərici 74,8 milyon kubmetr çatıb. Beləliklə, Bolqarıstan respublikamızdan təbii qaz idxalını aylıq hesablamada 3,3 faiz artırıb. Bütünlükdə isə cari ilin yanvar-iyul aylarında ölkəmizin Bolqarıstana qaz ixracı 5 milyard 37 milyon kubmetr olub.**



Qeyd edək ki, bu ölkə 2022-ci il oktyabrın 1-də istismara verilən Yunanıstan–Bolqarıstan interkonnektoru (IGB) ilə Azərbaycan qazının idxalına başlayıb. IGB ilə qaz tədarükünün müqavilə həcmi ildə 1 milyard kubmetr nəzərdə tutulub.

**(ardı 7-ci səhifədə)**

## Güneydə Milli Hökumətin mətbu salnaməsi

Səhifə ⇨ 9

## Aqrar sığorta fermerləri ziyandan qoruyur

**Azərbaycanda aqrar sığorta mexanizmi tamamilə yeni sahə olsa da, onun tətbiqi kənd təsərrüfatına bir dinamizm, inkişaf gətirib.**



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olan aqrar sığorta ötən müddətdə özünü fermerlərin və fərdi təsərrüfat sahiblərinin əsl dayağı, himayədarı kimi təqdim etməyi bacarıb. Bütövlükdə isə, bu mexanizmin işə düşməsi ötən müddətdə Azərbaycanda dövlət-özəl sektor tərəfdaşlığına mühüm töhfələr verib.

**(ardı 7-ci səhifədə)**

# Almaniya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

**Hörmətli cənab Prezident!**

3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək əzmindədir. Əminəm ki, həm dövlətlərarası münasibətlərimiz, həm də Avropa İttifaqı çərçivəsində qarşılıqlı maraq doğuran qarşılıqlı fəaliyyətimiz bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# Koreya Respublikasının Prezidenti Zati-aliləri cənab Yun Sok Yola

**Hörmətli cənab Prezident!**

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Koreya dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir.

Koreya şirkətləri uzun illərdən bəri Azərbaycanda çox uğurla fəaliyyət göstərirlər. Ölkənizi təmsil edən şirkətlər işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa və yenidənqurma işlərinə istehsal etdikləri qabaqcıl və müasir texnologiyalar vasitəsilə töhfə verə bilərlər. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə böyük potensiala malik olan münasibətlərimizi və səmərəli əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# İraq Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

**Hörmətli cənab Prezident!**

İraq Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-İraq münasibətləri birgə səylərimizlə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 oktyabr 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün tam təmin olunması münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Bu, Cənubi Qafqazda ədalət, sabitlik və bütün xalqların rifahı üçün əsas şərt idi. Qarabağ Azərbaycana məxsusdur və daim onun bir hissəsi olacaqdır.

Cənab Prezident, Azərbaycanın Bosniya və Herseqovina ilə münasibətlərinin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizinlə 2024-cü ilin martında XI Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirəm.

**Hörmətlə,**

***Şefik CAFEROVİÇ,***
***2018-2022-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# ICESCO Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır



**Oktyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.**

Görüşdə Azərbaycan və ICESCO arasında əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin müstəqilliyini bərpa etdiyi ilk illərdən mədəniyyətlərarası dialoqun təşviqi, irqi ayrı-seçkilik, islamofobiya kimi təhdidlərlə mübarizə sahələrində ICESCO ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıraraq, bu xüsusda, yaxın zamanda ICESCO-nun ölkəmizdə regional mərkəzinin açılmasının münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə dair inamını ifadə edib. Multikulturalizm və tolerantlıq modeli ilə dünyada tanınan ölkəmizin mədəniyyət beşiyi olan Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçildiyi məmnunluqla qeyd edilib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın sülh və quruculuq səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov ölkəmizin 30 ilə yaxın davam edən münaqişə dövründə Ermənistan tərəfindən dağıdılan dini və mədəni irsimizin bərpası istiqamətində əməli addımlar atdığını diqqətə çatdırıb.

Bütün mövcud çətinliklərə və çağırışlara baxmayaraq, Azərbaycanın Ermənistanla normallaşma və sülh gündəliyinin, habelə Qarabağ bölgəsində yaşayan yerli erməni sakinlərin reinteqrasiya prosesinin irəlilədilməsində qərarlı olduğu diqqətə çatdırılıb.

Baş direktor Salim bin Məhəmməd əl-Malik Azərbaycana səfərindən məmnunluq duyduğunu, ötən gün Prezident İlham Əliyevlə və birinci xanım Mehriban Əliyeva ilə keçirdiyi görüş zamanı faydalı fikir mübadiləsi aparıldığını diqqətə çatdırıb. ICESCO-nun Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğu, habelə bundan sonra da əlaqələrin gücləndirilməsi istiqamətində səylər göstərilməsinin vacibliyi qeyd edilib.

***XQ***

# Azərbaycana əmək fəaliyyəti ilə məşğul olmaq vədi ilə aldadılaraq gətirilən 31 əcnəbi saxlanılıb

**Dövlət Miqrasiya Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin qanunsuz miqrasiyaya qarşı keçirdiyi birgə tədbirlər zamanı Bakı şəhərində müxtəlif ünvanlarda viza müddətindən artıq yaşayan 31 əcnəbi saxlanılıb.**

Bu barədə Dövlət Miqrasiya Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə məlumatında bildirilib.

Qeyd edilib ki, bu şəxslərin xaricdə yerləşən turizm şirkəti vasitəsilə 2500 Amerika dolları müqabilində Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmaq vədi ilə aldadılaraq ölkə ərazisinə gəlmələrinin təşkil edilməsi müəyyən olunub. Təşkilatçı əcnəbiləri Bakı şəhərində müxtəlif ünvanlarda yerləşdirib, onların mənzilləri tərk etmələrinə mane olaraq ölkə ərazisində qanunsuz miqranta çevrilmələrinə şərait yaradıb. Aşkar edilən hallarla bağlı materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanına göndərilib.

Ümumilikdə, 2023-cü ilin sentyabr ayı ərzində qanunsuz miqrasiyaya qarşı keçirilən tədbirlər zamanı Dövlət Miqrasiya Xidməti tərəfindən 873 əcnəbi saxlanılıb. Onların ölkə ərazisində olma və yaşama hüququ verən sənədlər olmadan (qanunsuz) yaşaması, ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olması, qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi və ya qeydiyyat ünvanı üzrə yaşamadığı müəyyənləşdirilib. Həmin dövr ərzində miqrasiya qanunvericiliyini pozan 312 əcnəbi Azərbaycanın hüdudlarından kənara inzibati qaydada çıxarılıb və ölkəyə girişləri qanunla müəyyən edilmiş müddətə məhdudlaşdırılıb, digərlərinin ölkə ərazisində yaşamalarının qanuniləşdirilməsi və ya ölkəni könüllü tərk etmələri təmin olunub. Eyni zamanda, ölkədə olma, yaşama, əcnəbilərin işə cəlb olunması və digər aidiyyəti məsələlərlə bağlı ümumilikdə 2221 inzibati qərar qəbul edilib.

Vətəndaşlardan qanunsuz miqrasiya halları ilə rastlaşdıqda Dövlət Miqrasiya Xidmətinin (012) "919" Çağrı mərkəzini məlumatlandırmaları xahiş olunur. Çağrı mərkəzi həftənin 7 günü 24 saat fəaliyyət göstərir.

***XQ***

# M.Ş.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Məşhur Şahbaz oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 oktyabr 2023-cü il**

# İmişli rayonunun Ağsu–Kürdəmir–Bəhrəmtəpə (71 km)–Məmmədli–Ağamalılar–Əlyetməzli–Allahmədətli–Telişli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Doqquz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağsu–Kürdəmir–Bəhrəmtəpə (71 km)–Məmmədli–Ağamalılar–Əlyetməzli–Allahmədətli–Telişli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.6-cı yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 15,8 milyon (on beş milyon səkkiz yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 oktyabr 2023-cü il**

# Elçin Əmirbəyov: Qarabağı tərk edən erməni sakinlər qayıtmaq hüququnu özlərində saxlayır

**Qarabağı tərk edən erməni sakinlər qayıtmaq hüququnu özlərində saxlayırlar.**



Bu barədə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Fransanın "Radio J" radio kanalına müsahibəsində bildirib.

Aparıcının "Siz effektiv şəkildə izah edirsiniz ki, Qarabağda yaşayan ermənilər getməkdə və qalmaqda sərbəstdirlər... Niyə onların hamısı getməyi seçiblər" sualına cavabında Elçin Əmirbəyov deyib:

"Bəli, bu, çox yaxşı sualdır. Ona görə ki, biz, Azərbaycan hökuməti olaraq anti-terror tədbirləri başlayandan bəri mülki əhaliyə elan etmişdik ki, onlar bu hərbi tədbirlərin hədəfi deyillər. Əksinə, çalışıldı ki, onlar qalmaqlarına əmin edilsinlər. Bilmirəm. Ola bilər ki, qeyri-qanuni separatçı qurum bütün silah-sursatı təhvil verdikdən sonra mülki əhali öz təhlükəsizliyindən çox əmin olmadı. Hətta bir həftədən bəri onların yerlərini tərk etmələri üçün çox cəhdlər olmuşdu. Onlara lazımı humanitar yardımlar göstərilmişdi. Dərman preparatları, ambulanslar, digər ləvazimatlar göndərilmişdi. Elektrik verilişi bərpa edilmişdi. Radio və televiziyalar vasitəsi ilə də analoji çağırışlar edilmişdi ki, həmin əhali arasında panika olmasın. Bu həqiqətdir ki, evlərini tərk etmək qərarı onların özlərinin şəxsi və könüllü qərarıdır. Biz bundan təəssüf hissi keçiririk. Bir daha deyilir ki, əlbəttə, bu insanlar, onlar öz evlərinə qayıtmaq hüququnu özlərində saxlayırlar".

***XQ***



# Müdafiə Nazirliyinin məlumatı

**Azərbaycan Ordusunun hərbi hissələrində müddətli həqiqi hərbi xidmət müddəti başa çatmış bir qrup hərbi qulluqçunun tərxis edilməsi ilə əlaqədar tədbirlər keçirilib.**

Tədbirlərdə çıxış edənlər hərbi xidmətlərini layiqincə başa vuraraq Azərbaycanın Silahlı Qüvvələrinin ehtiyatına buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularını təbrik ediblər.

Tədbirlərdə xidmət müddəti ərzində icra olunan döyüş tapşırıqlarında fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

***

**Azərbaycan Müdafiə Nazirliyi sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində şəhid olmuş hərbi qulluqçuların yeni siyahısını açıqlayıb.**

Antiterror tədbirlərində şəhid olmuş daha beş hərbçinin adı Müdafiə Nazirliyinin açıqladığı yeni siyahıya əlavə edilib, hazırda siyahıda həlak olan 191 hərbi qulluqçunun adı var.

Qeyd edək ki, lokal antiterror tədbirləri zamanı Azərbaycan Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub. Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər də mülki şəxsdir.

11 nəfərin şəxsiyyətinin Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcəyi qeyd olunmuşdu.

Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanıb.

***XQ***

# Qarabağda yayım üçün lisenziya verilib

**Audiovizual Şuranın növbədənkənar iclası keçirilib.**

Qarabağ iqtisadi rayonunun ərazisində yaşayan əhalinin obyektiv və operativ informasiya ilə təminatının yaradılmasının təxirəsalınmazlığını nəzərə alaraq Audiovizual Şura "Baku TV" MMC-yə peyk yayımı həyata keçirən platforma yayımçısı (televiziya redaksiyasının adı "Baku TV"), "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə ümumölkə yerüstü radio yayımçısı (radio redaksiyanın adı "Azərbaycan Beynəlxalq Radiosu") lisenziyalarının verilməsi haqqında müvafiq qərarlar qəbul edilib.

***XQ***

**1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Ermənistana rəhbərlik etmiş şəxslərin apardığı daxili və xarici siyasət, o cümlədən respublikamıza qarşı əsassız ərazi iddiaları, işğalçılıq müharibələri, sərsəm “miatsum” çağırışları, bunun nəticəsində Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlanması Hayastanı çıxılmaz vəziyyətə salıb. Beş il öncə erməni xalqı onları belə acınacaqlı duruma salanlara “yox!” dedi, necə deyərlər, siyasi səhnədən süpürüb atdı.**

# Özü yıxılan ağlamaz...

## Ermənistan bundan sonra özünü ərköyün uşaq kimi aparmamalıdır



Hayların “Qarabağ klanı” adlandırdıqları Koçaryan-Sarkisyan cütlüyünün 20 illik rejimini devirmiş Nikol Paşinyan iqtidara gəlişinin ilk aylarında sülh istiqamətində müəyyən müsbət mesajlar verdi. Qarabağ məsələsinin həm erməni, həm də Azərbaycan xalqının maraqlarına uyğun, ədalətli şəkildə həllinə çalışacağını bəyan etdi. Ancaq çox keçməmiş onun ritorikası dəyişdi. Paşinyan tədricən sülhdən uzaqlaşmağa başladı.

2019-cu ilin avqustunda qanunsuz olaraq, Xankəndi şəhərinə gələn Nikol mərkəzi meydanda keçirilən mitinqdə çıxışı zamanı bədnam “Qarabağ Ermənistandır və nöqtə” fikrini səsləndirdi. Həmin fikri bir ay sonra ermənilərin Vanadzor dediyi Qarakilsə şəhərində keçirdiyi mətbuat konfransında da təkrarladı. Bununla da Paşinyan azacıq ümidlər verən, formal da olsa aparılan danışıqlar prosesinin üzərindən xətt çəkdi. Onun səsləndirdiyi fikir faktiki olaraq, İrəvanın danışıqlardan çıxmasının və Azərbaycanla yeni müharibənin başlanacağının elanı idi. Beləliklə, erməni baş nazirin təhriki və avantürizmi üzündən İkinci Qarabağ müharibəsi başlandı.

Yeri gəlmişkən, qeyd edək ki, Vətən müharibəsindən öncə – 2020-ci ilin iyulunda Tovuz döyüşləri baş vermişdi. Rəsmi İrəvanın Ermənistan–Azərbaycan qoşunlarının üz-üzə, göz-gözə dayandığı təmas xəttindən yüz kilometrdən uzaq olan yerdə hərbi təxribat törətməkdə məqsədi xarici havadarlarını, ilk növbədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı adlanan hərbi-siyasi qurumu özünün avantürasına cəlb etmək idi. Düşünürdülər ki, KTMT-də Azərbaycanın Ermənistanın suveren ərazisinə zərbə endirməsi görüntüsünü yaratmaqla, təşkilatın ölkəmizə qarşı hansısa cəza tədbiri görməsinə nail olacaqlar. Amma onların hesablamaları yanlış çıxdı. Azərbaycan yüksək dəqiqlikli silahlarla yalnız legitim hərbi hədəflərə zərbə endirdi, düşmənin atəş nöqtələri susduruldu. Beləliklə, Azərbaycan KTMT-nin işə qarışması üçün təşkilata hər hansı bir əsas vermədi. Bundan əlavə, Azərbaycan hərbi-siyasi blokun üzvü olan Belarus, Qazaxıstan, Qırğızıstan kimi ölkələrlə ikitərəfli iş apararaq, təşkilatdan gələ biləcək mümkün təhlükələri bir növ neytrallaşdırmışdı.

Bu hadisə İrəvana dərs olmadı. 2020-ci ilin yay fəsli boyunca təmas xəttində gərginlik yüksələn xətt üzrə getdi. Payızda isə bunun məntiqi nəticəsi olaraq, iki ölkə arasında gözlənilən müharibə başlandı. Müharibə Ermənistanın tam məğlubiyyəti ilə başa çatdı. Noyabrın 9-dan 10-na keçən gecə İrəvan təslimolma aktına imza atdı və üçtərəfli Bəyanatla üzərinə öhdəliklər götürdü.

Gözlənilirdi ki, Paşinyan iqtidarı bundan sonra məsələlərə rasional yanaşma sərgiləyəcək. Qarabağdakı erməni yaraqlıları tərk-silah ediləcək, hərbi texnika ərazimizdən çıxarılacaq, suverenliyimiz bölgədə tam bərqərar olunacaq, Azərbaycanın cənub-qərb rayonları ilə Naxçıvan MR arasında quru yolla əlaqənin bərpası həyata keçiriləcək. Amma sən saydığını say, görək hay nə sayır...

Müharibənin vurduğu yaralar xarici havadarların yardımı ilə tədricən sağaldıqca, haylar “dəmir yumruğ”un zərbəsinin təsirindən ayıldıqca yenə öz xislətlərinə uyğun hərəkət etməyə başladılar. Qanunsuz silahlı dəstələr Qarabağdan çıxarılmadı. Nəinki çıxarılmadı, qondarma “müdafiə ordusu” adlanan hərbi birləşmənin toparlanması həyata keçirildi. Ərazilərimiz atəşə məruz qaldı. “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsi qurulmayana qədər Ermənistandan Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilərək müxtəlif yerlərdə basdırıldı. Məlum oldu ki, ərazimizə 2021-ci ildə Ermənistanda istehsal olunmuş saysız-hesabsız mina “əkilib”. Separatçılar Azərbaycanın mərkəzi hakimiyyətinin Laçın yolu ilə yanaşı, Ağdam-Əsgəran-Xankəndi yolunun da açılmasına dair təşəbbüsünə müsbət qarşılıq vermədilər.

Sentyabrın 9-da isə separatçılar ölkəmizi qıcıqlandıran daha bir bəd əmələ imza atdılar. Həmin gün Xankəndidə saxta “prezident seçkiləri” keçirildi. Yeni saxta “prezident” seçildi. Həmin şəxs dərhal bəyan etdi ki, onlar status üçün mübarizə aparacaqlar. Prezident İlham Əliyevin sentyabrın 20-də xalqa müraciətində dediyi kimi, İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu addım atıldı. Dövlət başçımız müraciətində bildirdi: “Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi”.

Beləliklə, Ermənistanın və separatçı rejimin atdığı addımlar sentyabrın 19-20-də Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməsinə gətirib çıxardı ki, bunun nəticəsində ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa edildi.

***

Bu gün isə yazımızın əvvəlində qeyd etdiyimiz kimi, Ermənistan rəhbərliyinin apardığı siyasət üzündən ölkə çıxılmaz duruma düşüb. İndi onlar hamını ittiham edirlər, hamıdan narazıdırlar. Ermənistanın problemlərinin heç kim üçün maraqlı olmadığını bildirirlər. Narazılıq ilk növbədə Rusiya sülhməramlılarındandır. Onlar sülhməramlıların Azərbaycanın antiterror tədbirlərinə heç bir reaksiya verməməyini (?), bunun nəticəsində ermənilərin Qarabağdan köçüb getdiyini bildirirlər. Hazırda Ermənistanda güclü rusofobiya əhval-ruhiyyəsi hökm sürür. Ermənistan parlamentinin oktyabrın 3-də Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya etməsi də bunun bir elementi kimi qiymətləndirilir.

Qərbdəki bəzi dairələr də Ermənistanda anti-Rusiya isterikasının qızışdırılmasında özünəməxsus rol oynayırlar. Məsələn, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Rusiyanın Qarabağda sülh və təhlükəsizliyi təmin etməməsinin “erməni xalqına xəyanət” (?) olduğunu bəyan edib. Mişel “Euronews” kanalının “Qlobal söhbət” proqramına müsahibəsində deyib: “Rusiyanın erməni xalqına xəyanət etdiyi hamıya aydındır. Moskva sülh və təhlükəsizliyi təmin etmək üçün bölgədə hərbçilərinin olmasını istəyirdi. Lakin biz hərbi əməliyyatın Rusiya sülhməramlı qüvvələrinin zərrə qədər reaksiyası olmadan başladığını gördük. Avropa İttifaqının yerdə hərbi mövcudluğu yox idi”.

Fransa Xarici İşlər Nazirliyinə bağlı olan “Fransa diplomatiyası” saytı isə nazir Ketrin Kolonnanın İrəvana dünəndən başlayan səfəri ilə bağlı yazıb: “Xanım Kolonnanı baş nazir Nikol Paşinyan qəbul edəcək. Daha sonra o, erməni həmkarı Ararat Mirzoyanla birlikdə Azərbaycanın sentyabrın 19-da başlatdığı hərbi hücumdan və Rusiyanın seyrçi baxışları altında doqquz aylıq qeyri-qanuni blokadadan (?) sonra Qarabağı tərk etmiş erməni qaçqınları ilə görüşəcək”.

Yeri gəlmişkən, qeyd edək ki, Ermənistan parlamentinin sədri Alen Simonyan sentyabrın 28-də Dublində Fransa Milli Assambleyasının sədri Yael Braun-Pieve ilə görüşdə bildirmişdi ki, Fransa erməni xalqının və Ermənistanın əsl müttəfiqidir.

Bundan əlavə, Ermənistan rəsmiləri ABŞ-dan da narazıdırlar. Onlar Dövlət Departamentinin mətbuat katibi Metyu Millerin “ABŞ Dövlət Departamenti ermənilərin Qarabağdan kütləvi şəkildə getməsini dəlil olana qədər etnik təmizləmə adlandırmır” deməsindən rəncidə olublar. M.Miller erməni jurnalistin sualına cavab olaraq onu da bildirib ki, Azərbaycan ermənilərin ora qayıdıb yaşaması üçün kifayət qədər təminat verib.

Rəsmi İrəvan BMT-nin Qarabağa səfər edən missiyasından da narazıdır. Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan “X” platformasındakı hesabında yazıb: “BMT-nin Qarabağdakı qondarma missiyası Azərbaycanın törətdiyi etnik təmizləmə, özbaşına həbslər, mülki infrastrukturun dağıdılması və digər cinayətlərin (?) qanuniləşdirilməsi üçün əlindən gələni edib. Bu adamlar BMT-ni bir təşkilat kimi nüfuzdan salırlar. Mən BMT-nin bu “nümayəndələrin” fəaliyyəti ilə bağlı araşdırma aparmasını səbirsizliklə gözləyirəm”.

Buna baxmayaraq, İrəvanın ittihamları da cavabsız qalmır. Məsələn, Rusiyanın ünvanına yönələn ittihamlara Xarici işlər naziri Sergey Lavrov oktyabrın 2-də cavab verib. O qeyd edib ki, Qarabağın Azərbaycanın bir hissəsinə çevrilməsi ilə bağlı qərar Ermənistan baş nazirinin birbaşa iştirakı ilə qəbul edilib: “İrəvandakı ictimai-siyasi xadimlərin 2020-ci ilin noyabrında müharibəyə son qoymaqla bağlı bəyanat imzalamaqla Putin Paşinyanı Qarabağı Azərbaycana verməyə məcbur edib fikri yalandır. Həmin sənəddə yazılıb ki, Qarabağ Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasıdır və bölgənin yekun statusu ilə bağlı dialoqun davam etdiriləcəyi ilə bağlı ümumi anlaşma var idi. Amma il yarım sonra baş nazir Paşinyan Praqada keçirilən hansısa növbəti Avropa sammitində Alma-Ata Bəyannaməsinə uyğun olaraq Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü 1991-ci il sərhədləri daxilində tanıması barədə sənəd imzaladı. Bununla da məsələ bağlandı. Sonra o, bu termindən Brüsseldə də istifadə etdi”.

Beləliklə, ümumiləşdirmə apardıqda aydın olur ki, 44 günlük müharibənin başlanmasının, 19-20 sentyabrdakı antiterror tədbirlərinin, Qarabağdan erməni əhalinin köçünün məsuliyyəti bilavasitə Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ölkə rəsmiləri başqalarını ittiham etməzdən qabaq özünə tənqidi yanaşmalı, heç olmasa bundan sonra rasional qərarlar verməlidirlər. Həmin rasional qərarlar isə Azərbaycanla tezliklə sülh müqaviləsinin imzalanması, üçtərəfli Bəyanatın qalan müddəalarının yerinə yetirilməsi, Azərbaycanla bağlı müxtəlif instansiyalarda təxribat xarakterli addımlar atmaqdan əl çəkməsindən ibarət ola bilər.

***Səxavət HƏMİD***
***XQ***

**EKSPERT RƏYİ**



**Yücel KARAUZ,**
**Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi, ehtiyatda olan general-mayor**

– Ermənistan Vətən müharibəsindən və 24 saatlıq antiterror tədbirlərindən sonra işğal etdiyi Azərbaycan torpaqlarından tamamilə çəkilmək məcburiyyətində qaldı. Bu ölkənin dövlət rəsmiləri son yüz ildə xarici güclərin, diasporun dəstəyi ilə siyasət yürüdüblər. Onun müstəqil qərar qəbul etmək bacarığı yoxdur. İrəvan gah Rusiya, gah ABŞ, gah İran, gah da Avropa İttifaqı ilə əməkdaşlıq edərək onların mənafeyinə uyğun addımlar atıb.

Normalda Ermənistanın bundan sonra qonşuları – Türkiyə, Azərbaycan, Gürcüstan və İranla sülhpərvər, koordinasiyalı fəaliyyət göstərməsi lazımdır. Ermənistanın quru sərhədlərinin uzunluğunun 70-75 faizi Azərbaycan və Türkiyə ilədir. Güclü Azərbaycan və Türkiyənin mövcudluğu şəraitində Ermənistanın sülh, sabitlik, dinclik istəməkdən başqa şansı yoxdur.

Antiterror tədbirlərindən sonra Ermənistan strateji müttəfiqini dəyişdirmək durumunda qalıb. Strateji müttəfiqi Rusiyanın yerini ABŞ və Fransa başda olmaqla Avropa ilə doldurmağa çalışmaqdadır. Qarşıdakı dövrdə Ermənistandakı Rusiya hərbi mövcudluğunun başa çatması gözləniləndir. Ermənistan İranla əməkdaşlığı davam etdirəcək. Ancaq əvvəlkitək təcavüzkar siyasətin aparılması mümkün deyil. Türkiyə və Azərbaycanla razılaşmadan yoluna davam etməsi, keçmiş adətlərinə davam etməsi, özünü ərköyün uşaq kimi apararaq, hər istədiyini ağlamaqla-sızlamaqla əldə etməyə çalışması qeyri-mümkündür. Bölgədə sülh olacaqsa, Zəngəzur dəhlizi açılacaqsa, Azərbaycanla sərhədlər müəyyənləşdiriləcəksə, problemlər sıfırlanacaqsa, bundan ən çox faydalanan yenə Ermənistan olacaq. Ermənistanın düşüncələrinin dəyişməsi, ağlını başına yığması gərəkdir.

# Barmağımız tətikdə olmalıdır

## Ermənistan yeni müharibə hazırlığındadır

**(əvvəli 1-ci səhifədə)**

Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın İrana səfəri zamanı İslam respublikasının Xarici işlər naziri Hüseyn Əmir Abdullaian ilə görüşündə də Cənubi Qafqazda sərhədlərin toxunulmazlığı məsələsi gündəmə gəlib. Əlbəttə, əvvəlki sərt ritorika olmasa da, Tehranın məsələyə mövqeyi bəllidir. Yəni, İran Cənubi Qafqaz ölkələrinin, xüsusən də Ermənistanın ərazi bütövlüyünün qorunmasının vacibliyi üzərində dayanır. Ancaq Qriqoryanın mövcud məntiqi qabartması təxribatdır. Aşkar görünür ki, o, ölkəsi üçün Tehrandan dəstək umur...

Belə demək mümkünsə, ən böyük “bombanı” Ermənistanın Avropa İttifaqındakı səfiri Tiqran Balayan partladıb. O, “Qarabağa təcavüzə görə” Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırıb və xəbərdarlıq edib ki, Qərb qəti addımlar atmasa, Bakı tezliklə Ermənistanın özünə hücumu gerçəkləşdirə bilər. Sanksiya tədbiri kimi, Azərbaycan nefti və qazının qiymətlərinin məhdudlaşdırılmasını və Aİ-nin Bakı ilə daha sıx münasibətlərə dair danışıqlarının dayandırılmasını irəli sürən T.Balayan “Reuters” agentliyinə müsahibəsində, həmçinin Qərbi Ermənistana “möhkəm” təhlükəsizlik yardımı göstərməyə səsləyib. Onun sözlərinə görə, “təkcə Ermənistan hökuməti deyil, həm də bir çox ekspertlər, o cümlədən Aİ-nin bəzi üzv ölkələrindən olan siyasi müşahidəçilər Ermənistan ərazisinə hücumun, guya, qaçılmaz olduğuna inanırlar.

T. Balayan onu da bildirib ki, Aİ-nin yüksək vəzifəli rəsmiləri və bir çox üzv ölkələrin liderləri Azərbaycanın hərəkətlərini pisləyiblər. Lakin qurum böhrana cavab olaraq, ancaq humanitar yardım göstərib, başqa konkret tədbirlər baxımından çox az iş görüb. Balayanın fikrincə, diplomatlar Aİ üzvlərinin konsensus tapmaqda çətinlik çəkdiklərini deyirlər. “Bəzi ölkələr, tutalım, Fransa və Hollandiya ən azı sərt tədbirləri nəzərdən keçirməyə hazırdır, digərləri, məsələn, Macarıstan və Rumıniya bunu etməkdən çəkinirlər”, – deyən T.Balayanın erməni iddiaları naminə quruma üzv ölkələr arasında nifaq yaratmaq yolu tutduğu aşkardır.

Təxribatçı mövqe tutan erməni diplomat müsahibəsində, eyni zamanda, Azərbaycan və Ermənistan liderlərinin sabah Qranadada Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi, Fransa prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə keçiriləcək görüşünə də toxunub və bildirib ki, bu təmas Aİ-nin Bakı qarşısında konkret “qırmızı cizgilər” müəyyənləşdirəcəyi təqdirdə, faydalı ola bilər. Sən demə, Balayan üçün Qarabağ “qırmızı cizgi” imiş və lokal xarakterli antiterror tədbirləri həmin cizginin pozulması deməkdir. Bu da erməni diplomatın növbəti həyasızlığı. Hər halda, onun təlimatının İrəvandan gəldiyi aşkardır.

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev, eləcə də ölkəmizin digər rəsmiləri çıxışlarında müasir Ermənistan Respublikasının Azərbaycanın əzəli torpaqları hesabına yaradıldığını dəfələrlə vurğulayıblar. Bu vurğulanma heç də elə-belədən ortaya çıxmayıb. Ermənistan illərlə Azərbaycan ərazilərini işğalda saxlayıb. İndi işğal bitib, amma erməni avantürizmi davam etməkdədir. Belə olan halda, heç şübhəsiz, beynəlxalq hüquqla yanaşı, tarixə də müraciət zərurəti yaranır. Tarix həqiqətlərin sərt yaddaşıdır. O yaddaş isə göstərir ki, Ermənistan adlı dövlət olmayıb və yalnız 1918-ci ildə Azərbaycan torpaqları hesabına formalaşdırılıb. Bunun bildirilməsi heç bir halda ərazi iddiası kimi qiymətləndirilə bilməz. Əgər, belə qiymətləndirilirsə, deməli, problem İrəvanın özündədir. Problem yaşayanlardan, daha doğrusu, başına çətinlik açanlardan biri də fikirlərini diqqətə çatdırdığımız T.Balayandır. O deyir ki, Azərbaycanın Ermənistan ərazisindən Naxçıvan anklavına quru dəhlizi yaratmaq üçün güc tətbiq edəcəyindən ehtiyatlanır. Balayanın bildirdiyinə görə, Azərbaycanın hərbi məqsədləri, hətta Naxçıvandan da kənara çıxa bilər. O, ağlaşma quraraq deyib ki, ənənəvi müttəfiqi Rusiya yüz milyonlarla dollarlıq silah sifarişlərini yerinə yetirmədiyindən, Ermənistan təhlükəsizlik baxımından müdafiəsiz vəziyyətdə qalıb.

***

İstər A.Simonyanın, istər A.Qriqoryanın, istər A.Mirzoyanın, istərsə də T.Balayanın fikirləri, haray-həşir qoparmaq, ajiotaj yaratmaq, həyəcan təbili çalmaq niyyətləri fərqli məqsədlərdən xəbər verir. “Məqsədlərə” gəlincə, son günlər Kəlbəcər istiqamətində Ermənistan silahlı qüvvələrinin mövqelərindən açılmış snayper atəşi nəticəsində Azərbaycanın hərbi qulluqçusunun şəhid olduğunu bilirik. Bundan başqa, Ermənistanda müəyyən revanşist-şovinist qüvvələrin aktivləşdiyini müşahidə etməkdəyik. Paralel olaraq, Azərbaycana qarşı partizan müharibəsi aparılmasından dəm vuranlar meydana atılır. Bəzi ekstremist təşkilatların buna yönələn çağırışları gündəmə gəlir. Həm Ermənistan hakimiyyətinin yuxarıda qeyd etdiyimiz tərzdəki rotorikası, həm axırıncı sadaladıqlarımız, əslində, hansı tərəfin işğalçılıq niyyəti güddüyünün təsdiqidir. Bu ritorikanın isə yekunda Azərbaycan – Ermənistan sülh gündəliyini pozmağa yönəldiyi gün kimi aydındır.

Partizan müharibəsindən söz düşmüşkən, Qarabağın müxtəlif bölgələrində də atəş səsləri eşidilib. Xankəndi yaxınlığında Rusiya – Azərbaycan birgə patruluna snayper silahdan atəş açılıb. Belə nəticəyə gəlmək mümkündür ki, burada hər şey planlaşdırılıb və baş verənlərdən Ermənistan iqtidarı yaxşı xəbərdardır. Eyni zamanda, bu qənaətə gəlmək olar ki, ölkənin hakimiyyəti dörd bir yana Azərbaycanın, guya, Ermənistan ərazisinə hücumu ilə bağlı rəy formalaşdırmaqla, əslində, eyni “əməli” özü gerçəkləşdirməyi planlaşdırır. Sadəcə, beynəlxalq ictimaiyyəti yanıltmaq yolu tutur.

Göründüyü kimi, hazırkı situasiyada Ermənistan müxalifəti ilə iqtidarı arasında, prinsipcə, heç bir fərq yoxdur. Onların hər ikisi qatı anti-Azərbaycan yönümlüdür. İrəvanın bununla bağlı məntiqinin iki istiqaməti var. Birincisini qeyd etdik – Azərbaycanın Ermənistan ərazisinə hücumu. İkinci istiqamət isə Qarabağdan köç etmiş ermənilərdir. Mövcud xüsusda Bakının, guya onlara qarşı etnik təmizləmə siyasəti apardığı qabardılır. Bu məqsədlə müxtəlif beynəlxalq təşkilatlara müraciətlər ünvanlanır. Deməli, Ermənistan hakimiyyəti üçün Azərbaycana qarşı mübarizənin hər iki seqmenti önəm daşımaqdadır. Bütün bunlar isə onu bildirməyə əsas yaradır ki, İrəvan Cənubi Qafqazda çoxdandı gözlənilən sülh mühitinin formalaşmasını istəmir.

***

Qeyd edək ki, Ermənistan hakimiyyəti Azərbaycanın 2022-ci ilin sentyabr eskalasiyası zamanı ölkənin bəzi ərazilərini, guya, artıq işğal etdiyi iddiasını da gündəmə gətirməkdədir. Bu, son dərəcə vacib məqamdır və həmçinin ona söykənərək demək mümkündür ki, İrəvan sülh gündəliyindən yayınmaqdadır. Nəzərə alaq ki, yekun sülh müqaviləsi dildə deyilənlərin əməldə gerçəkləşməsidir. Yəni, Ermənistan baş naziri Nikol Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada, 2023-cü il mayın 14-də Brüsseldə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edibsə, sülh müqaviləsinin imzalanması ilə bu məsələ ən yüksək səviyyədə rəsmi təsdiqini tapmalıdır. Müqavilə, eyni zamanda, tərəflər arasındakı münasibətlər baxımından da beynəlxalq öhdəlik formalaşdıracaq. Öhdəliyə əməl etmək isə şərtdir.

Öhdəliyə əməl etmək, ümumən münasibətlərdəki səmimi yanaşma sərhədlərin delimitasiyasının və demarkasiyasının həyata keçirilməsini tələb edir. Konkret sərhəd zolağının müəyyənləşdirilməsini də həmçinin. Nəzərə alaq ki, hazırda mövcud istiqamətdə qeyri-müəyyən durum var. Belə görünür, sülhdən yayınan Ermənistan rəhbərliyinin istəyi bu qeyri-müəyyənliyin qorunması, mövcud status-kvonun saxlanılmasıdır. Məqsəd, bir daha deyək ki, yeni işğalçılığın həyata keçirilməsidir. Sərhəd yoxdursa, kim güclüdürsə, sərhədi də o müəyyən edəcək. Ermənistan iqtidarı vaxt udaraq, ölkənin hərbi cəhətdən güclənməsinə sərmayə yatırmaq niyyətindədir. Deməli, İrəvan haqqında söz açdığımız sülh müqaviləsi öhdəliyini həm də buna görə götürmək istəmir və prosesdən yayınır. Vaxtilə Qarabağ ərazisindəki separatçı rejimin varlığını qorumaq istəyən Ermənistan hakimiyyəti eyni qaydada çalışırdı ki, danışıqlar prosesi uzansın.

Bəli, Azərbaycanın antiterror tədbirləri bu sayaq mənfur niyyətlərin qarşısını aldı. Ancaq bu tədbirlərin, eyni zamanda, yuxarıda göstərdiyimiz iki istiqamət üzrə “aktivlik” doğurduğunu vurğulamalıyıq. Bu “aktivlik” fazasında Ermənistan hakimiyyətinin təmsilçilərinin Azərbaycanın təcavüzü məntiqini qabartmaları, simonyanların, qriqoryanların və digərlərinin işə düşmələri, necə deyərlər, qabaqdangəlmişlikdir. Ona görə qabaqdangəlmişlikdir ki, Ermənistanın yeni müharibə hazırlığına başladığını söyləmək üçün, kifayət qədər, ciddi əsaslar mövcuddur.

Məsələn, İrəvana səfərə gəlmiş Fransanın Xarici işlər naziri Ketrin Kolonna bir neçə gün əvvəl vurğulamışdı ki, Ermənistanla bir sıra məsələləri, o cümlədən, müdafiə məsələlərini müzakirə edəcək. Səfərin gündəliyində başlıca olaraq bu məqamın dayandığı məlumdur. Yüksək səviyyəyə malik Paris – İrəvan əməkdaşlığına artıq hərbi sahədə yardımın və ya Ermənistanın müdafiəsinin təşkili məsələsinin əlavə olunduğu aydındır.

Fransanın müdafiə naziri Sebastyan Lekornu da ölkəsinin Ermənistanın müdafiə ehtiyaclarını öyrəndiyini bildirib. O, mövcud istiqamətdə Prezident Emmanuel Makronun qəti tapşırıqlar verdiyini vurğulayıb. Üstəlik, Fransa hərbi attaşelərinin İrəvanda danışıqlar apardıqları rəsmi təsdiqini tapıb.

Fransa – Ermənistan əməkdaşlığı müstəvisindəki iddialardan biri də budur ki, Paris Nigeri Ermənistanla mübadilə etmək niyyətindədir. Belə bir düşüncə hakimliyi varsa, deməli, Fransanın Nigerdən çıxardığı hərbi qüvvələri Ermənistanda yerləşdirməsi mümkündür. Hər halda belə fikirlər dolaşmaqdadır. Maraqlıdır, o da iddia olunur ki, Parisin hədəfi Zəngəzur dəhlizidir. Dünya siyasətindəki nüfuzunu itirmiş Fransanın bu dəhlizdə iştiraka, onun təhlükəsizliyinin təminatına qoşulmağa çalışdığı bildirilir. Qafan və Gorusda konsulluğun açılması da bu planın tərkib hissəsi olaraq qiymətləndirilir.

Qeyd edək ki, NATO ölkəsi Fransanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistana hərbi yardım göstərməsinin qeyri-mümkünlüyü əvvəllər də çox bildirilirdi. Bunu, hətta İrəvan tərəfi, müəyyən mənada, giley şəklində yada salırdı. Ermənistandakı siyasi dairələr isə deyirdilər ki, Paris sözdə dəstək məntiqi ilə İrəvanın illüziyaya qapılmasına şərait yaradır və bu, yekunda Azərbaycanın sərt davranmasına gətirib çıxarır, Ermənistan zərər görür. Ancaq indi vəziyyət nisbətən fərqlidir.

Əvvəla, Paşinyan administrasiyasının Rusiya ilə münasibətlər kontekstində, eyni zamanda, KTMT-yə qarşı çıxma əzmi xeyli güclənib. Erməni iqtidarı hazırda anti-Moskva xəttinə Gümrüdəki, yəni Türkiyə ilə sərhəddəki 102-ci rus hərbi bazasına qarşı çıxmağı əlavə edib. İrəvan Kremldən həmin bazaya görə illərlə ödənməmiş icarə haqqını tələb etməyə başlayıb. Deməli, Nikol 102-ci bazanın ölkədən uzaqlaşdırılmasına artıq start verib.

Bütün bunlar onu deməyə əsas verir ki, N. Paşinyanın bir müddət əvvəl bildirdiyi kimi, Ermənistan özünün təhlükəsizlik alətlərinə əl gəzdirməyə girişib. Mövcud istiqamətdəki fəaliyyətin isə birbaşa Azərbaycana qarşı yönəldiyi aşkardır. İndiki halda söhbət Fransadan düşürsə, bu NATO ölkəsinin İrəvana hərbi yardım baxımından alyans çərçivəsindəki silahlardan deyil, daxili istehsal məhsulu sayılan silah-sursat verməsi mümkündür. Bunlar əsasən atıcı silahlardan, qismən iri çaplı olmayan artilleriya qurğularından və zirehli transportyorlardan ibarət ola bilər. Ən böyük hədiyyə hava hücumundan müdafiə sistemləridir. Yeri gəlmişkən, erməni mediasında bununla əlaqədar, hələlik, səthi məlumatlar dolaşmaqdadır.

Sonda bir daha deyək ki, bəli, Ermənistan Azərbaycanla yeni müharibə hazırlığındadır. İndi tam aydın görünür ki, vaxtilə “Qarabağ xalqının” öz müqəddaratını təyin etməsi oyunu, antiterror tədbirlərinədək Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsi yalnız bir bəhanə idi. Necə ki, Paşinyan 2019-cu ildə “Qarabağ Ermənistandır və nöqtə” demişdi, indi də onun komandası reallaşdırdığı kurs ilə eyni düşüncədədir. Erməni iqtidarı, heç bir halda, Azərbaycanın ərazi bütövlüyünü qəbul etmir və həmin ərazilərə qəsb barədə, o cümlədən, qəsb üçün zəmin yaratmaq barədə düşünür. Deməli, əsgərlərimizin, hərbi qulluqçularımızın barmaqları daim tətikdə olmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Heç kəs zərər çəkməyib, heç nə dağıdılmayıb...”

## BMT missiyası bölgəyə ziyarətdən bu qənaətlə ayrılıb



(əvvli 1-ci səhifədə)

İndi Hayastanda müxalif qüvvələr Qarabağdan köçənlərdən Paşinyan iqtidarına qarşı istifadə edilə biləcək, hökumət isə Azərbaycana “etnik təmizləmə” ittihamı irəli sürmək üçün potensial alət kimi baxır. Bakı isə bölgədə çoxdan gözlənilən sülhün bərqərar olmasını arzulayır.

* * *

Oxuculara xatırladaq ki, iki gün əvvəl BMT missiyası Qarabağ bölgəsinə səfərindən sonra təşkilat müvafiq bəyanat yayıb. Bəyanatda deyilir ki, missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olub. Missiya üzvlərinin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib. Missiya, həmçinin Azərbaycan hökumətinin şəhərdə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşdığını müşahidə edib. BMT təmsilçiləri fəaliyyət göstərən heç bir mağaza görməyib. Missiyaya son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb. BMT-nin Azərbaycandakı Nümayəndəliyi regiona müntəzəm səfərlərini davam etdirməyi planlaşdırır.

Yəni rəsmi İrəvanın və onun Fransa kimi havadarlarının car çəkdiklərinin əksinə olaraq, bölgədə hansısa etnik təmizləmədən, dinc erməni sakinlərinə zor tətbiq etməkdən danışmaq yersizdir. BMT-nin Azərbaycandakı Nümayəndəliyinin saytında yerləşdirilən məlumatda o da qeyd olunur ki, qurumun Bakıdakı rezident-əlaqələndiricisi Vladanka Andreyevanın başçılıq etdiyi mülki missiyaya BMT-nin humanitar məsələlərin koordinasiyası üzrə idarəsinin əlaqələndirmə şöbəsinin direktoru Rameş Racasinqhem, təşkilatın ərzaq və kənd təsərrüfatı üzrə nümayəndələri, BMT-nin Qaçqınlar üzrə Agentliyi, UNİCEF və digər strukturların təmsilçiləri daxil olublar.

İrəvana səfər edən BMT Baş katibinin təmsilçisi Stefan Dücarrik media üçün təşkil edilən brifinqdə bildirib ki, bölgəyə birgünlük ziyarəti zamanı beynəlxalq missiyanın üzvləri Xankəndidəki mülki infrastrukturun, o cümlədən məktəb və xəstəxanaların dağıdılmasına dair heç bir fakt aşkar etməyiblər”.

Bununla yanaşı, Almaniya Federal Xarici İşlər Nazirliyi (XİN) Azərbaycanın BMT missiyasının ölkənin Qarabağ bölgəsinə səfərinə razılıq verməsini müsbət addım hesab edib. Bu açıqlamanı Almaniya XİN “X” sosial şəbəkəsində paylaşıb: “Yalnız şəffaflıq Azərbaycanın bu bölgədəki bütün sakinlərin və buraya qayıdanların hüquqlarını qorumaq vədinə inamı gücləndirə bilər”.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel də erməni sakinlərin hüquqlarının və təhlükəsizliyinin qorunmasında Azərbaycan tərəfinin böyük məsuliyyət daşıdığını deyib. Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasından danışan Aİ lideri sülhün hər iki tərəfin öhdəliklərini müəyyən edə biləcək danışıqları tələb etdiyini vurğulayıb.

* * *

“Biz regiondakı vəziyyəti öyrənmək üçün mütəmadi əlaqə saxlayırıq. Əgər hər hansı qanunsuzluq törədilərsə və bununla bağlı sübutlar olarsa, ona uyğun addımlar atmaqdan və bunu törədənləri məsuliyyətə cəlb etməkdən çəkinməyəcəyik”.

Bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller dünən keçirdiyi brifinq zamanı Qarabağda baş verənlərlə bağlı çıxışında deyib. O, həmçinin bildirib ki, etnik təmizləmə və ya soyqırımı kimi iddilar faktlara əsaslanır və bu olmadan danışmaq doğru deyil.

“Bölgədən gedənlərin neçə faizinin daimi olaraq Ermənistanda qalacağını blmirik. Onların neçə faizi şərtlər imkan verəcəyi təqdirdə geri qayıtmaq istəyəcək? Biz bir daha müstəqil beynəlxalq missiyanın cəlb edilməsi ilə bağlı çağırışımızı təkrar edirik. Bu missiya Qarabağdakı ermənilərin haqlarının və təhlükəsizliyinin təmin olunmasına nəzarət edir. Azərbaycan tərəfi onların hüquq və təhlükəsizliyinin təmin olunacağını bildirib. Biz bunu müşahidə etmək üçün missiyanın da orada olmasını istəyirik”,– deyə Miller qeyd edib. Güman edirik ki, cənab Miller bu arzusunu dilə gətirərkən missiyasının bölgədə daimi əsaslarla fəaliyyətini nəzərdə tutmayıb.

Dövlət Departamentinin sözçüsü Vaşinqtonun müttəfiqləri və tərəfdaşları ilə uzunmüddətli missiya və bunun fəaliyyət mexanizmini müzakirə etdiyini nəzərə çatdırıb. “Ümid edirik ki, Ermənistana getmiş Qarabağ ermənilərinin geri qayıdarkən hüquqlarına hörmət ediləcək. Biz, həmçinin Azərbaycan ilə Ermənistanı sülh danışıqlarına qayıtmağa təşviq edirik”, – deyə Miller bildirib.

Metyu Miller, həmçinin diqqətə çatdırıb ki, Vaşinqton BMT missiyasının regiona səfər etməsini təqdirəlayiq hesab edir. Eyni zamanda sözçü ABŞ xarici siyasət idarəsinin Bakı və İrəvanı sülh danışıqlarına qayıtmağa təşviq etdiyini vurğulayıb.

* * *

Aydin məsələdir ki, hadisələrin düşündüyü ssenari üzrə getmədiyindən narazı qalan İrəvan və əlaltıları indi də fərqli beynəlxalq layihələrlə gündəmə gəlməyə çalışırlar. Beynəlxalq missiyanın Qarabağa səfərindən və onun nəticələrindən narazı qalanlardan biri də Ermənistanın xüsusi tapşırıqlar üzrə nümayəndəsi Edmon Marukyandır. O, BMT-nin mülki missiyasının Qarabağdakı işini tənqid atəşinə tutub. Özünün X sosial şəbəkəsində yazdığına görə, guya beynəlxalq ekspertlər Azərbaycanın həyata keçirdiyi “müxtəlif xarakterli cinayətləri leqallaşdırıb: “Mən səbirsizliklə bu “mülki missiyanın” fəaliyyətinin BMT rəhbərliyi tərəfindən araşdırılmasını gözləyirəm”.

Nə deyə bilərik. Gözləyin. Amma bu dəfə sonsuzluğu qədər gözləməli olacaqsınız. Çünki otuz il boyunca çaldığınız saxta notlu havadan hamı bezib. Həm də bu havaya oynamaqdan yorulublar. İndi təbii və bəşəri musiqi sədaları eşidilir...

Sabah İspaniyanın Qranada şəhərində keçiriləcək beştərəfli görüş sülhə və tərəflərə münasibətdə ABŞ-ın və Aİ-nin hansı yolu tutacağını göstərəcək. Əslində, ötən Sammitdən sonrakı müddətdə bölgədə tamamilə yeni reallıq yaratmış Bakı tərəflərə daha konstruktiv olmaq şansını verir. Bakı əvvəlcədən xəbərdarlıq etdiyi məqama yaxınlaşıb: Azərbaycan Qarabağ üzərində suverenliyini tam bərqərar etdi və buna sülh müqaviləsi imzalanmadan nail oldu! Münaqişə de-fakto özünün yekun mərhələsini yaşamaqdadır. Qalıb onu imza ilə qanuniləşdirmək.

***İmran BƏDİRXANLI***
***XQ***



### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Bəli, BMT-nin missiyası bölgədə olan real vəziyyəti qeydə alıb. Gördülər ki, Qarabağ ermənilərinə heç kim təzyiq göstərməyib, onların əmlakına toxunulmayıb. Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Elçin Əmirbəyov ikinci dəfə elan etdi ki, bölgədə doğulmuş ermənilər və onların ailə üzvləri istədikləri zaman Qarabağa qayıda bilərlər. Və ermənilərdən fərqli olaraq, biz onların evlərini yandırmamışıq, malını talan etməmişik. Dediyimiz reallığı təkcə BMT missiyası deyil, həm də ABŞ Dövlət Departamentinin sözçüsü də təsdiqləyib. O, Qarabağda etnik təmizləmə ilə bağlı suala etiraz edib və bununla bağlı heç bir sübutun olmadığını bildirib. Əlbəttə, BMT-nin mülki missiyası yalnız gördüyünü, şahidi olduğu həqiqəti söyləyir.

Belə baxanda ermənipərəst qüvvələrin də şıltaqlığının bir sərhədi olmalıdır. Yalançı statistika, uydurma faktlarla nə qədər çək-çevir etsələr də, heç nə əldə edə bilməyəcəklər. Azərbaycana qara yaxmağa çalışan o qüvvələr otuz beş il əvvəl Ermənistandan soydaşlarımızın hansı vəziyyətdə qovulduqlarını yadlarına salsınlar. Bir gecədə 613 nəfərin qətlə yetirildiyi Xocalını xatırlasınlar. Amma Azərbaycan beynəlxalq hüquq çərçivəsində davranır. Dəridın-qabıqdan çıxsalar belə, boynumuza “etnik təmizləmə” yükünü qoymağı bacarmayacaqlar.

### Ekspert rəyi



**Elşən MUSTAFAYEV,**
**beynəlxalq münasibətlər üzrə ekspert**

Ermənilər fərqli ssenarinin hazırlığını görmüşdülər. Onların fikrincə, Azərbaycan Ordusu dərhal Xankəndiyə girməli, qondarma rejimin idarəetmə strukturu dağıdılmalı, kütləvi həbslər aparılmalı, nəhayət, erməni əhalisinə zor tətbiq edilməli, işgəncə, ölüm faktları olmalı idi. Amma bunların heç biri olmadı. BMT missiyasının bölgəyə səfəri, Azərbaycan tərəfinin onları müşayiət etməsi həqiqətin ortaya çıxması üçün şans oldu. Gözə girən reallığın, həqiqətin qarşısında doğrunu deməkdən başqa yol qalmır.

Sabah Qranadada Azərbaycan – Ermənistan–Avropa İttifaqı–Makron–Şolts formatında beştərəfli görüş keçiriləcək. Bu görüşə qədər Avropa Parlamentinin Azərbaycan əleyhinə sənəd qəbul etdirmək üçün layihə hazırlaması və onu məhz Qranada danışıqları zamanı səsverməyə çıxaracağı münaqişənin həllinə, sülh müqaviləsinin imzalanması perspektivinə qarşı təxribatdan başqa bir şey deyil. Bu səbəbdən Azərbaycanın müvafiq strukturlarının Qarabağda qalan erməni əhali ilə reinteqrasiya ilə bağlı maarifləndirmə işlərini gücləndirməsi, bu istiqamətdə digər işlərin görülməsi çox vacibdir. Həmin işlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması ilə bağlı da intensiv çalışmaq lazımdır. Hazırda əleyhimizə aparılan təbliğatlardan biri Laçın dəhlizi vasitəsilə 100 mindən artıq ermənininin zorla çıxarılması – etnik təmizləmə ittihamıdır. Aydındır ki, köçənlərin bir hissəsi könüllü, bir hissəsi də separatçıların təhriki ilə gedib. Amma əminəm ki, bunlar deyilən rəqəmin heç yarısı qədər deyil. O səbəbdən əlimizdə olan real rəqəmlərin açıqlanması vacibdir.

KÖŞƏ

# Ermənilərə göz yaşı axıdanlar...

**Azərbaycan Qarabağda sonuncu antiterror tədbirlərini çox qısa müddətdə – bir sitka ərzində həyata keçirərək, özünün suverenliyini tam təmin etdi. Bununla da, ölkəmizin 30 ildən bəri uğrunda mübarizə apardığı ərazi bütövlüyü və suverenliyi, eləcə də ərazisindəki separatizmə son qoyulması məsələləri tamamilə həll olundu.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Bundan sonra bir daha bəyan olundu ki, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bağlı real addımlar atılacaq. Və atıldı da. Yevlaxda Qarabağ ermənilərinin nümayəndələri ilə ilk görüş, daha sonra ikinci görüş keçirildi.

Yəni Azərbaycan həmişə olduğu kimi, bu dəfə də dediyi sözə əməl etdiyini ortaya qoydu. Amma Ermənistan, həmişə olduğu kimi, bu dəfə də təxribatından qalmadı. İrəvandan necə komanda verilmişdisə, Qarabağ erməniləri olan-qalanlarını maşınlarına yükləyib üzü Ermənistana yol aldılar.

Ermənistanın təxribatları bununla da bitmədi, yenidən Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edildi, Azərbaycandan Qarabağdan könüllü gedən haylar üçün təhlükəsizlik təminatı tələb olundu. Bu da azmış kimi, bütün dünyanı üstümüzə qaldırmağa başladılar ki, ay aman, qoymayın, 100 min erməni evini tərk edir. Amma faktiki olaraq bu insanlar Qarabağı könüllü şəkildə tərk edirdilər.

Təbii ki, Qərbdə “xristian damarı” sızlamağa başladı. BMT-də Qarabağa missiya göndərilməsi qərara alındı. Missiya yubanmadan Xankəndiyə gəldi və oktyabrın 2-də özünün ilk hesabatını açıqladı. Amma hesabatdan da görünür ki, Ermənistanın və beynəlxalq erməni lobbi və diasporlarının iddialarının əksinə olaraq, Qarabağda ermənilər nəinki hər hansı diskriminasiya ilə üzləşməyib, hətta könüllü gediblər.

Missiyanın bəyanatında deyilir ki, araşdırma aparmaq üçün oktyabrın 1-də Xankəndiyə gəlib. Bu şəhərdə mülki infrastruktura heç bir ziyan dəyməyib. Azərbaycanın sentyabrın 19–20-də Qarabağda keçirdiyi antiterror tədbirlərindən sonra ermənilər “etnik təmizləmə” ilə üzləşməyib, bununla bağlı ittihamlar özünü doğrultmayıb. BMT-nin missiyasının bölgədə işləməsinə şərait yaradılıb: “Antiterror tədbirlərindən sonra separatçı qurum özünü buraxıb, Azərbaycan bütöv Qarabağda nəzarətini bərpa edib, burda yaşayan etnik ermənilər isə kütləvi şəkildə ərazini tərk etməyə başlayıb. Bazar ertəsi rəsmi Bakı Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı planını açıqlayıb. Bir gün qabaq isə elan edib ki, artıq Dövlət Miqrasiya Xidməti Xankəndidə əhalinin reinteqrasiyası prosesinə başlayıb. Ermənistan 100 mindən çox ermənininin Qarabağı tərk etdiyini deyir. BMT bir həftə ərzində gedənlərin sayının 88 mindən çox olduğunu bildirib. Azərbaycan hökuməti Qarabağı tərk edənlərin sayını açıqlamayıb. Ermənistan Qarabağda 120 min, Azərbaycan 50 min etnik ermənininin yaşadığını deyir”.

Missiya Xankəndi şəhərində az əhali qaldığını müşahidə edib və həmsöhbət olduğu adamlardan Qarabağda 500–1000 arası erməni sakinin qaldığını eşidib.

Bunu xüsusi vurğulamaq lazımdır ki, BMT missiyasına son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb.

Budur bir nömrəli beynəlxalq təşkilatın missiyasının verdiyi bəyanat. Amma bizim diqqətimizi cəlb edən bu hesabat deyil. Hesabatda, təbii ki, qeyri-adi heç nə yoxdur, nə görüblərsə, onu da yazıblar. Bu, Azərbaycanın tədbirləri nə qədər səliqəli görməsinin nəticəsidir. Diqqətimizi cəlb edən əsas məsələ Qərb dünyasının, demək olar ki, ananın öz körpəsinin üstündə əsdiyi kimi, ermənilərin üstündə əsməsidir. İnanmaq olmur ki, bir ermənininin belə burnunun qanamadığı bir vaxtda bu qədər ajiotaj yaradan Qərb dünyasının donmuş vicdanı 1988–1993-cü illərdə Ermənistandan və bütün Qarabağdan 1 milyon azərbaycanlının vəhşicəsinə qovulmasına, öldürülməsinə, təhqir olunmasına, qadınlara qarşı vəhşiliklərə necə susa bilmişdi? Axı azərbaycanlılar da Allahın yaratdığı canlı insanlar idilər. Bəlkə müsəlman olmaqları idi onların günahı?! Məgər müsəlman olanlar Qərb dünyasının nəzərində insan deyil? O zaman həm BMT, həm də hər bir Qərb ölkəsi və təşkilatı günahsız, dinc azərbaycanlıların faciələrinə biganə yanaşdılar, susdular. Həmin susqun vicdanlar indi gül-çiçəklə yola salınan ermənilərə göz yaşı tökür, milyonlarla dollar pul ayırır.

ABŞ-ın ermənilərin könüllü köçünə münasibəti də bir qədər qeyri-normal, qeyri-adekvat səslənir. Bu günlərdə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin brifinq zamanı Qarabağda baş verənlərə münasibətini birmənalı qarşılamaq mümkün deyil. Bu fikirlərdə bizə qarşı hətta hədə-qorxu da var. Cənab Miller deyir ki, “Biz regiondakı vəziyyəti öyrənmək üçün təmasdayıq. Əgər hər hansı vəhşilik törədilərsə və bununla bağlı sübutlar olarsa, ona uyğun addımlar atmaqdan və bunu törədənləri məsuliyyətə cəlb etməkdən çəkinməyəcəyik”.

Bax, bu, özünü “demokratiya beşiyi” sayan ABŞ-ın ikili standartlara yaxşı nümunə olacaq münasibətidir. Biz bu münasibəti keçən əsrin 90-cı illərində azərbaycanlılarla bağlı erməni vəhşilikləri zamanı görmədik. Onda belə çıxır ki, ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər ABŞ başda olmaqla, bütün Qərb dünyasının ürəyincə olub. Əks halda, bircə dəfə ermənilərə “dayan” deyilərdi. Bu gün Azərbaycanın ünvanına hədyanlar səsləndirən Fransa da həmçinin.

İndi cənab Millerin bəyanatında səslənən “əgər hər hansı vəhşilik” ifadəsinə diqqət yetirək. Niyə məhz vəhşilik? Budur, onların beynindəki. Onlar müsəlmanı vəhşi hesab edirlər, ən azı çox arzu edərdilər ki, xristian ermənilərə qarşı məhz bu cür davranılsın. Amma davranılmadı və Qərb dünyasının arzusu gözündə qaldı. Bununla belə, “diskriminasiya”, “ayrı-seçkilik” və s. kimi ifadələrdən istifadə etmək mümkün olduğu halda, cənab Miller regiondakı vəziyyətə tamamilə yad olan, qeyri-adekvat olan “vəhşilik” ifadəsini işlədir. Faktiki olaraq öz simasını büruzə verir.

Miller bildirib ki, etnik təmizləmə və ya soyqırımı kimi iddilar faktlara əsaslanır və bu olmadan danışmaq doğru deyil. Demək, Miller bütün dünya ermənilərinin yalan danışdığını, Qarabağda heç bir soyqırımı əlaməti olmadığını etiraf edir. Deməli, Miller də, onun sahibləri də bilirlər ki, xristian ermənilər müsəlman azərbaycanlılarla bağlı onlara yalan məlumat verir, aldadırlar. Amma yenə onlara dəstək olurlar: “Biz gedənlərin neçə faizinin daimi olaraq Ermənistanda qalacağını bilmirik. Onların neçə faizi şərtlər imkan verəcəyi təqdirdə geri qayıtmaq istəyəcək? Biz bir daha müstəqil beynəlxalq missiyanın cəlbi ilə bağlı çağırışımızı təkrar edirik. Bu missiya Qarabağdakı ermənilərin haqlarının və təhlükəsizliyinin təmin olunmasına nəzarət edir. Azərbaycan tərəfi onların haqlarının və təhlükəsizliyinin təmin olunacağını bildirib və biz bunu müşahidə etmək üçün missiyanın da orda olmasını istəyirik”.

Budur Dövlət Departamentinin yanaşması. Azərbaycan ermənilərin təhlükəsizliyinə təminat verir, bu onlara bəs eləmir. Onlar topla-tüfənglə gəlib Qarabağda oturmaq və ermənilərin təhlükəsizliyini qorumaq istəyirlər: “Biz müttəfiqlərimiz və tərəfdaşlarımızla uzunmüddətli missiya və bunun necə işləyə biləcəyini müzakirə edirik. Ümid edirik ki, Ermənistana getmiş Qarabağ ermənilərinin geri qayıdarkən hüquqlarına hörmət ediləcək. Biz, həmçinin Azərbaycan ilə Ermənistanı sülh danışıqlarına qayıtmağa təşviq edirik”.

# Ulu öndərin sosial ədalət və yüksək rifah strategiyası



**Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev sosial siyasəti öz rəhbərlik missiyasının prioriteti kimi görmüş, ölkənin bütün potensialının, milli sərvətlərin xalqın bütün təbəqələrinə mənsub olması, sosial ədalət prinsipinin qorunması, əhalinin aztəminatlı hissəsinə dövlət qayğısının artırılması məsələlərini həmişə ön plana çəkmişdir.**

Dövlət müstəqilliyinin ilk illərində Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, sosial siyasət, sosial müdafiə sahəsində də olduqca ciddi problemlər mövcud idi. Ölkədaxili ictimai-siyasi sabitlik təmin edilməmişdi, iqtisadi proseslərin idarə edilməsinin sosialist modeli dağılmış, yeni sistemi isə yaradılmamışdı. İqtisadi tənəzzül dərinləşir, inflyasiya günbəgün yüksəlir, yoxsulluq səviyyəsi artır, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin və müharibə əlillərinin minimum sosial tələbatlarının ödənilməsi, əməkhaqlarının və pensiyaların verilməsinin aylarla gecikdirilməsi cəmiyyətdə sosial gərginliyi daha da artırırdı.

1993-cü ilin iyununda ölkədə yaranmış son dərəcə ağır siyasi və hərbi vəziyyət dövlətimizi müstəqilliyin itirilməsi və vətəndaş müharibəsi təhlükəsi qarşısında qoymuşdu.

Belə bir çətin dönəmdə xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin parlaq zəkası və iradəsi sayəsində müasir Azərbaycan dövləti yarandı, möhkəmləndi, regionun güc və nüfuz mərkəzinə çevrildi. Dünya şöhrətli böyük qırğız yazıçısı və diplomat Çingiz Aytmatov çox haqlı olaraq qeyd edirdi ki: "Heydər Əlirza oğlu Əliyev XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü yaradıcılarından biridir".

Heydər Əliyevin müasir dövlətçilik siyasətinin başlıca prinsipi "dövlət xalq üçündür" ideyasıdır. Ümummilli liderin müəllifi olduğu Konstitusiyamızda bu ideyanın sosial mahiyyəti bariz şəkildə öz təsdiqini tapmışdır.

Müstəqil Azərbaycanın dövlət quruculuğu və inkişafı strategiyasını müəyyən edərkən Ulu öndər sosial siyasəti prioritet istiqamətlərdən biri olaraq müəyyən etmiş, milli sərvətlərin xalqın bütün təbəqələrinə mənsub olması, sosial ədalət prinsipinin qorunması, əhalinin aztəminatlı hissəsinə dövlət qayğısının artırılması məsələlərini həmişə diqqət mərkəzində saxlamışdır.

Sosial siyasət əhalinin layiqli həyat səviyyəsinin təmin olunmasına, gəlirlərin yüksəlməsinə, maddi nemətlərin ədalətli bölünməsinə, məşğulluğun təmin edilməsinə sosial müdafiənin gücləndirilməsinə, səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman, turizm sahələrində təminatların həyata keçirilməsinə yönələn tədbirlər sistemi olmaqla, hər bir dövlətin iqtisadi siyasəti, iqtisadi inkişaf səviyyəsi ilə sıx bağlı olan daxili siyasətin mühüm tərkib hissəsidir. Hər bir ölkənin sosial siyasətini onun hüquqi sistemi, iqtisadi siyasəti, iqtisadi inkişaf səviyyəsi şərtləndirir. Sosial siyasətin uğuru ölkənin iqtisadi imkanları ilə birbaşa bağlıdır. Sosial siyasətin təminatlı və əhatəli olması üçün möhkəm iqtisadi təməl və hüquqi bazanın mövcudluğu mühüm şərtdir. Məhz buna görə də müstəqil Azərbaycanın sosial siyasət strategiyasını müəyyənləşdirən zaman Heydər Əliyev bir tərəfdən sosial siyasətin ölkənin real iqtisadi imkanlarına uyğunlaşdırılmasına, digər tərəfdən isə müvafiq normativ – hüquqi bazanın yaradılmasına ciddi önəm verirdi.

Sosial-iqtisadi sferada aparılan köklü islahatlar bir çox hallarda, əhalinin müəyyən qrupunun, bəzən isə əksəriyyətinin sosial adaptasiyasına mənfi təsirlə müşayiət olunur. Planlı iqtisadiyyatdan bazar münasibətləri ilə tənzimlənən iqtisadi sistemə keçidin mürəkkəb xüsusiyyətləri və tez-tez dəyişən şərtləri balanslaşdırılmış sosial islahatların dəqiq, ağrısız, insanların güzəranına mənfi təsir göstərmədən aparılmasını tələb edirdi. Modern dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycanın sosial siyasətinin təməlində iki klassik prinsip dayanırdı: Sosial ədalət və sosial rifah. Ümummilli lider Heydər Əliyev sosial sahədə dövlətin vəzifəsini bunda görürdü: "Bir dövlət olaraq, hökumət olaraq, biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələbələrini təmin etməliyik..."

1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzül dayandı və bu sosial sahədə siyasətin konkret istiqamətlərinin müəyyənləşməsinə, islahatlar aparılmasına və sosial siyasətin geniş hüquqi bazasının yaranmasına təkan verdi.

Heydər Əliyev əsas sosial problemlərdən olan əmək bazarının formalaşmasına, məşğulluq və işsizlik məsələlərinə xüsusi önəm vermiş, bu sahədə həyata keçirilən mühüm tədbirlər hesabına ölkə iqtisadiyyatında qeyri-dövlət sektoru üzrə məşğulluğun payı 1995-ci ildəki 43,9 faizdən, 2002-ci ildə 69,7 faizə qədər yüksəlmişdir. Bu dövrdə qəbul edilən Əmək Məcəlləsi, Məşğulluq və Əmək Miqrasiyası haqqında qanunlar, Demoqrafik İnkişaf və Pensiya İslahatı konsepsiyaları, Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı əmək bazarı və əhalinin sosial müdafiəsi sferalarında yeni inkişaf strategiyasının əsasını qoymuşdur.

Hazırda Azərbaycanda sosial siyasətin əsas istiqamətləri liberal iqtisadiyyata, insan haqlarına və demokratik dəyərlərə əsaslanan sosial dövlətin iqtisadi-siyasi sisteminə uyğundur və başlıca olaraq aşağıdakı sahələri əhatə edir:

**1.** Əhalinin pul gəlirləri siyasəti (həyat səviyyəsi, istehlak səbəti, rifah halı);

**2.** Əmək və əmək münasibətləri sahəsində siyasət (əməyin ödənilməsi, sosial sığorta, əməyin mühafizəsi, məşğulluq);

**3.** Sosial dəstək və aztəminatlı təbəqənin (əlillər, pensiyaçılar, şəhid ailələri və s.) sosial müdafiəsi, pensiya təminatı, sosial müavinətlər, yardımlar və sosial xidmət təminatı;

**4.** Sosial sahələrin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi (sağlamlığın qorunması, təhsil, elm, mədəniyyət, turizm, bədən tərbiyəsi və idman);

**5.** Sosial-ekoloji siyasət;

**6.** Sosial infrastruktur siyasəti (mənzil, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və s.);

**7.** Miqrasiya siyasəti.

Sosial rifah dövlətinə çevrilməyi və inkişaf etmiş dövlətlərin sırasına qatılmağı əli məqsəd olaraq qarşısına qoyan modern Azərbaycan dövləti və hökuməti sosial siyasəti uğurla həyata keçirmək üçün aşağıdakı sivil və demokratik mexanizmlərdən istifadə edir:
- sosial sığorta;
- pensiya təminatı;
- müavinətlər və yardımlar;
- sosial xidmət;
- sosial təminat.

Müstəqil Azərbaycan dövlətinin sosial siyasətinin iqtisadi konturları və hüquqi əsasları XX əsrin sonlarında tamamlanmaq üzrə idi. Yeni əsr və minillik sosial sahələrdə böyük islahatlar və uğurlar vəd edirdi. Məhz bu uğurları öncə görən müdrik Heydər Əliyev söyləyirdi: "Biz XXI əsrə daha da qüdrətli müstəqil Azərbaycan dövlətinin çatdırmaq istəyirik. Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib, Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq".

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə dövlət mülkiyyətində olan əmlakın ədalətli bölgüsü – özəlləşdirilməsinə başlanıldı, hər bir Azərbaycan vətəndaşına ümumi mülkiyyətdən bərabər pay - özəlləşmə çekləri verildi. Kəndlərdə yaşayanlara isə torpaq payı eyni prinsiplə bölündü. Bazar münasibətlərinə əsaslanan, eyni zamanda, sosial ədalətə söykənən sığorta sisteminin yaranması, bunun üçün qanunvericilik bazasının formalaşması ("Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İcbari tibbi sığorta haqqında" və s. qanunlar), sığorta prinsipinə əsaslanan yeni pensiya sisteminin yaranmasının konseptual əsaslarını müəyyən edən "Azərbaycan Respublikasında pensiya islahatları Konsepsiyasının" Ümummilli lider Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli sərəncamı ilə təsdiq olunması, əlil probleminin kompleks həlli məqsədi ilə Prezidentin 14 may 1998-ci il tarixli sərəncamı ilə "1998-2001-ci illər üçün əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi üzrə Dövlət Proqramının" təsdiq edilməsi və s. addımlar müasir Azərbaycan dövlətinin sosial siyasətinin yeni dövrün çağırışına uyğun formalaşmasına xidmət edirdi.

Ayrı-ayrı sosial sahələrdə vahid siyasəti həyata keçirmək üçün təşkilati-struktur vahidlərinin yaranması da modern dövlətin sosial siyasətinin tərkib hissəsi idi. Məhz Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə Qaçqın və məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, 1996-cı ildə Azərbaycanın azad edilən ərazilərinin bərpası və yenidən qurulması üçün agentlik yaradıldı. Gənclərin və qadınların ictimai statusunun yüksəlməsi, bu sahədə problemlərin həlli və perspektivlərin həyata keçirilməsi məqsədi ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi, 1998-ci ildə isə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi üçün Prezident Heydər Əliyevin rəhbərliyi altında bir sıra mühüm qanunlar qəbul edildi. Prezidentin 13 mart 1998-ci il tarixli sərəncamı ilə səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradıldı.

Son illərdəki yüksək inkişafın, sosial-iqtisadi, ictimai-siyasi, beynəlxalq sahədəki uğurlarımızın səbəbi haqqında düşünərkən, birinci növbədə Heydər Əliyev siyasi amili, bu siyasətin arası kəsilmədən davam və inkişaf etdirilməsi və yeni dövrün tələblərinə uyğun modernləşdirilməsi faktoru ön plana çıxır.

2003-cü il prezident seçkiləri ərəfəsində ümummilli lider xalqa müraciətində Azərbaycanın inkişaf yolunun İlham Əliyev tərəfindən davam etdiriləcəyini bəyan etdi. "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm".

2003-cü ilin oktyabrında keçirilən Prezident seçkilərində xalqın birmənalı dəstəyini qazanan cənab İlham Əliyev, Prezident kimi and içən zaman Heydər Əliyev siyasi kursunu davam etdirəcəyini, Heydər Əliyevin şah əsəri olan Azərbaycanı daha da zəngin, qüdrətli ölkəyə çevirəcəyini, hər bir azərbaycanlının Prezidenti olacağını xalqa bəyan etdi. Cənab İlham Əliyev Prezident kimi Nazirlər Kabinetinin ilk iclasını keçirərkən ölkə daxilində həyata keçirəcəyi siyasətin əsas istiqamətlərini belə müəyyənləşdirdi:

1) Yoxsulluğun aradan qaldırılması üçün effektiv tədbirlərin görülməsi;

2) 600 min yeni iş yerlərinin açılması üçün istehsal və emal sahələrinin yaradılması;

3) Sahibkarlığa dövlət qayğısının artırılması;

4) Azərbaycanda qaçqın və məcburi köçkünlərin məskunlaşdığı çadır şəhərciklərinin ləğv edilməsi, onların müasir qəsəbələrə köçürülməsi və sosial problemlərinin həlli;

5) Yanacaq - energetika kompleksində əhalinin tələbatının ödənilməsi ilə bağlı problemlərin həlli;

6) Transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılması;

7) Regionların sosial - iqtisadi inkişafı proqramlarının hazırlanması və həyata keçirilməsi.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi sosial siyasət xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Bu gün ölkəmiz öz ictimai siyasi, iqtisadi həyatının bütün sahələrində olduğu kimi, sosial siyasət sahəsində də böyük uğurlara imza atmaqdadır. Aparılan məqsədyönlü sosial siyasət və konkret nəticələrə hesablanmış islahatlar nəticəsində hər bir xalqın həyat səviyyəsinin mühüm göstəricisi olan yoxsulluq həddi 2001-ci ildəki 49 faizdən 2023-cü ildə 5 faizə enmişdir. Dünyanın heç bir ölkəsində 20 il ərzində yoxsulluğun bu qədər azalması təcrübəsi yoxdur. Ancaq cənab Prezidentin son məqsədi Azərbaycanda yoxsulluğun kökünün kəsilməsidir.

Sosial müdafiənin gücləndirilməsi sahəsindəki tədbirlər əhalinin sosial rifah halının yüksəlməsinə hədəflənmişdir: pensiya və müavinətlərin müəyyən edilməsinin hüquqi bazasının yaradılması və dinamik artım tempi, qaçqın və məcburi köçkünlərin sosial və məişət şəraitinin yaxşılaşdırılmasına yönələn tədbirlər, əlillərin və şəhid ailələrinin, qazilərin problemlərinə dövlət qayğısı, sosial sığorta sisteminin inkişafı, əmək münasibətlərinin hüquqi tənzimlənməsi, əhalinin pul gəlirlərinin inflyasiyanı üstələməsi, xüsusi ilə regionlarda sosial infrastrukturun yenidən qurulması Azərbaycanın modern dövlət olaraq öz inkişafının yeni mərhələsinə qədəm qoyulmasını şərtləndirən amillərdir.

Sosial-iqtisadi inkişafımızın bugünkü səviyyəsi bizə "hazırda ölkəmizdə inkişaf edən sosial dövlət modeli tam bərqərar olmuşdur" – söyləməyə əsas verir.

***Elşən MƏMMƏDOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, dosent***

# Ulu öndərin əsərləri elmi mənbə kimi

**Bakı Dövlət Universitetində "Heydər Əliyevin əsərləri Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi" mövzusunda elmi seminar keçirilib.**



Seminarda Tarix fakültəsinin dekan müavini dosent Kəmalə Nəcəfova Ulu öndərin müstəsna tarixi xidmətlərindən danışıb. Bildirilib ki, Ümummilli liderin həyatı və fəaliyyəti Azərbaycan tarixinin xüsusi bir mərhələsini təşkil edir. Azərbaycanda hüquqi dövlət quruculuğu, azərbaycançılıq ideologiyasının formalaşdırılması Ulu öndərin adı ilə bağlıdır.

Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, Milli Məclisin deputatı, professor Anar İsgəndərov mövzu ilə bağlı geniş çıxış edib. O, diqqətə çatdırıb ki, Ulu öndər tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün böyük işlər görüb.

# "Heydər Əliyevin həyatının 100 anı" Kanadada

**Toronto şəhərində Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar "Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri" beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "Heydər Əliyevin həyatının 100 anı" kitabının təqdimat mərasimi keçirilib.**

Nort York Mərkəzi Kitabxanasında keçirilən təqdimat mərasimində Kanada hökumətinin və parlamentinin təmsilçiləri, yerli ictimaiyyətin, icmaların nümayəndələri, Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və fəalları iştirak ediblər.

Mərasimdə çıxış edən Kanadanın keçmiş multikulturalizm naziri və sabiq parlament üzvü Toni Ruprext, Toronto şəhərində fəaliyyət göstərən Azərbaycan Evinin rəhbəri Lalin Həsənova dahi şəxsiyyət Heydər Əliyevin mənalı və şərəfli ömür yolunun parlaq səhifələrinin xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil etməsindən danışıblar.

***XQ***



# Astronavtika Konqresi Azərbaycana kosmik inkişaf meyarları gətirir

(əvvəli 1-ci səhifədə)

Ölkə rəhbəri nitqində hazırda müstəqil ölkə olaraq, Azərbaycanın təbii sərvətlərinin xalqımızın mənafeyinə xidmət etdiyini, müstəqillik illərinin sürətli transformasiyasının təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürünə çevrildiyini bildirib.



Prezident İlham Əliyev çıxışında diqqətçəkən bir məqama da toxundu: "Neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu, inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi".

Həqiqətən də dövlət başçısının çıxışında səslədirdiyi bu fikir ötən illər ərzində ölkəmizin timsalında öz təsdiqini tapıb. "Əsrin müqavilsi"nin icrasına qoyulan investisya artıqlaması ilə qaytarılıb. Xarici sərmayədarlar, eləcə də Azərbaycan dövləti tərəfindən böyük həcmdə gəlir əldə edilib. Bununla da həm dövlətin, həm də investorların maraqları təmin olunub. Eyni zamanda, neftdən əldə edilən gəlirlər ölkəmizin sürətli inkişafına yönəldilib. Ölkə rəhbərinin vurğuladığı kimi, neftdən gələn gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyulub. Sosial məsələlərin həlli üçün əlverişli şərait yaradılıb. Bununla həm də ölkəmizin beynəlxalq mövqeləri möhkəmləndirilib. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq – bütün bunlar neft sənayesinin uğurlu nəticələri ilə reallaşdırılıb.

Bu gün ölkəmizin enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salanda, ilk növbədə, Azərbaycanın düşünülən dəst-xətti, uğurlu strategiyası gözlərimiz önündə canlanır. Respublikamızın təşəbbüskarı olduğu, qonşular və tərəfdaşlarla birgə həyata keçirilən layihələr regionumuzun enerji təhlükəsizliyinə töhfə verməklə bərabər, Azərbaycanı beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısına çevirib.

Ölkəmiz hazırda iqtisadi sahədə şaxələndirmə yolunu seçib. Yəni, respublikamız neftdən asılılığı aşağı salmağı prioritet vəzifə kimi qarşıya qoyub, qeyri-neft sektorunu inkişafını diqqətdə saxlayıb və bu istiqamətdə yüksək göstəricilər əldə edib.

Prezident İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında neft strategiyasının uğurlarından danışarkən, müstəqilliyimizin ilk illərinə ekskurs edərək o dövrdə xalqımızın təcavüz, işğal və etnik təmizləmədən əziyyət çəkdiyini, böyük faciə, humanitar fəlakət yaşadığını xatırladıb: "1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt, biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərc-mərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü".

Ölkə rəhbərinin vurğuladığı kimi, o illərdə bu məhrumiyyətlərə, ağrı-acılara baxmayaraq, xalqımız güclü siyasi iradə nümayiş etdirdi, Azərbaycan dövləti ərazilərimizi erməni faşizminin əsarətindən xilas etməyə, işğala dinc yolla son qoymağa çalışdı. Lakin bu, heç bir nəticə vermədi, 28 illik danışıqlar prosesi qəsbkarı tutduğu haqsız yoldan çəkindirə bilmədi. Sonda Azərbaycan problemi BMT nizamnaməsinin hər bir ölkəyə verdiyi özünümüdafiə hüququndan istifadə etməklə aradan qaldırdı, erməni işğalına son qoydu.

Əlbəttə, bu, yaradılan güclü iqtisadiyyat hesabına gerçəkləşdi. Dövlətimizin başısı konqresdəki nitqində belə bir iqtisadi gücü rəqəmlərlə diqqətə çatdırdı: son 20 il ərzində ümumi daxili məhsulun dörd dəfə, büdcə gəlirlərinin 30 dəfədən çox, xarici ticarət dövriyyəsinin on dəfədən çox artdığını bildirdi. Eyni zamanda, birbaşa xarici borcun həcminin aşağı salındığını, bunun hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil etdiyini xatırladaraq dedi: "2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır".

Konqresdə müstəqilliyimizin ilk illərində üzləşdiyimiz bir problem–yoxsulluqla bağlı yaranan çətinlik də xatırladıldı. Bildirildi ki, 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluğun 5,5 faiz təşkil etdiyi və belə bir müsbət göstəriciyə hasil olunaraq beynəlxalq bazarlara çıxarılan təbii sərvətlərin lazımi qaydada idarəsi hesabına gerçəkləşdiyi bildirildi. Bu fikrin təsdiqi kimi, milli sərvətlərin bərabər paylanmasının bu gün beynəlxalq ekspertlər və ən vacibi isə Azərbaycan xalqı tərəfindən qeyd olunduğu diqqətə çatdırıldı.

***XQ***

## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Beynəlxalq Astronavtika Konqresi kimi mötəbər bir tədbirin əlli ildən sonra Bakıda ikinci dəfə keçirilməsi ölkəmizin dünyadakı nüfüzunun və Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Eyni zamanda, bu tədbir respublikamızda kosmik tədqiqatlara önəm verilməsi, elm – texnikanın tətbiqinin stimullaşdırılması və kosmik texnologiyalar hesabına innovativ inkşafın sürətləndirməsinin beynəlxalq aləmdə dəyərləndirilməsi kimi uğurların təsdiqidir.

Bütün bu uğurlar isə ölkəmizdə materialşunaslıq, texnologiya, elektronoka və digər elmi-texniki istiqamətlərin dünya səviyyəsində konsentrasiyası nəticəsində reallaşır.

Kosmik tədqiqatlar dedikdə yaxın və uzaq kosmosu fərqləndrmək zəruridir. Əgər yaxın kosmos Yerin atmosferindən kənara çıxmağı nəzərdə tutursa, uzaq kosmos tədqiqatlarının hədəfi isə planetləri fəth etmək, onların səthinə kosmik aparatları endirməkdir.

Ölkəmizi daha çox yaxın kosmos tədqiqatları maraqlandırır. Burada əsasən, kosmik xidmətlər yer alır. Meteorologiya sahəsində, kosmik turizmdə, elmdə, tele-komunikasiyada kosmik xidmətlərin iqtisadi səmərəsi respublikamız üçün mühüm önəm daşıyır.

Azərbaycanın kosmosa buraxığı 3 peykdən 2-si tele-komunikasiya məqsədləri üçün, digər 1-i isə yer səthini müşahidə funksiyasını həyata keçirir. Prezident İlham Əliyevin Beynəlxalq Astronavtika Konqresində vurğuladığı kimi, hər 3 peyk azərbaycanlı mütəxəsislər tərəfindən idarə olunur, 45-dən çox ölkə bu peyklərin xidmətlərindən istifadə edir.

Peyklərin kommersiya faydalarına gəldikdə isə deyə bilərəm ki, dəyəri 233 milyon dollar olan "Azərspace-1" resurslarının 80 faizi kommersiya istismarındadır. Dəyəri 190 milyon dollar olan "Azərspace-2" isə Azərbaycan iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi gözlənilir. 2020-ci ildə peyklərin kommersiya istismarından əldə etdiyi gəlirlər isə 45,1 milyon ABŞ dolları təşkil edib.

Belə ki "Azərkosmos" publik hüquqi şəxs ötən 2022-ci ili mənfəətlə başa vurmuşdur. Agentliyin ümumi mənfəəti 4,4 milyon manat,xalis mənfəət isə 1,4 milyon manat olmuşdur.

Ümumilikdə, "Azərkosmos"un gəlirlərinin əsas hissəsi peyk xidmətlərinin ixracından formalaşır. Bu qurum dövlət və qeyri-dövlət ixracatçı subyektləri arasında xidmət sektorunda ixrac həcminə görə ən yüksək nəticə ilə ilk sıralarda qərarlaşır.

# Xoşbəxt Yusifzadə dünyasını dəyişib



**Azərbaycan xalqına ağır itki üz verib. Dünən görkəmli neftçi-geoloq, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Bağı oğlu Yusifzadə ömrünün 94-cü ilində dünyasını dəyişib.**

Xoşbəxt Yusifzadə 1930-cu il yanvarın 14-də Bakının Pirşağı kəndində anadan olub. 1947-ci ildə orta məktəbi bitirmiş, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunda ali təhsili neftçi-geoloq ixtisası ilə baş vurmuş soydaşımız 70 ilə yaxın müddətdə ölkəmizdə neft və qaz hasilatının təşkili və tərəqqisi sahəsində misilsiz xidmətlər göstərib. İstedadlı və yurdsevər neft mütəxəssisi kimi Xoşbəxt Yusifzadənin irimiqyaslı, çoxcəhətli elmi-praktik və rəhbər fəaliyyəti sovet dövründə və müstəqillik illərində milli neft sənayemizin parlaq səhifələrini təşkil edir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft-qaz yataqlarının işlənilməsinin nəzəri əsasları hazırlanıb və uğurla həyata keçirilib.

Dünya şöhrətli neftçi-geoloqun Vətən qarşısında xidmətləri yüksək qiymətləndirilib. O, "Şöhrət", "Şərəf", I dərəcəli "Əmək", "İstiqlal" "Heydər Əliyev" ordenlərinə, bir sıra digər təltiflərə layiq görülüb. Fədakar əməyi, Vətən sevgisi və yorulmaz fəaliyyəti xalqımızın görkəmli oğluna böyük nüfuz və şöhrət qazandırıb.

**Allah rəhmət eləsin!**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 346** **Bakı şəhəri, 28 sentyabr 2023-cü il**

***"Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nın təsdiq edilməsi və aktiv istehlakçılar tərəfindən bərpa olunan enerji mənbələri hesabına istehsal edilən elektrik enerjisinin güc həddinin müəyyən edilməsi haqqında***

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2** Aktiv istehlakçı tərəfindən bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsal edən elektrik stansiyasının gücü 150 kVt (150 kVt da daxil olmaqla) həddində müəyyən edilsin.

**3** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"-nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 347** **Bakı şəhəri, 28 sentyabr 2023-cü il**

***Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın verilməsi Qaydası və formasının təsdiq edilməsi haqqında***

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2** Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın forması təsdiq edilsin (əlavə olunur).

**3** Azərbaycan Respublikasının Energetika Nazirliyi beynəlxalq təcrübə nəzərə alınmaqla, bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın elektron qaydada verilməsinin təşkili məqsədilə zəruri tədbirlər görsün.

**4** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"-nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# "Odlar yurdu" qədim astronomiya ölkəsidir



**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ölkə paytaxtında davam edən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr edilmiş "Azərbaycan ədəbiyyatında ulduzlu səma" mövzusunda elmi seminar keçirildi.**

Muzeyin direktoru akademik Rafael Hüseynov klassik ədəbiyyatımızda astronomik bilgilərə dair məruzəsində bildirdi ki, son yarım əsrdə Azərbaycanın ikinci dəfə beynəlxalq astronavtika məclisinə evsahibliyi etməsi heç də səbəbsiz deyil. Əsrlər boyu Azərbaycan Yaxın və Orta Şərqdə astronomiyanın mərkəzlərindən birinə çevrilib. XII–XIII əsrlərdə Azərbaycanda astronomiya elminə maraq daha da artıb. Şairlərimiz və alimlərimiz öz əsərlərində astronomiya, ulduzlu səma haqqında fikir və düşüncələrini parlaq bir dildə ifadə ediblər. Azərbaycan ədəbiyyatında kainatın sirləri diqqətçəkən mövzulardan olub. Necə deyərlər, Ay, Günəş, parlaq ulduzlar, bütövlükdə ulduzlu səma poeziyanın seçilən obrazları sırasında yer alıb.

Muzeyin direktoru bildirdi ki, Nizami Gəncəvinin əsərləri astronomiya nöqteyi-nəzərindən Azərbaycan ədəbiyyatı və bütövlükdə Yaxın və Orta Şərq söz sənətində ilk qaynaqlardan biri sayılmalıdır. Nizami astronomik dəqiqliklə deyirdi: "Göydə parlasa da nə qədər ulduz. Günəşdir nur verən aləmə yalnız". Şair ulduzları, göy cisimlərini, ulduzlu səmanı yalnız bədii obraz kimi təsvir eləmir, həm də onlardan bir münəccim kimi bəhs edirdi. Təsadüfi deyil ki, orta əsrlərin bir sıra qaynaqlarında, müəyyən təzkirələrdə Nizami Gəncəvi sadəcə şair, böyük hikmət sahibi deyil, həm də bir əxtərşünas, ulduzşünas kimi təqdim edilib. Orta əsrlərdə ikinci elə bir şairə, ədibə rast gəlmirik ki, onun əsərlərində ulduzlu səma Nizamidəki qədər yerli-yataqlı təsvir olsun.

Bildirildi ki, Qətran Təbrizi, Xaqani Şirvani, Məhsəti Gəncəvi və digər şairlərimizin yaradıcılığında da planetlərin, ulduzların adlarına rast gəlirik. Həmin müəlliflər səma cisimlərinin adlarından rəmzi mənada istifadə ediblər. XII yüzildə Azərbaycan həm şair, həm də astronomiya ilə məşğul olan Fələki Şirvani kimi böyük şəxsiyyət yetişib. Onun astronomiyaya aid əsərinin mövcud olması haqqında məlumat olsa da, təəssüf ki, bizim günümüzə gəlib çatmayıb.

Akademik görkəmli mütəfəkkir, alim Nəsrəddin Tusinin astronomiya elminin inkişafında müstəsna rolunu diqqətə çatdıraraq qeyd edib ki, XIII əsrdə Marağada dahi soydaşımız Yaxın və Orta Şərqdə ilk rəsədxanalardan birini yaradıb. Sonrakı əsrlərdə Əssar Təbrizinin "Mehr və Müştəri", Abbasqulu Ağa Bakıxanovun "Əsrarül məlakut", Hüseyn Cavidin "Xəyyam" və digər şairlərimizin əsərlərində astronomiyaya aid bilgilər, ulduzlu səmanın əsrarəngiz təsviri verilib.

Sonra Rafael Hüseynov iştirakçıların suallarını cavablandırıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Kosmik əməkdaşlıq və infrastruktur mübadiləsi

**Oktyabrın 3-də 74-cü Beynəlxalq Astronavtika Konqresinin "Əməkdaşlıq və infrastruktur" adlı plenar iclası keçirilib.**




David Tomasın moderatorluğu ilə keçirilən tədbirdə Avstraliya Fəza Agentliyinin baş texnoloqu Aude Viqnelles, Kolorado Universitetinin Astrodinamik Araşdırmalar Mərkəzinin professoru Daniel Şeeres, NASA-nın baş texnoloqu A.C.Çarania, "Əlavə Dəyər Həlləri" şirkətinin kosmik rəhbəri vəzifəsində çalışan Ramon Blanko iştirak ediblər.

Plenar iclasda çıxış edənlər kosmik əlaqələrin daha dərindən öyrənilməsi, eyni zamanda, bu sahədə qarşılıqlı əməkdaşlıqdan danışıblar. Beynəlxalq "Artemis" proqramının kəşfetmə missiyaları, kosmik elmlər və rəqəmsal kommersiya şirkətlərinin bu sahənin inkişafı üçün veriləcək dəstəyi haqqında müzakirələr aparılıb. Qeyd edilib ki, rəqəmsal kommersiya şirkətləri rabitə və naviqasiyadan tutmuş mobillik və enerji təchizatına qədər kommersiya xidmətləri sıralamasını təmin etmək niyyətindədir.

Qeyd edək ki, "Artemis 1" "Artemida" proqramı çərçivəsində kosmos uçuşu olan ekipajsız Ay orbiti missiyasıdır. "Orion" kosmik gəmisinin və "Space Launch System" buraxılış vasitəsinin ilk inteqrasiya olunmuş uçuş sınağıdır.

# Astronavtika Konqresinə həsr olunmuş poçt markaları

**Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş poçt markalarının möhürlənmə mərasimi olub.**



Mərasim Heydər Əliyev Mərkəzində keçirilib.

Azərbaycan Kosmik Agentliyinin İdarə Heyətinin sədri Saməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri (Clay Mowry) markaları imzalayıblar.

"Azərpoçt" MMC tərəfindən hazırlanan marka Belarusun Bobruysk şəhərinin "Bobruisk Integrated Printing House" çap evində iki növ blok olmaqla, hər biri 5 min ədəd tirajla çap edilib. Buraxılış üzrə hər bir blok 4 marka, ümumilikdə isə, 8 markadan ibarət kiçik vərəqlər şəklindədir.

Möhürlənmə mərasimindən sonra "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti Kley Mouri, IAF-ın icraçı direktoru Kristian Faytinger Azərbaycanın poçt markaları nümunələri ilə tanış olublar.

Sonda IAF-ın prezidenti Kley Mouri və təşkilatın icraçı direktoru Kristian Faytinger marka olan zərfə imza atıblar.

***XQ***

# Bolqarıstan Azərbaycandan qaz idxalını artırıb

## Hazırda respublikamız bu ölkənin "mavi yanacağ"a tələbatının 75 faizini ödəyir

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Avropaya "mavi yanacağ"ı Cənub Qaz Dəhlizinin (CQD) son hissəsi olan Trans–Adriatik boru kəməri (TAP) vasitəsilə tədarük edir. Kəmərin gücü ildə 20 milyard kubmetrədək genişləndirmə imkanı ilə 10 milyard kubmetrdir.



Energetika Nazirliyinin məlumatına görə, bu ilin yanvar-iyul ayları ərzində ölkəmizdən Avropaya 6,6 milyard kubmetr təbii qaz ötürülüb. Bütünlükdə hesabat dövründə "mavi yanacaq" ixracı 13,8 milyard kubmetrə çatıb ki, bu da 2022-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 7 faiz çox olub.

Xüsusən, "Azər-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan 7 milyard kubmetr, "Şahdəniz"dən 15,4 milyard kubmetr, "Abşeron" yatağından isə 0,1 milyard kubmetr qaz hasil edilib. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) hasil etdiyi qazın həcmi isə 5,1 milyard kubmetr olub.

Bütün bu göstəricilər təbii ki, ölkəmizin neft-qaz potensialının zənginliyindən xəbər verir. Belə bir ehtiyata malik Azərbaycan uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. "Köhnə qitə"nin təbii qazla təminatına böyük töhfələr verən republikamız artıq bu gün özünü etibarlı enerji tərəfdaşı kimi təsdiqləyir. Azərbaycanın TAP vasitəsilə Avropaya qaz ixracına başlamasından isə 3 ilə yaxın bir vaxt ötür.

Xatırladaq ki, TAP boru kəməri Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Boru kəmərinin ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliyadan keçir. Hazırda Azərbaycan TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstan istehlakçılarını təbii qazla təmin edir.

XXI əsrin nəhəng enerji dəhlizi olan CQD-nin son seqmenti sayılan TAP boru kəməri Avropa ölkələrinə qaz idxalı marşrutlarını şaxələndirməyə geniş imkanlar yaradır. Artıq bir sıra ölkələr tərəfindən interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə TAP boru kəməri ilə daxili qaz şəbəkələrini əlaqələndirməyə maraq göstərilir. Bu da Azərbaycan qazının Avropanın dərinliklərinə qədər gedib çatmasını şərtləndirir. Bu baxımdan yuxarıda adıçəkilən Yunanıstan–Bolqarıstan interkonnektoru mühüm önəm daşıyır.

Həmin interkonnektor vasitəsilə tədarük edilən Azərbaycan təbii qazının həcmi Bolqarıstanın tələbatının təxminən 75 faizini ödəyir və bu ölkədə "mavi yanacaq"la bağlı münasib qiymətlərin formalaşmasında həlledici rol oynayır. Bolqarıstanın respublikamızdakı fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanov mediaya müsahibəsində bu barədə ətraflı bəhs edərək interkonnektorun ölkəsinin müxtəlif mənbələrdən və marşrutlardan qazın paylanması üçün əsl regional haba çevrilməsinə imkan yaratdığını diqqətə çatdırıb. Səfir müsahibəsində, eyni zamanda, IGB-nin ötən il oktyabrın 1-də Sofiyada Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iştirakı ilə keçirilən mərasimdə kommersiya tədarükünə başladığını da vurğulayıb.

Xatırladaq ki, sözügedən interkonnektor "mavi yanacağ"ın Yunanıstan ərazisi ilə TAP vasitəsilə Bolqarıstana və qonşu ölkələrə nəqli üçün əsas marşrutdur. Bu, Cənub–Şərqi Avropa regionuna qaz tədarüklərinin diversifikasiyası üçün mühüm və ümumi maraq daşıyan layihə olmaqla Mərkəzi və Şərqi Avropada enerji bağlantısı üzrə yüksək səviyyəli infrastrukturdur.

Eyni zamanda, Bolqarıstana təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan interkonnektor tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabəti şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

### EKSPERT RƏYİ

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



2020-ci ilin sonundan etibarən Trans-Adriatik boru kəmərinin tikintisinin ikinci mərhələsinin başa çatmasından sonra Azərbaycan ilk dəfə Avropa bazarına təkcə xam neft deyil, həm də təbii qaz ixrac etməyə başladı. Əvvəlcə təbii qazın İtaliya, Yunanıstan və Bolqarıstana ötürüləcəyi nəzərdə tutulurdu. Lakin sonradan bir sıra digər dövlətlər tərəfindən də bu layihəyə böyük maraq yarandı və həmin dövlətlər arasında ölkəmizə dost olan Macarıstan da var idi.

Qısa dövr ərzində həyata keçirilən layihələr nəticəsində Azərbaycan qazı Macarıstana daxil oldu. Hazırda respublikamız bu tədarükün həcmini artırmağı planlaşdırır. Ölkələrimizi birləşdirən neft və qaz təchizatı ilə bərabər, "yaşıl enerji" layihəsinin reallaşdırılması da maraq dairəsindədir.

2022-ci il iyunun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu", həmin ilin dekabrın 17-də isə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanması da bu istiqamətdə irəli atılan mühüm addım kimi yüksək dəyərləndirilir. Ümumiyyətlə, "yaşıl elektrik enerjisi" Azərbaycan ilə Macarıstan arasında energetika sahəsində əməkdaşlığın daha bir seqmentidir. Lakin bu yanaşma bütün Avropa İttifaqına aiddir. Çünki uzun illər ərzində neft və qaz, həmçinin perspektivdə "yaşıl elektrik enerjisi" Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ixrac baxımından üzərinə götürdüyü mühüm prioritetdir.

Xatırladaq ki, "mavi yanacağ"ın əvvəlcə İtaliya, Yunanıstan və Bolqarıstana ötürülməsi nəzərdə tutulurdu. Lakin cari ildən başlayaraq Macarıstan və Rumıniya da Xəzər dənizinin dərinliklərindən hasil edilən qazın nəql olunduğu ölkələr sırasına qoşuldu. Bundan sonra isə bir sıra digər ölkələr də Xəzərin təbii qaz idxalçısı olmağa maraq göstərdilər və bununla bağlı cari ilin aprelində Azərbaycan, Macarıstan, Rumıniya, Bolqarıstan və Slovakiyanın energetika şirkətləri "həmrəylik halqası" adlanan saziş imzaladılar. Bu sənədin imzalanmasında məqsəd Avropanın daxili qaz interkonnektorlarının Cənub Qaz Dəhlizi ilə nəql edilən qazın həcminin artırılması üçün istifadə olunmasıdır.

Göründüyü kimi, qaz ixracatçılarının sırası getdikcə genişlənir. Bu səbəbdəndir ki, Avropa Azərbaycandan 2027-ci ildə 20 milyard kubmetr qaz tədarükünə ümid bəsləyir. Hazırkı dinamika da bu məqsədə nail olmağa imkan verir.

# Yeni mineral-xammal obyektləri

## 13 faydalı qazıntı yatağı istifadəyə verilib



**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən keçirilən hərracda 13 faydalı qazıntı yatağı istifadəyə verilib.**

Dövlət Xidmətinin məlumatına görə, hərracda investorların fəallığı müşahidə edilib. Belə ki, "Türyançay III" qum-çınqıl yatağı üzrə təklif 8 min manatdan 15 min manata yüksəlib. Bununla yanaşı, start qiyməti 118 min 382 manat olan "Çovdar" keramika xammalı yatağı 121 min 90 manata istifadəyə verilib.

Xatırladaq ki, istifadəyə verilən qazıntı yataqları sırasında "Çovdar" (Daşkəsən), "Yuxarı Salahlı" (Ağstafa), "Aşağı Zəyəmçay" (Tovuz)da, "Aşağı Zəyəmçay" (Şəmkir), "Gilgilçayın cənub-qərb cinahı" (Şabran), "Gilgilçayın cənub-qərb cinahı", "Gilgilçay III" (Siyəzən), "Kürmükçay" (Qax), "Şahqaya", "Şonqar" (Qaradağ), "Söylən" (Tərtər), "Bilistan II" (İsmayıllı) və "Türyançay III" (Qəbələ) strukturları yer alıb.

# Qarabağ günəş enerjisindən güc alacaq

## İşğaldan azad edilmiş ərazilərdə 240 meqavatlıq GES tikiləcək



**Bu ilin oktyabrında Qafqazın və keçmiş SSRİ-nin ən böyük günəş elektrik stansiyasının (GES) açılışı olacaq.**

Bu barədə energetika nazirinin müavini Elnur Soltanov məlumat verib. Gücü 230 meqavat olacaq stansiyanın sırf xarici investorların dəstəyi ilə yaradıldığını vurğulayan nazir müavini bildirib ki, yaxın vaxtlarda BP və onun tərəfdaşları ilə birgə işğaldan azad edilmiş ərazilərdə 240 meqavatlıq GES-in tikintisinə başlanılması planlaşdırılır. Onun sözlərinə görə, bu, Azərbaycanın öhdəlik kimi götürdüyü sıfır karbon emissiyası proqramına uyğundur.

***XQ***

# Aqrar sığorta fermerləri ziyandan qoruyur

## Bu il 8 milyon manatdan artıq zərər kompensasiyası ödəniləcək

(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, Azərbaycanda aqrar sığortanın tətbiqi Prezident İlham Əliyevin "Aqrar Sığorta Fondunun yaradılması barədə" 19 avqust 2019-cu il tarixli fərmanı və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Belə ki, həmin sənədlər kənd təsərrüfatında risklərin sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Dövlət başçısının imzaladığı məlum fərmana əsasən, ölkəmizdə aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, eləcə də idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən Aqrar Sığorta Fondu qeyri-kommersiya hüquqi şəxs yaradılıb. Aqrar sığorta mexanizminin tətbiqinin əsas məqsədi isə təsərrüfat sahiblərini və fermerləri gözlənilməz təbiət hadisələrindən müdafiə etmək üçün işlək bir mexanizmin yaradılmasından ibarətdir. Ötən müddətdə ölkə ərazisində baş verən leysan yağışları, sel-subasma da daxil olmaqla, demək olar ki, bütün təbii fəlakət riskləri–fırtına, sel, qasırğa, tufan, dolu və digər hadisələr sığorta təminatına daxil edilib. Ən çox sığortalanan əkinlər – buğda, arpa, pambıq, qarğıdalı, fındıq, şəkər çuğunduru, çəltik və üzüm sahələri, eləcə də meyvə bağlarıdır. Bütövlükdə isə, ötən dövrdə ölkəmizdə sığortalanan bitkilərin sayı 14-dən 41-ə çatdırılıb.

2020-ci ildə ölkə üzrə cəmi bir neçə müqavilə bağlandığı halda, cari ilin ötən dövründə onların sayı 50 minə çatıb ki, bu da rekord göstəricidir. Bundan əlavə, həmin il 6-7 min manat sığorta haqqı yığılmışdırsa, bu il bitkiçilik sığortası üzrə toplanmış sığorta haqlarının 10 milyon manatı keçəcəyi gözlənilir. Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov jurnalistlərə bildirib ki, 2022-ci ildə fond tətəfindən 2,5 milyon manat sığorta ödənişi edildiyi halda, bu il həmin rəqəm minimum 2-3 dəfə artaraq 7-8 milyon manata çatacaq.

Bununla belə, ölkəmizdə sığorta ödənişlərinin daha artıq ola biləcəyini də ehtimal etmək mümkündür. Elə bu məsələni istisna etməyən fond rəhbəri də qeyd edib ki, cari ilin ötən dövründə bütün ölkə üzrə kifayət qədər qeyri-sabit hava şəraiti müşhaidə edilib və bu iri həcmli zərərlərə səbəb olub. Onun sözlərinə görə, sığortalanmalı ərazilərin sayı artdıqca zərərlə bağlı müraciətlər də çox olacaq. "Hər il fərqli nəticələrlə üzləşirik. Təkcə bu ilin aprel-may aylarında ölkədə baş vermiş sığorta hadisələrinin sayı, ümumilikdə, ötən il ərzində baş verənlərdən iki dəfə artıq olub",–deyə o əlavə edib.

Aqrar Sığorta Fondunun məlumatına görə, cari ilin 9 ayında ölkə üzrə 420 min hektara yaxın əkin sahəsi sığortalanıb. Bu da əkinə yararlı ərazilərin 25 faizi deməkdir. Bunu isə cəmi 3 il əvvəl fəaliyyətə başlayan bir sistem üçün uğurlu nəticə hesab etmək olar.

Məlum olduğu kimi, aqrar sığortanın bir istiqaməti də quraqlıqla bağlıdır. Qeyd edək ki, cari ilin ötən dövründə Azərbaycanda müşahidə olunan yağıntılı hava şəraitinə baxmayaraq, yay mövsümündə isti və quraq günlərin də sayı kifayət qədər çox olub. Göründüyü kimi, quraqlıq kənd təsərrüfatı sahəsində ortaya çıxan əsas risklərdən biridir. Məhz bu səbəbdən də yaxın vaxtlarda ölkəmizdə bu riskin də sığorta xidmətlərinə daxil edilməsi gözlənilir. Bununla bağlı Aqrar Sığorta Fondu 2023-2025-ci illərdə Azərbaycanda pilot lahiyə olaraq quraqlıq sığortasına başlamaq niyyətindədir. Bu məqsədlə hazırda İsveçrə və Türkiyə ilə təcrübə mübadiləsi aparılır. Eyni zamanda, ölkədə yağıntıların qeyri-bərabər paylanması ilə əlaqədar indeks əsaslı quraqlıq sığortasının tətbiqi istiqamətində də araşdırmalar davam etdirilir.

Yeri gəlmişkən, Aqrar Sığorta Fondu İdarə Heyətinin sədri Fuad Sadıqov bu günlərdə jurnalistlərə verdiyi açıqlamada deyib ki, Azərbaycanda quraqlıq hadisəsi ilə bağlı sığorta fondun risklər siyahısına daxil edilə bilər. Quraqlıq sığortasının hazırda fondun qarşısında duran ən vacib vəzifələrdən biri kimi xarakterizə edən F. Sadıqov bildirib ki, Azərbaycan quraqlığa məruz qalacaq ölkələr siyahısında ilk onluqdadır. Onun sözlərinə görə, fond hazırda fermerlərə quraqlıqdan hansı formada təminat verə biləcəyi ilə bağlı təhlillər aparır.

Ümumilikdə isə, bu il ölkədə 200 min hektara yaxın əkin sahəsi quraqlığa məruz qalıb. Bunun zərərli bir sığorta təminatı olduğunu diqqətə çatdıran F. Sadıqov bildirib ki, hazırda fondun əsas vəzifələrən biri də növbəti dövrdə bu xidməti fermerlərə təqdim etməkdir. Onun dediyinə görə, təkcə Türkiyə təcrübəsini götürsək, hər alınmış 100 manata görə 900 manat ödəniş edilib. "Öncədən bəllidir ki, toplanan sığorta haqları həmin ərazilər üzrə edilən ödənişlərdən dəfələrlə az olacaq. Bu, tarifləri dəyişməsinə səbəb olacaq. Çalışırıq sistemi elə genişləndirək ki, dayanıqlılıq təmin olunsun",–deyə fond sədri əlavə edib.



Fuad Sadıqov hesab edir ki, quraqlıq təminatının verilməsi ilə şiddətli quraqlığa davamlı məruz qalan ərazilərdə tariflərin ikiqat artması mümkündür. Sözügedən sahədə dövlət dəstəyinin neçə faiz olmasının hazırda müzakirə mövzusu olduğunu bildirən fond rəhbəri deyib ki, bu rəqəmin 50 faiz deyil, 60-70 faiz olacağı da gözlənilir.

Bir məqamı da qeyd edək ki, hazırda Azərbaycanın aqrar sığorta sahəsində qazandığı təcrübə bir sıra ölkələrin diqqətini cəlb edib. Məsələn, Türkiyənin Kənd Təsərrüfatı Sığortası Birliyinin İdarə Heyətinin sədri Osman Yıldız deyib ki, Azərbaycanda Türkiyənin aqrar sığorta modeli qurulub, təcrübə qazanılıb. Bu təcrübə, qarşıya çıxan çətinliklər, əldə edilən bilik sistemin daha səmərəli və gəlirli çalışmasına kömək edir. Azərbaycan bu sistem üçün önəmlidir. Onun sözlərinə görə, Türkiyənin aqrar sığorta modeli Azərbaycanda uğurla tətbiq edilə bilirsə, bu, Özbəkistanda da ola bilər. Osman Yıldız, həmçinin bildirib ki, Türkiyə və Azərbaycan birlikdə aqrar sığorta sistemini Özbəkistanda qurmaq üçün əlindən gələni əsirgəməyəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**4 Oktyabr Cəbrayıl şəhəri günü**

**...Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 4 oktyabr Cəbrayıl şəhəri günü elan edilmişdir. Düz 3 il əvvəl məhz bu gün 44 günlük şanlı savaşın ilk günlərində düşmən əsarətindən azad edilmiş Cəbrayıl sakinləri ilk dəfədir ki, bu əlamətdar hadisəni böyük sevinc və qürur hissi ilə qeyd edirlər.**

# Zəfər yürüşünün Xudafərin səhifəsi

Azərbaycanın bütün bölgələri, rayon və kəndləri gözəldir, əzizdir, doğmadır. Araz çayının üzərində hələ XI və XIII əsrlərdə inşa edilən Xudafərin körpüləri burada yerləşdiyi üçün “Qarabağın giriş qapısı” sayılan Cəbrayıl mənim üçün xüsusilə əzizdir.

Tale elə gətirib ki, 1985-1993-cü illərdə “Bakinski raboçi” qəzetinin, mərkəzi Cəbrayıl şəhəri olmaqla, Mil-Muğan zonasının bölgə müxbiri kimi çalışmışam. Bu illər ərzində rayonun doğma yurda, torpağa qəlbən bağlı olan saf, mərd, hünərvər insanlarını yaxından tanımışam, onlarla dostluq, yoldaşlıq etmişəm. Bu gün də dostluq əlaqələrimiz davam edir.

1990-cı illərin əvvəllərində quldur erməni yaraqlıları yerli separatçıların diktəsilə Cəbrayılın Hadrut rayonu ilə həmsərhəd olan kəndlərində ağır zorakılıqlarla müşayiət olunan vəhşiliklər törətməyə başlamışdılar. O zaman Cəbrayılın əli silah tutan kişiləri könüllü özünümüdafiə dəstələri düzəldərək doğma torpağı düşməndən qorumağa başladılar.

Yadımdadır, həmin ağır və gərgin dönəmdə Cəbrayıl artıq ilk şəhidlərini verirdi. Rayon polis şöbəsinin əməliyyatçısı, milis kapitanı Zahid Məmmədov yaraqlıların qəfil basqınına məruz qalan dinc əhaliyə köməyə tələsən zaman yolda basdırılmış minaya düşərək şəhid oldu.

Azərbaycan İnşaat və Memarlıq Universitetinin memarlıq fakültəsinin 4-cü kurs tələbəsi Fuad Əsədov Bakıda dərslərini yarımçıq qoyaraq ata-anasının yaşadığı doğma Cəbrayıla gələrək ağır döyüşlərə qatıldı və 1992-ci ilin yazında qəhrəmancasına şəhid oldu.

Elə həmin günlərdə rayonun Qaracalı kəndindən olan 13 yaşlı qorxubilməz yeniyetmə Samir Əliyev səngərdə növbə çəkən döyüşçülərimizə düşmənin ağlına belə gətirmədiyi keçilməz dağ yolları ilə evlərindən ərzaq sovqatları, sevgililərindən məktublar gətirirdi. Samir o vaxt Avropada çox populyar olan qaradərili məşhur futbolçu Tiqanaya zahirən çox bənzədiyi üçün onu bu adla da çağırırdılar.

Bir ildən sonra artıq 14 yaşlı “Tiqana” Cəbrayıl şəhəri uğrunda döyüşlərdə sinəsindən ağır güllə yarası alaraq həlak oldu. Atası Qədir kişi, anası Əminə xala Samirin ölümünə ömürlərinin sonunadək inana bilmirdilər.

Lakin bütün bu ayrı-ayrı qəhrəmanlıq və şücaət nümunələrinə baxmayaraq, 1993-cü il avqustun 23-də Cəbrayıl erməni silahlı birləşmələri tərəfindən işğal olundu və rayon əhalisi ölkəmizin, demək olar ki, bütün şəhər və kəndlərinə səpələnərək ağır, nisgilli köçkün taleyi yaşamalı oldu.

Mən cəbrayıllılarla İmişli, Sabirabad və Biləsuvardakı çadır düşərgələrində və başqa yelərdə görüşürdüm. Onların hər biri düşməndən qisas almağa hər an hazır olduqlarını söyləyirdilər.

Qisas qiyamətə qalmaz, deyirlər. Nəhayət, 2020-ci ilin payızında Azərbaycan Ordusu Qarabağın azadlığı naminə Vətən müharibəsinə başladı. Döyüşlər başlananadan 7 gün sonra Cəbrayıl şəhəri azad edildi.

Ali Baş Komandan İlham Əliyev həmin gün televiziya ilə xalqa müraciətində demişdir: “Bu gün Cəbrayıl şəhəri və rayonun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm”.

Qeyd etmək lazımdır ki, bu tarixi qələbənin müharibənin taleyində olduqca böyük mənası var idi. Belə ki, ilk dəfə olaraq silahlı qarşıdurmanın birinci həftəsində şəhər və rayon mərkəzi azad edildi. Bu, Ordumuza əlavə güc və inam verdi.

Cəbrayılın azad olunması hələ 2016-cı ilin şanlı Aprel döyüşləri zamanı başlamışdı. Çünki ərazidəki strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cəbrayılın Füzuli rayonu ilə sərhədindəki Cocuq Mərcanlıya həyatın qayıtması mümkün olmuşdur. Bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi.

Xatırladaq ki, Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyev heç nəyə baxmadan, heç kimdən qorxmadan təkbaşına öz ailəsi ilə Cocuq Mərcanlıda 20 ildən çox yaşayıb. O, Azərbaycanın ilk “Əmək” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bu yüksək mükafatı Oqtay Həziyevə onun evində, şəxsən təqdim edib və qəhrəmanı qucaqlayıb bağrına basıb.

Bu gün Cəbrayıl rayonu Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin bir an azalmayan diqqət və qayğısı sayəsində bərpa və yenidən inşa edilir. Rayonda yeni yollar, yaşayış binaları tikilir, müasir infrastruktur yaradılır. Erməni vandallarının vəhşicəsinə dağıtdığı Cəbrayıl ən yaxın həftələr, aylar ərzində öz doğma sakinlərini qəbul edəcək.

Qərinələr, əsrlər boyu erkən yazda Azərbaycanın güneyindən quzeyinə uçub gələn qaranquşlar Araza enərək onun sularından içir, sonra isə yenidən səmaya pərvazlanaraq oradan əvvəlcə Qarabağa, sonra isə bütün Azərbaycana yayılırdılar.

Ornitoloqlar qeyd ediblər ki, Qarabağın işğal altında olduğu 27 il ərzində qaranquşlar bu yerlərə, bir dəfə də olsun, uçub gəlməyib, səmtlərini dəyişiblər, sanki ermənilərin viran qoyduğu evləri görmək istəməyiblər. Bu, nə hikmətdir, nə möcüzədir, bu sirr yalnız böyük Allaha bəllidir.

Amma üç ildir ki, qaranquşlar yenidən əvvəlki “marşrutlarını” bərpa ediblər. Onlar Cəbrayılda, bütün Qarabağda yeni ucaldılan evlərin eyvanlarında yuva qurur, bu məmləkətin əsl sahiblərini səbirsizliklə gözləyirlər. Cəbrayıllılar özləri də doğma yurda can atırlar. Yurd, torpaq doğma sakinləri ilə gözəl və möhtəşəmdir!



***Məsaim ABDULLAYEV***
***XQ***

# İrəvan minalanmış ərazilərin xəritəsini Bakıya təqdim etməlidir

## Bu, sülh müqaviləsi üzrə danışıqlara təkan verə bilər

**(əvvəli 1-ci səhifədə)**

Qeyd olunmalıdır ki, haylar Azərbaycanla müharibə vəziyyətində olduqları 30 ildən artıq dövrdə ölkəmizə qarşı hər zaman alçaq mübarizə metodlarından istifadə ediblər. Onlar azərbaycanlılara qarşı çoxsaylı terror aktları, soyqırımları törədiblər. Çaylarımıza zavod və fabriklərin ağır metal tullantılarını axıdaraq onları həddindən artıq çirkləndiriblər. Aran Qarabağda yerləşən 6 rayonun (Ağcabədi, Ağdam, Bərdə, Goranboy, Tərtər və Yevlax) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edən Sərsəng və Suqovuşan su anbarlarının qarşısını yayda kəsməklə, qışda isə həddən artıq su açıb buraxmaqla külli miqdarda ziyan vurublar. Ətraf mühitə və biomüxtəlifliyə zərər vurmaqdan (ekosid cinayəti) əlavə, Ermənistan və qondarma rejim tərəfindən Azərbaycan dövlətinə və xalqına məxus mülki infrastruktur məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılıb, mədəni irsimiz məhv edilib, saxtalaşdırılıb və talan olunub, mülki əhalimizə, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə vəhşiliklər törədilib.

Ancaq hayların xəbis əməlləri arasında əsas yerlərdən birini, sözsüz ki, mina terroru tutur. Sonuncu dəfə sentyabrın 19-da bir ədəd nəqliyyat vasitəsi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində basdırılmış tankəleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində iki mülki şəxs həlak olub.

Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək şəhadətə qovuşub. Bununla da 44 günlük Vətən müharibəsindən indiyə qədər, ümumilikdə, mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub.

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra qondarma rejimin bu ərazilərdə əlavə minalar basdırdığı üzə çıxıb. 480 kilometrdən artıq təmas xətti boyunca yerləşdirilən yarım milyondan artıq mina heç də təsadüfi partlayıcı və ya partlamamış hərbi sursat deyil.

Bununla bağlı Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” platformasındakı hesabında paylaşım edib. H.Hacıyev yazıb: “2020-ci ildə baş verən 44 günlük müharibədən dərhal sonra Azərbaycan əvvəllər işğal olunmuş ərazilərdə – 1200 kilometrdən artıq təmas xətti boyunca Ermənistanın yerləşdirdiyi minaların gözlənilən təhlükəsi ilə üz-üzə qaldı. 10 noyabr 2020-ci il imzalanmış üçtərəfli Bəyanatdan sonra 310-dan çox mina partlayışı qurbanımız var. Humanitar minatəmizləmə böyük insan və maliyyə resursları tələb edir və yenidənqurma prosesinə mane olur. Yollar boyunca, tarlalarda və hətta qəbiristanlıqlarda yerin səthindən bir neçə santimetr aşağıda yerləşdirilmiş minalar dəhşət saçır. Əlavə edilmiş xəritədən göründüyü kimi, 19-20 sentyabr 2023-cü il tarixlərində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində biz aşkar etdik ki, artıq tarixin arxivinə getmiş qeyri-qanuni rejim, təqribi hesablamalara görə, 480 kilometrlik təmas xətti boyunca əlavə yarım milyon mina basdırıb”.

Prezidentin köməkçisi qeyd edib ki, əvvəllər yerləşdirilən minalar az imiş kimi, Ermənistan və qanunsuz rejim ərazimizə əlavə “gizli qatillər və ölüm toxumları” yerləşdiriblər ki, onların təmizlənməsi çox böyük səy tələb edir: “2023-cü il aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılana qədər İrəvan Ermənistan Respublikasında yenicə istehsal olunmuş minaları Qarabağa çatdırmaq üçün Laçın yolundan istifadə edirdi.

H.Hacıyev bildirib ki, insanların həyatını xilas etmək üçün Ermənistan humanitar məsələlərdə ayrı-seçkiliyə yol verilməməsi prinsipinə uyğun olaraq, yeni minalanmış ərazilərin xəritələrini təqdim etməli, humanitar minatəmizləmə məsələlərində Azərbaycana kömək etməlidir.

O əlavə edib ki, minalar “müharibə silahı” kimi istehsal edilsə də, əslində, mina qurbanlarının yalnız 10 faizi hərbçilərdir. Qurbanların 90 faizi gündəlik həyatlarını davam etdirən, su gətirən, məktəbə gedən və ya tarlalarından məhsul toplayan günahsız insanlar, o cümlədən, qadınlar və uşaqlardır.

Qeyd edək ki, baş prokuror Kamran Əliyev də oktyabrın 1-də verdiyi açıqlamada Ermənistanın hələ də mina xəritələrini vermədiyini, təqdim olunan xəritələrin isə həqiqəti əks etdirmədiyini bildirib. Ən son məlumata görə, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyi Xankəndi şəhəri ərazisində yerləşən müəyyən inzibati binalarda xeyli sayda partlayıcı qurğular aşkarlayıb. İnzibati binalara baxış keçirilən zaman bunların qanunsuz hərbi birləşmələr tərəfindən quraşdırıldığı üzə çıxıb. Statistikaya əsasən, 2020-ci il noyabrından bu ilin sentyabrın 1-dək 95318 hektar ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, 93410 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib.

Onu da bildirək ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Qarabağ bölgəsinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə tədbirlər həyata keçirilir. Müdafiə Nazirliyinin dünən yaydığı məlumata görə, lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən cari ilin sentyabrın 21-dən oktyabrın 2-dək bölgədə 18 ədəd piyada əleyhinə mina, 105 ədəd tank əleyhinə mina aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib. “Mühəndis təminatı üzrə görülən tədbirlərdə əsas səylər ərazilərin minalardan təmizlənməsinə, eləcə də yeni təminat yollarının çəkilməsinə yönəldilir. Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir”, – deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

Lokal xarakterli antiterror tədbirləri, qeyd etdiyimiz kimi, qanunsuz rejimin ağ bayraq qaldırması, separatçıların təslim olması ilə nəticələndi. Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti Zirvə toplantısı çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşü nəzərdə tutulub. Prezident İlham Əliyev və Nikol Paşinyanın görüşü Almaniya Kansleri Olaf Şolts və Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə baş tutacaq. Dövlət başçımız sentyabrın 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən hazırda Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üçün regionda daha yaxşı imkanların yarandığını qeyd edib. Zənnimizcə, Ermənistan rəhbərliyi etimad mühitinin daha da yaxşılaşması üçün konstruktivlik göstərməli, ən azı son vaxtlarda minalanmış ərazilərin xəritəsini Azərbaycana verməlidir. Bu addımın atılması sülh müqaviləsi üzrə danışıqlara da əlavə müsbət impuls verə bilər.

***Səxavət HƏMİD***
***XQ***



**EKSPERT RƏYİ**



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

– Ermənilər tərəfindən mina terroru bu yaxınlaradək davam edirdi. Biz Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin təmizlənməsi üçün minalanmış sahələrin xəritəsini verməklə bağlı Ermənistana dəfələrlə müraciət etmişik. Ancaq onlar nəinki minalanmış ərazilərin xəritəsini vermir, əksinə, Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdəki qanunsuz silahlılar yeni müdafiə mövqeləri hazırlayır və onun ətrafını minalayırdılar. Bununla bağlı dəfələrlə çağırışlar etsək də, məsələyə lazımi diqqət yetirilməmişdi. Düşünürəm ki, yeni minaların basdırılması Rusiya sülhməramlı kontingentinin müvəqqəti məsuliyyəti altında olan ərazilərdə baş verdiyi üçün onlar da məsuliyyət daşıyırlar.

Digər tərəfdən, burada təəccüblü heç nə yoxdur. Antiterror tədbirləri qanunsuz silahlılara qarşı keçirilib. Qanunsuz silahlıların olduğu yerdə minaların yerləşdirilməsi mümkün idi. Oxşar hadisələr Kəlbəcər və Laçının azad olunması zamanı yaşanmışdı. Biz ermənilərə bu rayonları boşaltmaq üçün vaxt vermişdik. Onlar isə bu müddətdən istifadə edərək ərazilərimizi minalamışdılar.

Erməni terrorizmi beynəlxalq səviyyədə tanınır. Onlar Qarabağdan çıxarkən daha çox ərazini minalayıblar. Artıq bununla bağlı məlumatlar da var. Onu da qeyd etmək lazımdır ki, bütün bu hadisələrin məsuliyyəti Ermənistan dövlətinin üzərindədir. Minalar Ermənistandan gətirilib, onu yerləşdirənlər ermənilərdir. Elə bir beynəlxalq konvensiya yoxdur ki, Ermənistan onu pozmasın.

Artıq ərazilərimizdə separatizmin kökü kəsilib. Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyimiz tam bərpa olunur. Ermənilərin reinteqrasiya prosesi başlayıb. Amma hələ də silahlar tam yığılmayıb. Terrorçuluq fəaliyyəti tam bitməyib. Düşünürəm ki, hələ bir müddət də xoşagəlməz hallarla rastlaşa bilərik. Əlbəttə, təhlükənin minimuma endirilməsində Rusiya sülhməramlı qüvvələri yetərincə aktiv olmalıdırlar. Onların iştirakı nəticəsində biz bu təhlükəni müəyyən bir şəkildə azalda bilərik. Digər tərəfdən, dövlət qurumlarının bütün təlimatlarına, tövsiyə və qadağalarına riayət etmək lazımdır. Əks-təqdirdə heç kim bədbəxt hadisələrdən sığortalanmayıb.

# Xuntabaşılar Bakıya gətirilib

**Qarabağdakı separatçıların keçmiş “prezident”ləri Arkadi Qukasyan (1997-2007) və Bako Saakyan (2007-2020), “Daşnakasütyun” partiyasının “Qarabağ təmsilçisi” və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılaraq Bakıya gətiriliblər.**



Həmin şəxslər illərlə törətdikləri və rəhbərlik etdikləri cinayət əməllərinə görə qanun qarşısında cavab verəcəklər.

Qeyd edək ki, 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin qələbə ilə bitməsindən sonra üçtərəfli Bəyanata əsasən həmin ərazilərə və bölgədən Ermənistana gedən Laçın yoluna Rusiyanın hərbi kontingenti nəzarət edib.



Bundan sonra Azərbaycan özü qətiyyətli addımlar ataraq separatçıların bütün məkrli planlarını darmadağın edib. Sentyabrın 19-da ordumuzun keçirdiyi lokal antiterror tədbirlərindən sonra separatçı rejim ağ bayraq qaldıraraq özünü buraxmağa məcbur edilib.

Onu da qeyd edək ki, 44 günlük müharibədən əvvəl Qukasyan “Bakı bizim ordumuz barədə yaxşı təsəvvürə malikdir və müharibə olacağı təqdirdə Azərbaycan yeni ərazilər itirəcək” – deyə iddia etmişdi.

***

XQ-nin əldə etdiyi məlumata görə, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları Qarabağda separatçıların keçmiş “prezidenti” Araik Arutyunyanı da saxlayıblar. Hazırda o, Bakıya gətirilir.

***XQ***

# İranın müasir etno-mədəni mənzərəsi

## *Doğrudanmı bu ölkədə farslar əksəriyyət təşkil edir?*

(əvvəli XQ-nin 26 sentyabr 2023-cü il tarixli sayında)

**İran İslam Respublikasının rəsmi şəxsləri, məmurları milli məsələlərdən söhbət açanda ölkənin etnik tərkibində farsların əksəriyyət təşkil etdiyini bildirirlər. Bu ölkənin tarixində farsların heç bir vaxt çoxluq təşkil etmədiyini bildiyimiz üçün rəsmi statistikaya müraciət etmək ehtiyacı duyduq.**

Bu coğrafiyanın etno-psixoloji mənzərəsini daha da geniş təhlil etməyə ehtiyac var. Bu zaman İranın rəsmi siyasətinin nə qədər yanlış və düşünülməmiş olduğunu üzə çıxarmaq mümkündür. Ölkənin passionarlığının pozulması yalnız marqinallaşdırılmış İslam ilə özünü göstərmir. Bir çox digər səbəblər də mövcuddur. Yazımızın I hissəsində birinci və ikinci qrup ostanların etnomədəni səciyyəsini verməyə çalışdıq.

### Üçüncü qrupa daxil olan ostanlar

Rəsmi məlumata görə, Fars ostanının 4,5 milyon əhalisinin 20, İsfahanın 4,5 milyon əhalisinin 20, Gilanın 2,5 milyon əhalisinin 20, Çahar-Mahal və Bəxtiyari ostanının 1 milyon əhalisinin 20 faizini türklər təşkil edir. Qeyd etdiyimiz kimi, məlumatın saxtalaşdırılmasında 25 faiz manipulyasiya olduğunu bildiyimizi nəzərə alaraq 2,5–3 milyon nəfərlik fərq üzə çıxır.

Rəzəvi Xorasan ostanının 6 milyon 435 min nəfər əhalisinin (2016) 20 faizə qədərini azərbaycanlılar və türkmənlərin təşkil etdiyi rəsmi etiraf edilir. Rəsmi məlumatda isə ostan əhalisinin 80 faizinin farslar olduğu bildirilir. Bu əyalətin tarixçəsi və etno-mədəni təhlili ayrıca bir tədqiqatın obyektidir.

### Dördüncü qrupa daxil olan ostanlar

2006-cı ildə aparılmış rəsmi siyahıyaalmaya əsasən, Elam ostanında 545 min 787 nəfər əhali yaşayırdı. Ümumi olaraq vilayətdə əhalinin əksəriyyətini kürdlər təşkil edirlər. Əhalinin 80 faizini kürd, qalanlarını isə lor, azərbaycanlı və ərəblər təşkil edirdilər.

Kohgiluyə və Buyer Əhməd ostanı İranın cənub-qərbində yerləşir və mərkəzi Yasuc şəhəridir. 2006-cı ildə aparılmış rəsmi siyahıya almaya əsasən, ostanda 634 min 299 nəfər əhali yaşayırdı. Əhalinin 80 faizini lorlar, 10 faizini qaşqaylar və digərləri təşkil edirdi.

Mazandaranın əhalisi 3 milyona yaxın göstərilir. Əhalinin faiz nisbəti tamamilə gizlədilsə də məlumdur ki, burada, əsasən, mazilər, giləklər, talışlar, türkmənlər və azərbaycanlılar yaşayır. Mazandaranda farslar tarixən yaşamayıb. Yalnız Qacarlardan sonra idarəçilik və mərkəzi hakimiyyətin təmsilçiləri olaraq az sayda insan özünü fars sayıb.

Yəzd ostanının 500 min əhalisinin olduğu bildirilir və çox böyük faizinin fars olduğu qeyd olunur. Əhalinin əsas identifikasiyası atəşpərəstliyi ilə müəyyənləşir. Əgər din faktorunu nəzərə almasaq, bu ostanı farsların dominant olduğu bir coğrafiya olaraq müəyyənləşdirə bilərik.

Kermanşah ostanının 2 milyona yaxın əhalisi var. Əsasən, kürdlərin məskunlaşdığı bu ərazidə lorlar və azərbaycanlılar da böyük sayda yaşamaqdadırlar. Kerman ostanının əhalisi, təxminən, 500 mindir və böyük əksəriyyətini bəluclar təşkil edir.

Sistan və Bəlucistanın 2,5 milyon əhalisi var ki, rəsmi məlumata görə onların 65 faizi bəlucdurlar. 2016-cı ilin məlumatına görə, Buşəhr ostanında 1,2 milyon əhalinin 87 faizi farsdır. Bəsrə körfəzinin sahilində yerləşən tarixi ərəb torpaqlarında belə bir faiz göstəricisi, şübhəsiz ki, saxtadır.

700 min əhalisi olan Semnan ostanında sakinlərin 20 faizə qədərini azərbaycanlılar, türkmənlər və rəsmi məlumata görə, 80 faizini farslar təşkil edir.

Lurestan ostanının əhalisi 1,8 milyon nəfər olub (2016) və 90 faizi lorlardır.

Bu sistemləşdirilmiş mənzərə İran coğrafiyasında əhalinin dislokasiyası və təxmini etnik mənzərəsini ifadə edir. Lakin bütün İran coğrafiyasında təbii şərtlər, həyat standartları, dövlət dəstəyi, təhsil, səhiyyə və mədəniyyət eyni şəkildə paylanmayıb.

Tehran-Şiraz-İsfahan yolu ilə cənuba yollanarsınızsa, yolun ortasında şərqə doğru yol ayrılır və bu böyük bir coğrafiya əsasən, bəlucların yaşadığı ərazi olaraq tanınır. Bu ərazilərin insanları Əfqanıstan və Pakistanla daha çox inteqrasiya olunur və əsasən sünni məzhəbdirlər.

İran İslam Respublikasında əhalinin artım dinamikası haqqında statistik məlumatlar gizli saxlanılır və yalnız rəhbərə məruzə edilir. Lakin sosial həyat tərzi haqqında və sosiologiyadan əldə edilən məlumatlar, həyat ukladı və iqtisadi göstəricilər (büdcə bölgüsü) imkan verir ki, bir digər tərəfdən əhalinin kütləvi miqrasiyası ilə səciyyələnir. Azərbaycan əhalisi İran coğrafiyasında passionarlığı ilə fərqlənir. Ümumi ideologiyaya xidmət edir, ənənəvi müsəlmanlığın əsas sütununu təşkil edir və digər etnik qrupların din yaradıcılığında iştirak etmir. Yeri gəlmişkən, İran coğrafiyasında din yaradıcılığı İslamdan öncə də geniş yayılmış fəaliyyət sahəsi olub. İrandan fərqli olaraq Azərbaycan coğrafiyası dini ənənələri klassik modeldə qorumağa təmayüllü idi. İran İslam Respublikası zamanında da İran dini yaradıcılığı davam edirdi. Fars və cənub əyalətlərində İslam ritualları atəşpərəstliklə sintez edilir və yeni elementlər əlavə olunurdu. Məsələn, İsfahanda Novruz bayramından 13 gün sonra evində səməni yetişdirmiş insanlar bir yerə toplanır və səməni halvası bişirmək mərasimi keçirir. Böyük tiyanlarda uzun müddət qarışdırmaqla bişirilən səməni halvası üçün bütün iştirakçılar növbə ilə tiyana yaxınlaşır, böyük çömçələrlə onu qarışdırır və "ya Zəhra" deyə çağırışlar edirlər. Halva hazır olduqdan sonra otaqdan hamı həyətə çıxaraq halva tiyanını tək qoyurlar. Mərasimdə iştirak edən qonaq soruşduqda "bəs bu nə üçündür?", məclisin agsaqqalı cavab verir ki, "həzrəti Zəhra səməni halvasını çox sevərmiş. Biz otağı boş qoyduq ki, həzrəti Zəhranın ruhu gəlib halvadan yesin, sonra biz onu paylayaq".




sıra nəticələr əldə edək. Ölkənin əhali artımı, əsasən, Kürdüstan, Lorestan, Bəlucistan və Azərbaycan ostanlarının hesabına baş verir. Mərkəzi hakimiyyət milli ostanlara münasibətdə dağıdıcı bir siyasət həyata keçirir.

İran rəsmi dairələri məqsədli olaraq kürd əşirətlərini kiçik qruplara bölərək yeni coğrafiyalarda məskunlaşdırır (əsasən Azərbaycan ərazilərində) və bununla da əhali artımını stimullaşdırır. Kürdüstan, Bəlucistan və Lurestan məntəqələrində minlərlə məktəb yaşlı uşaqlar təhsildən kənarda qalır, ostan mərkizindən kənarda olan yaşayış yerlərində sistemli tədris işi həyata keçirilmir, məktəbləri olan əyalətlərin təhsil modeli isə İslam təbliğinə yönəldilmiş yarım dünyəvi təhsil modelidir ki, ayrıca bir tədqiqatın obyekti ola bilər.

Lurestanda əhalinin artımı, əsasən ənənəvi həyat ukladı və qadın faktoruna əsaslanır. Lurestanda qadın dominantdır, ailə qurucusudur, çoxuşaqlılığa təmayüllüdür, təhsilə təmayüllü deyil, iddialı deyil, zəhmətkeşdir və dözümlüdür. Bu amillər Lurestanın son 40 ildə əhalisinin sürətlə artımını təmin edir. Əsasən, təhsildən kənar böyüməkdə olan lor gəncləri şəhərlərə axın etdikcə, farsdilli əhalini müəyyənləşdirir və fars ənənəvi həyat ukladının "üçüncü" təbəqəsini təşkil edir.

Azərbaycanda əhali artımı bir tərəfdən yeni ailələrin qurula bilməməsi (əsas səbəb olaraq iqtisadi vəziyyət göstərilir),

Belə bir İslam anlayışı və müxtəlif dini rituallar İranın cənubunda normal qəbul edilən hallardır. Klassik fars ostanlarından olan Yəzddə 500 min əhalinin olduğu və onlardan 20 faizinin zərdüşt olduğu rəsmi qeyd olunur. Lakin ərazinin öyrənilməsi nəticəsində məlum olur ki, insanların dövlət məmurlarından qorxusu nəticəsində insanlar ikili həyat yaşayır. Kənar insanlara, xaricilərə daha səmimi etiraflar edirlər və özlərini müasir İran sivilizasiyasının tərkib hissəsi kimi görmürlər. Belə ki, əhalinin 80 faizi zərdüşt babalarına sadiqdirlər. İranın cənub ərazilərində zərdüştçiliyə, Sasani dövrünün ənənələrinə ehtiram edənlər, Həxamənişilər dövlətini ulu babaları hesab edənlər, erkən xristianlar və mitraçı qruplar da yayılmaqdadırlar.

Beləliklə, məlum olur ki, İran coğrafiyasının bütün məntəqələrində yaşayan və bir çoxlarında əksəriyyət təşkil edən türk müsəlmanlar, klassik Cəfəri şiyələridir. Yalnız azərbaycanlılar əhalinin yarısını, qaşqaylar və türkmənlərlə birlikdə götürdükdə isə əhalinin 60-65 faizini təşkil edirlər. Lakin bu gün, Tehranda bir məmur rəy sorğusu apararsa, əlbəttə ki, təhsil almış və dil ləhcəsini ört-basdır edənlər "mən farsam", ləhcəsini gizlədə bilməyənlər isə "mən iranlıyam" deyəcəkdir.

**Pərviz KAZIMİ,**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

# Səfirlik qatili edam ediləcəkmi?

**Bəzi media və sosial şəbəkə səhifələrində Azərbaycanın Tehrandakı səfirliyinə qarşı terror aktı törətmiş şəxsin ölüm cəzasına məhkum edilməsinə dair məlumatlar yayılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, baş vermiş cinayət hadisəsi üzrə İran İslam Respublikasında istintaq edilən cinayət işinin gedişatı diqqətlə izlənilir və qarşı tərəflə mütəmadi əlaqə saxlanılır.

"Belə ki, İranın qanunvericiliyinə uyğun olaraq cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilib və prokuror tərəfindən təqsirləndirilən şəxsin ən ağır cəzaya məhkum edilməsi tələb olunub, lakin hazırda məhkəmə tərəfindən yekun qərar qəbul edilməyib.

Ümidvarıq ki, iş üzrə yaxın vaxtlarda məhkəmə tərəfindən ədalətli hökmü çıxarılaraq layiqli cəzanın verilməsi təmin ediləcək", - məlumatda qeyd edilib.

**XQ**



# Tehran göz yaşlarına inanmır...

**Rəsmi media İrandan xaricə köç edənlər barədə təhlili materiallar yayımlayıb. Əgər əvvəllər bu daha çox siyasi səbəbdən baş verirdisə, indi vəziyyət bir qədər də başqalaşıb.**

Sosioloq Maqsud Fərasətxah açıqlamasında həmin kateqoriya barədə nəinki məlumat verib, eyni zamanda, geniş təhlillər aparıb. İranda hətta pulu və imkanı olanların xaricə köç etdiklərini qeyd edən sosioloq bu statistikanın daim artdığını göstərib. O, azalan insan resurslarının cərgəsinə yüksək vəzifəli menecerlərin, o cümlədən Səhiyyə Nazirliyinin məmurlarının və ixtisaslı işçilərinin də qoşulmalarını fəlakətin daha da dərinləşdiyi kimi dəyərləndirib.

Necə deyərlər, Tehran göz yaşlarına inanmır.

**R.GƏNCƏLİ**

# Mehrabadda təyyarə qəbiristanlığı

**İndiyədək elə təsəvvür yaradılırdı ki, İranın sərnişin aviasiyasında kiçik qüsurları nəzərə almasaq, bütün işlər qaydasındadır. Ölkənin sənaye və ticarət naziri Abbas Əliabadinin açıqlaması bu təsəvvürlərin üstündən xətt çəkib.**



O bildirib ki, Tehranın məşhur Mehrabad hava limanında onlarla nasaz və qüsurlu vəziyyətdə olan sərnişin təyyarəsi var. A.Əliabadi köhnəlmiş təyyarələrin sayının çoxluğuna istinad edərək deyib ki, limanda, sanki, "təyyarə qəbiristanlığı" mövcuddur.

Bundan əvvəl ölkə rəsmiləri də İran İslam Respublikasında həmin qəbildən olan aviasiyanın potensial gücünün, hələlik, 170 təyyarəni əhatə etdiyini vurğulayıblar. Aviasiya təşkilatının İranın daxili uçuşları keçirməsi üçün 550 təyyarəyə ehtiyacı var.

Əliabadi sözünün davamında ölkənin elmi müəssisələrinin problemin həlli ilə məşğul olmasını vacib sayıb.

**Hüseyn RƏHİMZADƏ**

# Zəncanlı Ayxanlar, Fatimələr

**Cari ilin (İran təqvimi ilə mart ayından iyuladək) ilk 5 ayında Zəncanda yeni doğulmuş oğlanlar üçün ən çox seçilən ad Ayxan olub. Sonrakı adlar belədir: Əmirabbas, Əmirəli, Hüseyn və Əmirhüseyn.**



Yeni doğulmuş qızlar üçün sıra ilə Fatimə, Mahlin, Zəhra, Reyhanə və Aysan adları daha çox seçilib. Həmin müddətdə Zəncan əyaləti üzrə 5 min 701 körpə doğulub.

Onu da bildirək ki, güney azərbaycanlılarda milli kimliyin müəyyənləşdirilməsi üçün körpələrə Azərbaycan adlarının, o cümlədən müasir hesab olunan Ayxan, Aysan, Elin, Elşən və əski çağlara söykənən Telnaz, Bağdagül, Tərlan kimi adların qoyulması diqqəti daha çox cəlb edir.

Məhz buna görə İranın hakim dairələri güney azərbaycanlılarda uşaqlara milli adların qoyulmasının qarşısını almaq məqsədilə qeydiyyat qurumlarına birbaşa rəsmi təlimat verib.

**G.RƏHMAN**

# Güneydə Milli Hökumətin mətbu salnaməsi




**Söhbət 1945–1946-cı illər Təbrizdə Milli Hökumət qurmuş Azərbaycan Demokrat Firqəsinin mərkəzi nəşri olmuş "Azərbaycan" qəzetindən gedir. Bu yazı isə konkret hadisənin, məsələnin, şəxsiyyətin, əsərin deyil, zəngin mövzular çələnginin səciyyələndirilməsinə həsr olunub..**

"Azərbaycan" qəzeti, həqiqətən, elə bir cəzbedici çələngdir ki, onun yolunu – surətinin çap edilməsini hamımız on illər boyu həsrətlə gözləmişik. Kiminsə özündə təpər tapıb onu arxivlərin girovundan qurtaracağının, geniş ictimaiyyətə təqdim edəcəyinin sorağında olmuşuq.

Artıq ümidlərimiz doğrulmaqdadır – bu zəngin salnamə hissə-hissə albom şəklində çap edilir. Alimlər, tədqiqatçılar, geniş ictimaiyyət, müxtəlif dövlətlərdə yaşayan insanlar tərtibçinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, İranlı Mühacirlər Cəmiyyətinin arxivində aylarla apardığı axtarışlarına verilən dəstəyin nəticələrindən bəhrələnməkdədirlər.

Azərbaycan Demokrat Firqəsinin (ADF) Təbrizdə nəşr olunmuş orqanı ilə tanışlıq üçün daha kiminsə arxivlərə baş çəkməsinə ehtiyac yoxdur. Bu məndə "Azərbaycan" qəzeti, Azərbaycan Demokrat Firqəsinin orqanı (1945–1946-cı illər, Təbriz)" kitabının IV hissəsi də artıq işıq üzü görüb. Burada 1946-cı ilin 5 sentyabr – 11 dekabr tarixlərini əhatə edən daha 80 sayın toplanması yarımçıq çevrəni qapayıb.

Sponsor – ABŞ-ın Şimali Koreya ştatında fəaliyyət göstərən "Azərbaycan Mədəniyyət Mərkəzi"nin Saratoga şəhərində keçirdiyi birinci cildin təqdimat mərasimində bu çoxcildliyin nəşri yüksək dəyərləndirilmişdi. Mərkəzin rəhbəri Həmid Azəri və tədbirin digər iştirakçıları növbəti cildləri də böyük intizarla gözlədiklərini qeyd etmişdilər. Artıq bu arzu gerçəkləşib.

Kitab nəsillərə yadigardır. Məziyyətlərinə varmazdan əvvəl fundamental işdə kimlərin adlarının keçdiyinə aydınlıq gətirilməsi mənəvi borcumuzdur. Söhbət konkret olaraq hansısa şəxsin reklamından getmir. Hesab edirəm ki, onların tanıdılması digər xeyirxah insanları da belə əməllərə kökləyə bilər. Təşəbbüs akademik Şahin Mustafayevə məxsusdur. O, bu təşəbbüsü 2015-ci ildə Şərqşünaslıq İnstitutunun "21 Azər-70" mövzusunda elmi-praktik konfransa hazırlıq çərçivəsində düzənlənən yığıncağında irəli sürmüşdü.

Akademik fikrini bununla əsaslandırmışdı ki, "Azərbaycan" təkcə xalqı 21 Azər Hərəkatının qələbəsinə qovuşduran Azərbaycan Demokrat Firqəsinin orqanı deyil, dövrünün bütün mütərəqqi qüvvələrinin, insanların, tanınmış şəxsiyyətlərinin tribunası olduğundan misilsiz salnamədir. Belə xüsusiyyətləri mətbu nəşrin Təbrizdə çıxmış bütün saylarının toplu şəklində çapını, ictimaiyyətin istifadəsinə verilməsini şərtləndirir.

Təklif institut rəhbərliyi tərəfindən bəyənildi, icraçı şöbə müdiri Səməd Bayramzadəyə həvalə edildi. Etimad şərqşünas və tarixçi alimin dövrə dərin bələdçiliyini təsdiqləyən çoxsaylı elmi-publisistik məqalənin, kitabın müəllifi, hərəkat iştirakçısının övladı, keçmiş diplomat olmasından, digər müsbət keyfiyyətlərindən qaynaqlanıb. Səməd müəllim vəzifəsinin icrasına məsuliyyətlə yanaşmışdır.

XX əsrdə "Azərbaycan"dan da əvvəl və sonra Avropada, Asiyada, Amerikada vətənpərvər, demokratik, mütərəqqi qüvvələrin yüzlərlə mətbu orqanı nəşr edilib. Əksəriyyəti tarixin yaddaşına qovuşub. "Azərbaycan" isə 78 ildir yol gəlir, yenə meydandadır, oxucuları onun hər sayını səbirsizliklə gözləyirlər. Nəyə görə sualının cavabı sadədir: "Azərbaycan" fəaliyyətə başladığı gündən məramına, məqsədinə sadiqdir.

Platformasının fövqündə "12 Şəhrivər" Bəyannaməsində, Azərbaycan Demokrat Firqəsinin proqramında ifadəsini tapan vəzifələrin, 21 Azər hərəkatı ideyalarının müntəzəm geniş təbliği dayandığından, missiyasını fasiləsiz yerinə yetirdiyindən varlığını, populyarlığını qoruyub saxlamaqdadır. Varislik onun Təbrizdən sonrakı saylarının da kitab şəklində çapını gündəmə gətirir.

Ötən əsrin birinci yarısı İranda, xüsusilə Cənubi Azərbaycanda inqilablar dövrü kimi xarakterizə olunur. Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi 21 Azər isə özündən əvvəlkilərin – Səttarxan, Şeyx Məhəmməd Xiyabani hərəkatlarının zirvəsi sayılır. Cəngəlilər hərəkatı, Məhəmməd Tağı Xan, Pesyan qiyamı da xalqa əsrlərlə arzusunda olduğu hüquq və azadlıqları bəxş edə bilməyib. Məhz bu baxımdan 21 Azər hərəkatının günümüzədək Qərbin, Amerikanın mürtəce fikirlilərinin, sapı özümüzdən olan "ideoloq"ların total şər, böhtan kampaniyalarının hədəfləri sırasında qalmasının səbəbi aydındır.

Bu öz yerində, əsl utancverici tendensiya budur ki, beləleri saxta fikirlərini sırımaq üçün eybəcər hala saldıqları parçaları, sitatları xəcalət çəkmədən "Azərbaycan" qəzetinin adına yazmaqdadırlar. Misallar çoxdur. Qətiyyətlə deyə bilərəm ki, "Azərbaycan" çörəyi saxtakarlıqdan, qəzetə qarayaxmalardan çıxanların kitabını bağlayacaq bir salnamədir.

Nəşr yanlışlıqları aradan qaldırmaq üçün özündə təpər tapanlara gör-götür, faydalanma imkanıdır. Prinsipial məsələlərdə isə məhz özümüz hərəkətə keçməli, xətaları kiminsə aylardan, illərdən sonra aradan qaldıracağına ümid etməməliyik. Başqalarına örnək olaraq ilk nümunəni özümüz ortaya qoymuşuq. Söhbət yazıçı, jurnalist, tədqiqatçı Firudin İbrahiminin 1946-cı ildə Təbrizdəki "Sovet Mədəniyyət Evi" tərəfindən çap edilmiş "Azərbaycanın qədim tarixindən" kitabından gedir. O vaxt bu qiymətli nəşr farscadan dilimizə tərcümə edilərək əski əlifba ilə buraxılıb.

(ardı var)

**Rəhim HÜSEYNZADƏ,**
**Əməkdar jurnalist**

# Suqovuşanda əbədiyyətə qovuşan hərbi həkim

**Şəhid Azər Elyas oğlu Şəmilov 1971-ci ilin 13 avqustunda Tərtər rayonunun Alışarlı (Qapanlı) kəndində dünyaya gəlib. Atası qonşu kənddə baş həkim, anası evdar qadın olub. Ailədə 6 uşaq olublar. Azər 8-ci sinfə qədər atasının işlədiyi kənddə – Söylən kənd orta məktəbində təhsil alıb.**



1986–88-ci illərdə Bakıdakı kimya-biologiya təmayüllü məktəbdə oxuyub. Dərs əlaçısı olmaqla yanaşı, yaxşı şahmat oynayar, yarışlarda uğur qazanarmış. Şahmatı hobbi hesab edib, arzusu isə atası kimi həkim olmaq imiş. Hətta birinci il balı Tibb Universitetinə çatmır. Bununla belə, BDU-nun kimya-biologiya fakültəsində təhsil almaq imkanı olsa da, getmir, “Mən həkim olacağam” – deyir.

Qarşıda isə hərbi xidmət vardı. Azər əsgərliyini Qazaxıstanda keçir, evə qayıdanda görür ki, anası dünyasını dəyişib, ona xəbər verməyiblər. Ana itkisinin ağırlığından özünə gəlməmiş, ana Vətən itkisinin təhlükəsi onu müharibəyə səsləyir.

Beləcə, qismətinə müharibə düşür. 1991–1994-cü illərdə Birinci Qarabağ savaşında iştirak edir. Həkim olmaq arzusu yalnız atəşkəsdən sonra, 1994-cü ildə Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olanda reallaşır. 2000-ci ildə universiteti uğurla bitirdikdən sonra Naxçıvan şəhərinə hərbi qulluğa çağırılır. Bu dəfə həkim kimi ordudan baş leytenant rütbəsi ilə qayıdır. Yalnız ondan sonra Tərtərə gəlir və atasının bir vaxtlar baş həkim olduğu Söylən tibb məntəqəsində eyni vəzifədə fəaliyyətə başlayır...

Hekayənin bu yerində söhbəti onun həyat yoldaşı – kimya-biologiya müəllimi, Bərdə rayonu Kələntərli kənd orta məktəbinin təlim-tərbiyə üzrə direktor müavini Səidə xanım davam etdirir:

– Sentyabrın 27-si Vətən müharibəsi başlananda atəş səslərindən anladıq həqiqəti. Çox ağır günlər yaşadıq, həm Azərdən nigaranlıq, həm özümüzün, uşaqlarımın burada, Bərdədə təhlükə altında olması çətin sınaq idi. Arada telefonla danışırdıq. Oktyabrın 13-ü zəng eləmişdi, 3 dəqiqə danışdıq. Başladı mənə tapşırıqlar verməyə, dedim, yox, özün gəlib eləyərsən o işləri. Dedi, həyatdır, bilmək olmaz, hər ehtimala qarşı deyirəm. Uşaqların təhsilindən nigaranlığı vardı, dəfələrlə deyirdi uşaqlar dərsdən qalmasın.

Oktyabrın 14-ü zəngini gözlədik, gəlmədi. Axırda dedim, oğlum, atanı axırıncı dəfə yığdığı nömrəni yığ, gecə saat 12 idi. Dedilər, özü yığar sizi. Səhəri gün qardaşım zəng elədi ki, Azər şəhid olub. Dünya başıma fırlandı. Yolu necə gəldik, bilmədik… Allah heç kimə göstərməsin.

Bunları isə oğlu Fədayət danışır:

– Həkim yoldaşının sözlərinə görə, atam yüzlərlə əsgəri döyüş meydanından çıxarıb və ilkin tibbi yardım göstərib. Əsgərlər belə onun qorxmaz olduğunu deyirdilər. Heç kimin getmədiyi yerlərə atam özü sürünə-sürünə gedib və yaralılara ilkin yardım göstərib. Şəhid olmamışdan əvvəl bir neçə dəfə yanlarına “Qrad” mərmisi düşüb və yaralanıb. Amma xidmətini dayandırmayıb. Bu barədə mən sonra bilmişəm, yaralandığını evdə deməmişdi. Döyüş yoldaşı deyir ki, atam oktyabrın 14-də saat 11-12 radələrində qucağında yarasını sarıdığı əsgərlə birlikdə şəhid olub.

Qızı Aynurə Şəmilova bu il yüksək balla imtahan verib, universitet seçib. İnanır ki, atasının ruhu şaddır: “Həmişə bizim oxumağımızı istəyirdi. Müharibədə olanda telefonla danışırdıq, bizə təskinlik verirdi ki, düşməni məhv edib qayıdacam. Qayıtmadı, amma mən onu həmişə yanımda hiss edirəm”.

Azərbaycan Ordusunun tibb xidməti leytenantı Azər Şəmilov Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Yaralı hərbçiləri döyüş meydanından çıxarıb, canını Vətənə fəda edib. Suqovuşanda şəhid olub. Bərdə rayonunun Kələntərli kəndində dəfn edilib.

Azər Şəmilov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

İndi Tərtər rayonunda bir küçə Azər Şəmilovun adını daşıyır.

***R.QURBANLI***
***XQ***

# Qorxubilməz döyüşçü, qeyrətli ər

**Azərbaycan Silahlı Qüvvələri tərəfindən 19–20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhid olan hərbçilərimizdən biri də leytenant Fizuli Bəhruz oğlu Məmmədovdur.**



Füzuli1989-cu il aprel ayının 4-də Göygöl rayonunda anadan olub. Samux rayon Qovlar kənd tam orta məktəbini bitirib. Sonra Azərbaycan Dövlət Aqrar Universitetində ali təhsil alıb. Müddətli hərbi xidmətini Füzuli rayonunda keçib. Sərrast atıcı olub. Hərb işinə həvəsi böyük olduğu üçün 2016-cı ildən orduda xidmət etməyə başlayıb. 2020-ci ildə 44 günlük Vətən müharibəsində sonadək vuruşub, Laçında yaralanıb. Zəfər yürüşündən sonra "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü", eləcə də Cəbrayılın, Füzulinin, Xocavəndin və Kəlbəcərin azad olunmasına görə medalları ilə təltif edilib. Müharibədən sonra zabit kimi xidmətini davam etdirib.

Bu il 19–20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri zamanı isə hərbi hissə qarşısına qoyulmuş tapşırığı yerinə yetirən zaman şəhidlik zirvəsinə ucalıb.

Həyat yoldaşı Günel Məmmədova ilə əlaqə saxladıq. Hüznlü olduğundan özünü ələ alıb bunları deyə bildi:

– Füzulinin təyinatı Qusar rayonuna verilmişdi, orada qulluq edirdi. Mən də əkiz qızlarımla orada qalırdım. Səhər qızları məktəbə aparmışdım, qayıdanda bəd xəbəri Füzulinin hərbçi dostunun həyat yoldaşından aldım. Xanım ehtiyatla bildirdi ki, deyirlər, Füzuli yaralıdır. Tez qardaşımın telefon nömrəsini yığdım, o da araşdırıb öyrəndi ki, Füzuli artıq şəhid olub.

Rəhmətlik 12 gün əvvəl təlim adı ilə evdən çıxmışdı. Həmişəki kimi demişdi ki, narahat olmayın. Hər dəfə Vətənin qulluğuna çıxanda dediyi bir fikir də vardı: “Vətən mənlikdir, övladlarımız isə sənlik! Allaha əmanət ol ki, balalarımın yanında olasan, onlara yaxşı baxasan". 44 günlük Vətən müharibəsində əlimiz göydə idi, hər dəqiqə Allaha dua edirdik ki, sağ-salamat qayıdıb gəlsin. Onda qayıdıb gəldi, amma bu dəfə... Əsl igid, qeyrətli ər idi mənim həyat yoldaşım. Ailəsi həmişə onunla fəxr edəcək.

***Humay İSGƏNDƏRLİ***

**Bu hekayət nur üzlü bir şəhidimiz haqqındadır. Qəhrəmanım bir payız günündə ağ durnaların köçünə qoşulub Qarabağın könlündən keçməyə yollanan Sənan Səmədlidir.**

Körpəliyindən vətən, yurd sevdası vardı onun canında. Məktəb yaşlarında tez-tez fəxrlə Ulu öndərin “Mən azərbaycanlıyam” ifadəsini söyləyirmiş. Sənan 1997-ci ildə Yevlax rayonunun Kolanı kəndində anadan olmuşdu. Kövər kənd tam orta məktəbini bitirdikdən sonra hərbi xidmətini Naxçıvanda keçmiş, təşəkkürnamə də almışdı. Əsgərlikdən qayıdandan sonra 6 ay müxtəlif işlərdə çalışsa da, gözü-könlü hərbçi geyimində olan gənclərə həsədlə baxır, arzu edirdi ki, o da həmişəlik Vətənin müdafiəçisi olsun. Elə bu istəklə də Bakıda gizirlik kursuna daxil oldu, oranı bitirib təyinatla Ağdamdakı “N” saylı hərbi hissəyə göndərildi.



# Mahir topçu Sənan

Sənan topçular diviziyasında 152 mm-lik 2S3M özüyeriyən artilleriya qurğusunun 5 nəfərlik heyətinə rəhbərlik edib. Müharibədən üç ay qabaq geçə-gündüz Goranboyda təlim keçib. Müqəddəs dava başlayan gün Sənan Tərtərin Dəmirçilər kəndində döyüşlərə girib. Ağdərə, Suqovuşan, Talış, Murov istiqamətində gedən şiddətli döyüşlərdə igidliklə vuruşub, düşmən hədəflərini sərrast atəşlərlə zərərsizləşdirib.

Batareya komandiri, baş leytenant Arif Həsənli Sənan haqqında qürurla, heyrətlə danışır: “Peşəkar idi, düşmən hədəflərini bir-bir məhv edirdi. Çox savadlı gizir, baçarıqlı top komandiri idi. Hamının hörmətini qazanmışdı Sənan. Şəhidliyindən bir neçə saat əvvəl düşmənə məxsus komanda nöqtəsini sərrast atəşlə vuraraq bir erməni polkovnikini məhv etdi. Döyüş zamanı hansısa hədəfə yalnız bir dəfə atəş açmaq imkanımız yaranırdısa, onu yalnız Sənana etibar edirdik. Hədəfi son dərəcə dəqiq nişan alıb məhv edirdi”.

Sentyabrın 30-da növbəti döyüş tapşırığını yerinə yetirərkən komandir Sənan Səmədli, sürücüsü, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Füzuli Süleymanov, əsgərlər Asif Ataşov, Qüdrət Adışov və Səməd Hüseynzadə qəhrəmancasına şəhid olublar. Beş ailənin çırağı sönüb, arzuları külə dönsə də, Vətən torpağının mühüm məntəqələri azad edilib. Sənan oktyabrın 2-də canından çox sevdiyi torpağa tapşırılıb.

Ömrünün bahar fəslini yaşayan igidimiz xalası qızı ilə nişanlı idi. Müharibə bitən kimi evlənəcəkdilər. Arzu edirmiş ki, oğul övladı olsa, adını Azad qoysun. Heyf ki, onun qönçə arzuları gül açıb pardaxlanmadı. Atası Fikrət kişi 60 yaşındadır, hər bir ata kimi oğul toyu görmək onun ən böyük arzusu idi. Bu gün şəhid atası gözü yaşlı olsa da, Sənanın qəhrəmanlığı haqqında eşidəndə iftixar hissi keçirir, başını uca tutur.

Anası Zabilə xanımın gilə-gilə yaşı donub gözlərində: “Balam tez-tez zəng vururdu, elə danışırdı ki, guya müharibədə yox, adi təlimdədir. Amma hər dəfə də elə bil ki, məni şəhidliyinə hazırlaşdırırdı. Ana, bax ha, mənə nəsə olsa, üzülmə, təki Vətən sağ olsun, başını dik tut, – deyirdi. Şəhid olduğu gün saat 3-də yenə zəng vurdu. Sən demə, balam vidalaşırmış bizimlə. Müharibə arzularımı gözümdə qoydu. Sənanımın rəngi solmayan qırmızı lentli xonçalarını məzarına düzmüşəm. Sənan nişanlısına belə vəfasızlıq etməzdi, onu gözü yaşlı qoymazdı...”

Şəhidin qardaşı Tariyel ondan 2 yaş kiçikdir. “N” saylı hərbi hissədə mülkü işdə işləyir. Ən kiçikləri Elnurdur, “Sənanla fəxr edirəm, amma yoxluğuna dözə bilmirəm”, – deyir o da.

Döyüş yoldaşları tez-tez ailəni ziyarət edirlər. Baş leytenant Arif Həsənlinin dediyinə görə, onlar – sağ qalan döyüşçülər Sənanın və digər şəhid qardaşlarının xatirəsinə mahnı yazdırıblar. Çünki şəhidlərin yurd sevgisi daha güclü çıxıb və onlar sevdalı ürəklərini Vətənə sipər ediblər.

Bir sabah yenə sizə getdim Sənangilə getdim. Şəhadətinin ildönümü idi. Bəzəkli çarpayısı gül-çiçək içində idi və sonsuzdək belə qalacağına əmin oldum. Həyətdəki ağacların budaqları meyvələrin ağırlığından yerə dirənirdi. Ovqat üçün: – Nə gözəl bar verib ağaclarınız, – dedim. Qardaşı astadan cavab verdi ki, Sənandan sonra anam heç bir meyvənin dadına baxmayıb, Sənan nübar etməyib axı...

Öz şəhid izini torpağa salan Sənan Səmədli ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub. Bu gün onun da, Qarabağı Azərbaycan edən bütün şəhid balaların da ruhları şaddır! Çünki suverenliyimiz tam bərpa olunub.

***Əminə YUSİFQIZI,***
***Yevlaxda çıxan***
***“Kür” qəzetinin baş redaktoru,***
***Əməkdar jurnalist***

# Dastan danışan muzey

**Burada hər bir eksponat qəhrəmanın həyatının bir parçasını təşkil edir, onun haqqında hekayət danışır. Seyrçilər həm qürurlanır, həm də həzin duyğulara qərq olurlar.**



Söhbət Xüsusi Təyinatlı Qüvvələrin kapitanı, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Rəşad Abdullayevin Cəlilabad rayonunun Göytəpə şəhərində yaradılmış Ev-muzeyindən gedir. Burada yaranan təəssüratlar o əminliyi möhkəmləndirir ki, qəhrəmanlar, həqiqətən də, ölmürlər, yurdu yaşatmaq üçün canlarını qurban etdikləri üçün yurd da onların xatirəsini əziz tutur. İnişil Cəlilabad şəhərindəki 2 nömrəli tam orta məktəbə Rəşad Abdullayevin adı verilmişdi. İndi isə doğulub boya-başa çatdığı Göytəpə şəhərində Ev muzeyi açılıb.

Rəşad Abdullayev 14 sentyabr 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. Hələ uşaqlıqdan oradakı zastavaya gedib-gələn sərhəd dəstəsinin şıq geyimli hərbçilərinə həsədlə baxıb, özü də hərbçi olmağı arzulayıb. Nəhayət, arzusuna çatıb. 15 yaşının tamamında Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul edilib. Üç il sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və oranı “Motoatıcı” ixtisası üzrə bitirərək ömrünü-gününü Vətən keşikçisi kimi mənalandırıb. 2012-ci ildə Xüsusi Təyinatlı Qrupun komandir müavini vəzifəsinə təyin olunub.

Yeddi il əvvəl məlum Aprel döyüşləri zamanı Rəşad Abdullayev "N" saylı hərbi hissənin komandir müavini kimi döyüşlərdə yaxından iştirak edib. İlk gündən öz dəstəsi ilə mühasirəyə düşsə də, necə deyərlər, ruhdan düşməyib və qorxmazlığı, döyüş taktikalarına bələdliyi, hərbçi məharəti sayəsində mühasirədən çıxmağı bacarıb. Ermənistan ordusunun neçə-neçə-əsgər və zabitini məhv edib. Uğurlu döyüş əməliyyatları sayəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 3 kilometrliyində olan əlverişli mövqelərin, strateji nöqtələrin, o cümlədən Lələtəpə zirvəsinin işğaldan azad olunmasında Azərbaycan Ordusunun igid zabiti kimi xidməti olub.



Vətən müharibəsinin ilk günündən döyüşlərə atılan kapitan Rəşad Abdullayev cəmi 3 gün vuruşub. Amma dastanlara sığmayan hünər göstərib. Murov dağına öz hərbi dəstəsi ilə ilk ayaq basan, öndə gedərək 34 erməni postunu alan, Murova Azərbaycan bayrağını birinci sancan, düşmənlə üzbəüz vuruşub sinəsindən yaralansa da, daha 20 saat vuruşan da Rəşad olub. Onu təxliyə etmək istəyən hərbçi yoldaşlarının əziyyətinə qıymayaraq irəli getmələrini əmr edib və elə Murovdaca şəhadətə qovuşub.

Ölümündən sonra kapitan Rəşad Abdullayevə “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Həmçinin ölkə başçısının sərəncamları ilə o, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qəhrəmanın 35 yaşında Göytəpədə Ev-muzeyinin açılış mərasimində Cəlilabad Rayon İcra Başçısının müavini Nazim Şükürov çıxış edərək Rəşad Abdullayevin və Vətən uğrunda canlarından keçən digər şəhidlərimizin qanının yerdə qalmadığını Zəfər yürüşünün çox böyük uğurla başa çatdığını bildirib. Tədbirdə dövlətimizin şəhid ailələrinə, qazilərə, bütün müharibə iştirakçılarına hər zaman böyük diqqət və qayğı göstərdiyi vurğulanıb.

Tədbirdə şəhid kapitan Rəşad Abdullayevin həyat və döyüş yolundan, göstərdiyi qəhrəmanlıqdan ətraflı bəhs edilib. Onun atası Arif Abdullayev övlad itkisinin çətin olduğunu desə də, şəhidlərin adının daim urvatda tutulmasının onlara böyük təskinlik olduğunu söyləyib. O, ev-muzeyinin təşkilində göstərdikləri dəstəyə görə Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısına təşəkkürünü bildirib.

...Muzeyi bəzəyən təltiflər, eksponatlar hələ atəşkəs dövründə Rəşadın Vətənə necə nümunəvi xidmət etdiyindən, xarici ölkələrdə XTQ kurslarının, o cümlədən Türkiyədə keçirilən “TurAZ Qartalı” paraşut təlimlərində fəal iştirakından, ən ağır anlarda belə, ölümün gözünə dik baxmasından soraq verir. Məktəblilər tez-tez bura ziyarətə gəlirlər. Muzeydə keçən unudulmaz dəqiqələr onlar üçün əsl vətənpərvərlik dərsi olur.

***Əli ƏLİYEV***
***XQ***

Teymur Kərimli – 70

# Klassik ədəbiyyatın müasir tədqiqatçısı

**Prezident İlham Əliyevin sərəncamı ilə Teymur Həşim oğlu Kərimli Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib. Görkəmli ədəbiyyatşünas, klassik ədəbiyyatımızın məhsuldar tədqiqatçısı 70 yaşının tamamına filologiya elmləri doktoru, professor, akademik, Dövlət mükafatı laureatı kimi gəlib çatıb.**

Teymur Kərimli yaradıcılığa şair kimi başlayıb və buna görə də şeiri, xüsusən klassik poeziyanı duymaq qabiliyyəti yüksəkdir. Onun elmi maraq dairəsi çox genişdir. Nizami, Nəsimi, Füzuli, Cavid, Şəhriyar və bir çox başqa klassiklərimizin, eləcə də çağdaş sənətkarlarımızın yaradıcılığına dair dəyərli tədqiqat işlərinin müəllifidir.



Teymur Həşim oğlu Kərimli 1953-cü il oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Nürgüd kəndində anadan olub. Orta məktəbi qızıl medalla bitirib. Ali təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində alıb. Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında oxuyub və 1983-cü ildə "Nizamidə tarixin romantik qavrayışı ("Yeddi gözəl" poeması üzrə)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Onun 2003-cü ildə müdafiə etdiyi "Nizami yaradıcılığında tarixi şəxsiyyət və tarixi hadisə ideya-estetik qayənin konteksti və yardımçısı kimi" mövzusundakı doktorluq dissertasiyası elmi ictimaiyyətin böyük marağına səbəb olub.

Akademik İsa Həbibbəyli haqlı olaraq yazır: "Teymur Kərimlinin Nizami Gəncəviyə aid tədqiqatlarında bu böyük sənət dühasının əsərləri onun özünəqədərki tarixlə və öz dövrünün tarixi hadisələri və şəxsiyyətləri ilə birlikdə öyrənilmişdir. T.Kərimli qüdrətli sənətkar olan Nizami Gəncəviyə də dahi şair olmaqdan başqa, həm də böyük tarixi şəxsiyyət kimi yüksək qiymət vermişdir".

Alim 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2015-ci ildə həqiqi üzvü seçilib. 2010-cu ildə "Heydər Əliyev və klassik ədəbiyyat" araşdırmasına görə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı olub. Otuz ildən artıq AMEA Ədəbiyyat İnstitutunda çalışan alim institutun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, direktor müavini vəzifələrində çalışıb, iki dəfə bu elmi-tədqiqat müəssisəsinin direktoru vəzifəsini icra edib. O, 2015-ci ildən Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktorudur.

Nizaminin həyatı və yaradıcılığı, Nizami dövrü intibahı problemi T.Kərimlinin ədəbiyyatşünaslıq araşdırmalarında mərkəzi yer tutur. Onun bu istiqamətdəki araşdırmaları 2002-ci ildə "Elm" nəşriyyatında çap etdirdiyi "Nizami və tarix" monoqrafiyasında əksini tapıb (Kitabın redaktoru AMEA-nın müxbir üzvü Yaşar Qarayev olub). Monoqrafiyada Nizaminin yaradıcılığında tarixə münasibətə dair araşdırmalardan kənarda qalmış geniş spektrdə problemlər nəzərdən keçirilir. "Xəmsə"nin yazıldığı tarixi şərait, Nizami yaradıcılığında antropomorf cizgilər kəsb edən Tanrı obrazı, Məhəmməd peyğəmbərin obrazı, tarixi şəxsiyyət və dini ideal, Nizaminin məmduhları, "Xəmsə"də tarixi şəxsiyyət və mühit, hökmdar surətlərinin tarixi təkamülü, "Xəmsə" poetikasının tarixi rolu kimi məsələlər təhlil edilir.

Ədəbiyyatşünas-alim dahi şairin tarixə özünəməxsus münasibəti barədə yazır: "Nizaminin tarixə müraciət özəlliklərindən biri də tarixi şəxsiyyət və tarixi hadisəni öz ideya-estetik qayəsinə tabe etdirmək bacarığındadır. Belə demək mümkünsə, Nizami tarixin, tarixi qaynaqların yedəyində getmir, tarix, tarixi qaynaqlar Nizami sənətinin yedəyində gedir".

Teymur Kərimli Nizaminin Azərbaycan türkü olduğunu hər vəchlə inkar etməyə çalışan, onu fars və ya ləzgi kimi təqdim etmək istəyən "araşdırıcıların" qeyri-elmi fikirlərinə tutarlı dəlillərlə cavab verən alimlərimizdəndir. Əsərlərində o, dahi şairin irsində tarixi hadisələrin bədii əksinin milli məqsədlərə xidmət etdiyini sübut etmiş, Nizaminin türklərə və türklüyə rəğbətinin onun etnik mənsubiyyəti ilə bağlı olduğunu göstərmişdir. "Nizami və tarix" monoqrafiyasında tədqiqatçı belə bir qənaətə gəlir ki, Nizamidən sonra cismani və mənəvi cəhətdən gözəl insanı "türk" adlandıran bir sıra farsdilli şairlər məhz Nizamidən nümunə götürmüşlər. Teymur Kərimli Nizaminin mədh etdiyi ilk hökmdarın ("Sirlər xəzinəsi" poemasında) – Ərzincan hakimi Fəxrəddin Məlik Bəhram şah ibn Davudun türk olduğunu da təsadüf hesab etmir. Şairin türk olan Səlcuqlulara münasibəti də alimin nəzərindən qaçmayıb.

Akademik Bəkir Nəbiyevlə onun birgə yazdığı "Türkofobiyanın növbəti residivi" adlı məqalədə istinad olunan faktlardan görünür ki, Nizaminin əsərlərində öz doğma xalqına – türk etnosuna böyük məhəbbəti olub. Nizaminin türklərə məhəbbəti bir də onda özünü büruzə verir ki, şair yaratdığı müsbət monumental obrazların əksəriyyətini ya türk kimi təsvir edir, ya da onların müsbət insani sifətlərini türklərlə müqayisə edir.

Akademik Teymur Kərimli həm də görkəmli füzulişünasdır. Onun tədqiqatlarında Məhəmməd Füzuli irsinin bir sıra araşdırılmamış problemləri, diqqətdən kənarda qalmış məsələləri nəzərdən keçirilir. Elə Füzuli yaradıcılığına dair araşdırmalarından ibarət kitabını da alim "Görünməyən Füzuli" adlandırıb. O, haqlı olaraq hesab edir ki, Füzulinin böyük sənət möcüzəsini açmaq, onun bədii obrazlarını, kəşflərini, yaradıcılığının görünməyən tərəflərini müasir oxuculara çatdırmaq vacib məsələlərdəndir. Axı, mənəvi-əxlaqi dəyərlərimizin qloballaşma ilə qarşı-qarşıya durduğu indiki vəziyyətdə ən böyük və etibarlı istinad nöqtələrimizdən biri də bu dahi şairimizin zəngin irsidir.

Tədqiqatçı böyük şair haqqında yazır: "Şeirə cila verərkən Füzulinin işlətdiyi poetik təsir vasitələrindən biri gözlənilməzlik effektidir. Bunun təsir mexanizmi ondan ibarətdir ki, klassik poeziyaya bələd olan oxucu beytin birinci misrasından sonra hansı fikrin, obrazın gələcəyini təxmin edərək gözləyir. Lakin tamamilə başqa, daha gözlənilməz, təsirli fikir, yaxud obraza rast gəldikdə əvvəlcə çaşır, sonra isə estetik ləzzət və razılıq hissi keçirir. Ancaq bu gözlənilməzliyi, Füzuli, necə dəyərlər, oxucunun önünə qızıl nəlbəkidə qoymur. Bəzən oxucu həmin mənaya varmaq üçün xeyli düşünməli, baş sındırmalı olur".

Beləliklə, Nizami yaradıcılığında tarixiliyi tədqiq edən Teymur Kərimli Füzulinin yaradıcılığında da tarixilik mövzusunu araşdırıb, "Fərdin tarixiliyi və Füzuli "Leyli və Məcnun"unda tarixilik" adlı çox maraqlı məqalə yazıb.

T.Kərimli dahi şairimiz İmadəddin Nəsiminin 650 illiyinə və "Nəsimi İli"nə həsr olunmuş "Çağdaşımız Nəsimi" kitabında dahi sənətkarın ölməz yaradıcılığının çağdaş əhəmiyyətindən bəhs edib, onun irsinin bu günümüz üçün, xalqımız və ümumilikdə bəşəriyyət üçün aktuallığına nəzər salıb. Alim əsas diqqətini sufizm və hürufizm ideologiyasından xaric Nəsimi humanizminin araşdırılmasına yönəldib, şairin lirikasını klassikin müasirliyi prizmasından nəzərdən keçirib. Monoqrafiyada Nəsimi irsinin nəşri və təbliğinin möhkəm özülünü ucaltmış Ümummilli lider Heydər Əliyevin bu sahədəki müstəsna fəaliyyəti yüksək qiymətləndirilib.

Yeri gəlmişkən, akademikin Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və "Heydər Əliyev İli" münasibətilə nəşr olunmuş "Heydər Əliyev və klassik irs" adlı monoqrafiyasında Ulu öndərin Azərbaycan yazılı abidələrinə, ələlxüsus əlyazma irsimizə qayğısı, onun Respublika Əlyazmalar Fondunun xüsusi elmi tədqiqat institutu statusu almasında və müəssisənin maddi-texniki bazasının yüksəldilməsindəki rolu və başqa xidmətləri xüsusi vurğulanıb.

Teymur müəllim həyatını klassik ədəbiyyatın araşdırılmasına həsr etmək qərarına gəlmiş gənclərin tədqiqatçı kimi yetişməsinə xüsusi fikir verir, onlara qayğı ilə yanaşır. Klassik Azərbaycan ədəbiyyatının yorulmaz araşdırıcısına 70 yaşının tamam olduğu bu günlərdə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Paşa ƏLİOĞLU,*
*filologiya elmləri doktoru,*
*AMEA Əlyazmalar İnstitutunun*
*icraçı direktoru*

# Xəbərlər

***Moskvada Murtuza Bülbülün dirijorluğu ilə Dövlət Kreml Orkestrinin ifasında "Müəllimlər və şagirdlər" adlı konsert proqramı təqdim olunub.***



Şəhərin mərkəzində yerləşən "Zaryadye" salonunda baş tutan konsertdə dahi bəstəkarlar Qara Qarayev (Üçüncü simfoniya), Dmitri Şostakoviç (Kamera simfoniyası), Georgi Sviridovun (Kamera orkestri üçün musiqi) əsərləri səslənib.

Murtaza Bülbül müəllif konserti ilə Dmitri Şostakoviç bəstəkarlıq məktəbinin ardıcıllarından biri olan Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin yaradıcılığına bir daha müraciət edib, Azərbaycan klassik musiqisinin dünyada tanıdılması işinə öz töhfəsini verib.

Qeyd edək ki, Murtaza Bülbül dahi müğənni Bülbülün nəvəsi, Azərbaycanın Xalq artisti, ölkəmizin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun oğludur. O, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının opera-simfonik dirijorluğu fakültəsinin tələbəsidir. Gənc dirijor Azərbaycan, Rusiya, Almaniya, İtaliya, Qazaxıstan və bir çox digər ölkələrdə uğurlu çıxışları ilə yadda qalıb.

***

***Tbilisidəki Heydər Əliyev Parkında yaradılan Azərbaycan guşəsində ölkəmizin milli mədəniyyəti, incəsənəti, musiqisi və mətbəxi nümayiş etdirilir.***




Nümayiş hər il Gürcüstanda "Tbilisoba" şəhər bayramı çərçivəsində Tbilisi sakrebulosunun Milli Azlıqlar Şurasının təşəbbüsü ilə "Tbilisinin müxtəlifliyi" adlı ənənəvi sərgi-satış yarmarkası zamanı baş tutur.

Yarmarkada Azərbaycan guşəsi Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin təşkilatçılığı ilə yaradılıb. Muzeyin direktor müavini Leyla Əliyeva bildirib ki, Azərbaycan güşəsinə gələn qonaqlar tarixi Borçalı xalçalarını, ölkəmizin mətbəxinə aid şirniyyatları, dolma, aşqara, dovğa və digər isti yeməkləri, eləcə də milli musiqi alətlərimizi görə biləcəklər. Yarmarkada iştirak etməyin əsas məqsədi Azərbaycanın tarixini, mədəniyyətini tanıtmaqdır.

***

***Daş Salnamə Muzeyində 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Bakıya gələn məşhur israilli yazıçı və tarixçi Yuval Noah Hararinin oxucularla görüşü keçirilib.***

Yuval Noah Harari tədbir iştirakçılarının müxtəlif mövzularda suallarını cavablandırıb.

İsrailli yazıçı, tarixçi "Sapiens: bəşəriyyətin qısa tarixi", "Homo Deus: sabahın qısa tarixi", "21-ci əsr üçün 21 dərs"




kimi bestsellerlərin müəllifidir. Onun kitabları 65 dildə 45 milyon nüsxə satılıb.

Y.N.Harari hazırda Qüds Yəhudi Universitetinin müəllimidir. Onun son mühazirələri süni intellektin sürətli inkişafı və onun cəmiyyətə potensial təsirləri barədə, tədqiqatları isə "Tarix və biologiya arasında hansı əlaqə var?", "Tarix öyrənildikcə insanlar daha çox xoşbəxt oldularmı?", "XXI əsrdə elm və texnologiya hansı məsələləri gündəmə gətirir?" kimi makro tarixi suallar ətrafındadır.

***

***Sumqayıt şəhər Poeziya Evində 4 saylı Diyarşünaslıq Klubu və Əli Kərim adına Poeziya Klubunun birgə təşkilatçılığı ilə "Qəlblərdə yaşayan qəhrəmanlar" adlı tədbir keçirilib.***



Əvvəlcə 4 saylı Diyarşünaslıq Klubunun rəsm dərnəyi üzvlərinin sərgiyə qoyulmuş vətənpərvərlik motivli əl işləri tədbir iştirakçıları tərəfindən baxılıb və yüksək dəyərləndirilib.

Şair İbrahim İlyaslı tədbiri açıb. Qonaq qismində dəvət olunmuş Birinci Qarabağ müharibəsi iştirakçısı, şair Ədalət Nicat və İkinci Qarabağ müharibəsi iştirakçısı, gənc şair Elvin İntiqamoğlu məktəblilərin sualları əsasında müharibə ilə bağlı xatirələrini bölüşüb, vətənpərvər şeirlərini səsləndiriblər.

***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

# Bədənində qəlpə gəzdirən aktrisa

**Onunla tanışlığım işğaldan sonra Şuşa Teatrının Bakıda nümayiş etdirdiyi tamaşalardan birində oldu. Qarabağ mövzusunda tamaşanın sonunda baş rollardan birini oynayan aktrisa roldan çıxa bilməyib "təzim"ə gələndə də tamaşanın final səhnəsini oynayırdı, yəni hönkür-hönkür ağlayırdı. Tamaşaçılar da ona qoşulub həm ağlayır, həm də aktrisanı alqışlayırdılar. Beləcə, həmin canlı rol xəyalımda həkk olunub qaldı.**

Qoy, bu yazım da elə onun özü haqqında oynadığı bir monotamaşa olsun. Özü danışsın, mən isə yalnız onu təqdim edim. Həmsöhbətim Xalq artisti, Şuşa Teatrının aktrisası Şükufə Musayevadır. Görək, nə deyir:



## Evin 9-cu övladı

"Uşaqlığım Bərdədə keçib. Ailədə 9 uşaq olmuşuq, mən ən kiçiyiyəm. 3 yaşımda ikən anamı itirmişəm. Avtomobil qəzasına düşmüşdü, halı pis idi. Yadımdadır ki, anam hamımızı yanına çağırtdırıb vidalaşdı bizimlə. Atam tez bir zamanda evləndi, 9 uşağa təkbaşına baxmaq asan deyildi. Ögey ana baxırdı bizə, desəm, baxmırdı yalan olardı, amma doğma deyildi.

Məktəbdə uşaqlar analarından danışanda mən söhbətdən yayınırdım, içimdə bir yanğı hiss edirdim. Kimisə anası ilə görəndə ona qibtə edirdim. Zaman keçdi, bacı-qardaşlarımın hamısı böyüdü, hərə öz yolunu seçdi. Böyük qardaşım müğənni idi, uzun illər Teleradionun solisti olub. Rəhmətə gedib, bir bacım da həmçinin.

Orta məktəbi Bərdədə bitirib Şuşada Mədəni-Maarif Texnikumuna daxil oldum. Hələ 4-cü sinifdə oxuyanda bir inşamda yazmışdım ki, kinoaktrisa olacağam. Müəllimim oxuyub gülümsədi və soruşdu ki, qızım, qoyacaqlar səni aktrisa olmağa? Bilmirəm, – demişdim. Filmlərə çox baxırdım. Bütünlüklə bu sənət məni ovsunlamışdı. O vaxt məktəbdən bizi pambıq yığmağa aparmışdılar. Məktəblilərə qoyulan normadan artıq pambıq yığmışdım. Briqadir mənə təəccüblə baxıb dedi ki, bu o qədər pambığı necə yığıb, axı, pambıqçıdan çox aktrisaya oxşayır. Ürəyimə yağ kimi yayılmışdı onu sözləri".

## Çəhrayı dünyanın sonu

"Texnikumda tələbə ikən artıq Şuşa Mədəniyyət evində tamaşalarda oynayırdım. Şuşa Teatrının tarixi qədimdir, 1948-ci ildə bağlanıb, 90-cı ildə yenidən bərpa edilib. Teatr bərpa olunandan sonra tamaşalarda maraqlı rollarım olub. Uşaq rolundan tutmuş əsas obrazlara qədər oynamışam. Şıxəli Qurbanovun "Özümüz bilərik" tamaşasında Nailəni oynadığıma görə Şuşada hamı məni Nailə deyə çağırırdı. "Uzun Həsən" tamaşasında Trabzon gözəlini də oynamışam, Dəspinə Xatunu da. Cavan yaşımda "Arşın mal alan" musiqili komediyasında Tellini, Asyanı, Cahan xalanı oynamışam. Hamısı mənə əzizdir.

Uşaqlığım anasız keçsə də, sonradan düşdüyüm mühit, kollektiv çox gözəl olub. Sanki nağıllar aləmi idi. Çəhrayı arzularla yaşayırdıq, hər şey gözəl görünürdi gözümüzə...

Amma müharibə arzularımın üstündən qara xətt çəkdi. Həyatda haqsızlığı yalnız ermənilərdən gördüm. Bəlkə buna görə bu hadisələr məndə bu qədər ağrılı təsir buraxdı. Müharibə bütün həyatımı alt-üst etdi. Ən gözəl, gənc yaşlarımda müharibəyə urcah oldum. Özümdən asılı deyildi, kənarda qala bilmədim.

Torpaqlarımızın düşmən işğalında qalmasını həzm edə bilmirdim. Bir dəfə cəbhə bölgəsinə qastrola getmişdik. Uca dağlara baxıb göz yaşlarımı saxlaya bilmədim. Qəti barışa bilmirdim ki, o dağlara ayaq basa bilmirik. Eyni hisslər məni müharibəyə aparmışdı. İkinci Dünya müharibəsini kinolarda görmüşdük. Uşaqdan-böyüyə hər kəsin bacardığı qədər müharibəyə qatıldığını, Vətənə borcunu yerinə yetirdiyini görmüşdük. Burda isə Şuşanı atəşə tutub dağıdırdılar, hamı qaçırdı. Mən qaçmağı da özümə sığışdırmırdım, dümdüz yolumla gedirdim. Torpağı qorumalıyıq, – deyə gecə-gündüz düşünürdüm. Aktrisalıqla kifayətlənə bilməzdim. Düşündüm ki, əgər Şuşa əldən getsə, mən necə səhnəyə çıxıb rol oynayaram, kimin üçün oynayaram?"



## Şuşada döyüşüb, Ağdərədə yaralanıb

"Elə Şuşadan başladım. Əlimdən hansı iş gəlirdisə, hansı sahədə ehtiyac olurdusa, özümü orda tapırdım. Yaralılara da qulluq etmişəm, onları döyüş xəttindən çıxardıb ilk yardım göstərmişəm. Döyüşmüşəm də, rabitəçi kimi də fəaliyyətim olub. Lazım gələndə əsgərlər üçün yemək də bişirmişəm.

Şuşa işğal olunanda mən Laçın istiqamətində döyüşlərdə idim. Xəbər gəlib çatanda inana bilmədim, dedim Şuşa ermənilərə verilə bilməz, döyüşçülərimiz ölərlər, verməzlər. Dedilər elə ölüblər ki, Şuşa işğal olunub. Çox hadisələr olurdu, yəqin tarix hər şeyi yerbəyer edər. Həmişə elə olub, heç bir tarixi olay pərdə altında qalmayıb, uzun müddət gizlədilsə də, bir gün aşkar olunub. Şuşada olsaydım, son nəfəsim orda çıxardı, tərk etməzdim oranı...

Ağdərədə döyüşdə yaralandım. Qarşı tərəfdən atılan mərminin atəşinə tuş gəlmişdim. Bədənim qəlpələrlə dolmuşdu. Üz-gözüm, boğazım, qollarım, qarın nahiyəm hamısı yaralanmışdı, büsbütün qəlpə qırıntısı idi. Vəziyyətim çox ağır olub. Məni Tərtər hospitalında əməliyyata götürüblər. Sonra gətiriblər Bakıya, indiki Kliniki Tibbi Mərkəzə. Orda bir müddət qalandan sonra hərbi hospitala aparıblar. Bir il belə keçib...

Sağalandan sonra döyüşlərə qayıtmaq istədim, həkimlər icazə vermədilər. Qayıtdım teatra. Artıq atəşkəs idi, Şuşa Teatrı Bakıda məskunlaşmışdı. İndi yalnız teatr kollektivi ilə gedib döyüş bölgələrində tamaşalar göstərəndə nisbətən özümü gərəkli hiss edirəm. O vaxt da hospitaldan çıxandan sonra hələ üz-gözümün yaraları tam sağalmamış tamaşa ilə cəbhə bölgəsində gedib əsgərlərin qarşısına çıxmışdım. Dodağımın üstü indi də qırış kimidir, ordan qəlpə çıxarılıb, o vaxt lap betər vəziyyətdə idi. Sonradan estetik əməliyyat olundum. Bununla belə bir az hiss olunur, gözümün üstündə, boğazımda izlər var. Bədənimdə olan qəlpələrin hamısı çıxarılmayıb, eləsi var ki, çıxarılması alınmır, müharibənin avtoqrafı kimi gəzdirirəm özümlə.

Gec ailə qurdum. Yoldaşım qarabağlıdır. Bizim talelərimizdə müharibə rol oynayıb. Yeganə arzum aktrisa olmaq idi. Bir də çox şükür Şuşaya qovuşduq. Daha heç bir dərdim yoxdur, Şuşam var, bəsimdir".

***Qələmə aldı:***
***Q.RAMİLƏ***
***XQ***

Xalq qəzeti

XQ

veb-sayt: www.xalqqazeti.az

№ 215 (30331) 4 oktyabr 2023-cü il, çərşənbə

## İdman xəbərləri

### Millimizin reytinqinə Zöhrə Ağamirova başçılıq edir

***Olimpiya idman növləri üzrə millimizin oktyabrın 1-nə olan reytinq cədvəli açıqlanıb.***



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Xalq qəzeti"nə bildirilib ki, siyahıya 610 xalla bədii gimnast Zöhrə Ağamirova başçılıq edir. Bədii gimnastika üzrə qrup hərəkətləri komandası isə 540 xalla ikincidir. Stend atıcılığı üzrə yığma (MİX) üçüncü sırada qərarlaşıb.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara əsasən, reytinq xalları hesablanır. Belə ki, xallar idman növləri üzrə beynəlxalq yarışlarda tutulan yerlərə uyğun olaraq hesablanır.

### Bakıda kəmər güləşi



***Bakıda keçirilən kəmər güləşi üzrə üçüncü Avropa çempionatında Azərbaycan komandası uğurla çıxış edir.***

Yarışın birinci günündə milli komandanın 17 üzvü fəxri kürsüyə qalxıb. Yığmamızın aktivinə ən yüksək mükafatı 76 kiloqram çəki dərəcəsində çıxış edən Gözəl Zutova yazdırıb. Xanım təmsilçimiz qızıl medal qazanıb. Qadınlar arasında Pərvin Hüseynova (76 kq) gümüş, Mələkxanım Məmmədova, Fidan Əliyeva (hər ikisi 52 kq), Bəsti Səfərova (58 kq), Aytac Quliyeva (hər ikisi 58 kq), Diana Şoranova (66 kq) və Şəhla Allahverdiyeva (76 kq) isə bürünc medala sahib olublar.

Kişilər arasında Eyvaz Baxşıyev (62 kq), Tərlan Ağayev (75 kq), Namiq Abbaslı (57 kq), Soltan Ağayev (82 kq) ikinci, Elnur Abdullayev (57 kq), Əli Mikayılov (75 kq), Əli Hümbətzadə (82 kq), Nihad Məmmədzadə (90 kq) və Nihad İsgəndərli (90 kq) isə üçüncü yerlərdə qərarlaçşıblar.

Yarış oktyabrın 4-dək davam edəcək.

### "Azərreyl" Ukrayna klubu ilə oynayacaq

***"Azərreyl" voleybol komandasının Çağırış Kubokunun 1/32 final mərhələsində Ukrayna təmsilçisi "Balta" ilə oyunlarının vaxtı və yeri dəqiqləşib.***




Matçların hər ikisi Bakıda Voleybol Mərkəzində keçiriləcək. Belə ki, "Azərreyl" rəqibini oktyabrın 17-də qəbul edəcək. Növbəti gün keçiriləcək oyuna isə şərti olaraq "Balta" ev sahibliyi edəcək.

***Leyla SABİRQIZI***
***XQ***

## Ovqat

### Həsrət nəğməli payız...



**Quşların uçub getməsini, yarpaq tökümünü izləyən və bu mənzərədən qəribsəyən, kövrələn, yeni bir yazın ümidi ilə yaşayan şairlərin fəslidir payız. Hər şairin öz payızı var. Belə şairlərdən biri də "Payız gəldi" şeiri ilə nəğmələşmiş unudulmaz Fikrət Qocadır.**

Payızda təbiətdəki və həyatındakı dəyişikliyi qələmə alan şairin bu şeirində tənhalıq, həsrət, ayrılıq, göz yaşı var:

*Payız gəldi, uçdu getdi quşlar,*
*Sən də getdin, bax yağdı yağışlar.*
*Payız gəldi, qərib oldu dəniz,*
*Bu dənizin gözü yaşlı sənsiz.*

Şair onu tənhalığa məhkum edən insanın səsini, sanki, xəzanyarpaqlarının xışıltısında eşidir və ötüb keçən günlərin şirin xatirələri ilə yaşayacağını deyir:

*Küçələr, döngələr izindən qalır,*
*Yarpaq pıçıltısı sənin səsindi,*
*İşıqlar zil qara gözündən qalır,*
*Bu şirin xatirə mənim bəsimdi.*

Onun payızdan təsirlənib yazdığı bu şeir Emin Sabitoğlunun bəstəsində, Xədicə Abbasovanın ifasında sevilib, dillər əzbəri olub. Bu nəğmə hələ neçə-neçə payızı yola verəcək. "Qocalmayacaq" hamının sevdiyi bu nəğmə, ucalacaq, hər payız gələndə səslənəcək. Heç zaman unudulmayacaq sevimli mərhum şairimiz Fikrət Qoca tək.

***Zülfiyyə ZİYA***
***XQ***

## Mədəniyyət

### Tələbə rejissorun "Ən yaxşı bədii film"i



**Azərbaycanlı rejissor Səməd Ağayevin "Salam İsa" adlı qısametrajlı filmi MDB ölkələrinin beynəlxalq tələbə film festivalında "Ən yaxşı bədii film" nominasiyasında qalib olub. Mükafatı dünyaşöhrətli rejissor Emir Kusturiça təqdim edib.**

Film Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kinorejissorluq ixtisasından bu il məzun olan rejissor S.Ağayevin diplom işidir. Dram və mistika janrında çəkilən filmin ssenarisi Xalq şairi Ramiz Rövşənin "Bir səhər yuxudan durub..." şeirindən ilhamlanaraq real hadisələr və yuxular əsasında yazılıb.

Filmdə baş rolları Rafael Şahbəyli, Əməkdar artistlər Gülşad Baxşıyeva və Ayşad Məmmədov canlandırıb. Filmdə Əməkdar artist Gülər Nəbiyeva, Nicat Əsgərzadə, Sunay Həsən və Səid Məmmədov da oynayırlar.

Qeyd edək ki, MDB ölkələrinin beynəlxalq tələbə film festivalının müsabiqəsində 43 film iştirak edib.

***XQ***

### Güllər və gözəllər



Elşən Ağalar (foto)

## Texnologiya yenilikləri

### Süni intellekt astronavtdır



**Alimlər Marsda və digər planetlərdə həyat axtarmaq üçün süni intellektdən istifadə edəcəklər. ABŞ və Yaponiyadan olan beynəlxalq alimlər qrupu süni intellektdən istifadə edərək digər planetlərdə həyat axtarmaq üçün yeni üsul hazırlayıb.**

Tədqiqatçıların fikrincə, alqoritm bioloji nümunələri 90 faiz dəqiqliklə müəyyən edir.

Onlar süni intellektə 134 məlum abiotik və biotik nümunənin molekulyar zond məlumatları üzərində təlim keçiblər. Sınaqlar zamanı alqoritm qabıqlar, dişlər, sümüklər, yarpaqlar, insan saçları və orqanizmlərin hüceyrələri kimi obyektləri, həmçinin geoloji proseslər zamanı dəyişmiş qədim həyat qalıqlarını – kömür, neft, kəhrəba və yüz milyonlarla illik qalıqları uğurla müəyyən edib.

Mütəxəssislər hesab edirlər ki, onların hazırladıqları texnologiya həm də 3,5 milyard il əvvəl yaranmış çöküntülərdə ən qədim mikrobların tapılması ilə Yer kürəsində bir sıra elmi sirlərin açılmasına kömək edəcək.

***XQ***

### Reklamsız "TikTok"

**Video əsaslı sosial media platforması "TikTok" reklamsız abunəlik üçün ödəniş planı üzərində işləyir.**

ABŞ-da sınaqdan keçirilən reklamsız abunə planının aylıq 4,99 dollar olacağı gözlənilir. Abunəlikdən qeydiyyatdan keçən istifadəçilər platformada heç bir reklamla qarşılaşmayacaqlar.

Mövzu ilə bağlı "TikTok"dan heç bir rəsmi açıqlama verilməyib. Şirkətin reklamsız abunə planına istifadəçilər tərəfindən üstünlük olub-olmaması isə maraq doğurur.

***AYTƏN***
***XQ***

### "Bərdə İnşaat Sənaye" ASC səhmdarlarının nəzərinə!

22 noyabr 2023-cü il saat 11.00-da "Bərdə İnşaat Sənaye" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətinin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Mənfəət və zərərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – 051-540-27-16.

Ünvan – Bərdə şəhəri, H.Əliyev prospekti 122.

***İdarə heyəti***

### Çətənədən avtomobil?



**İnsanı anında öldürən ilan zəhəri təbabətdə məlhəmə çevrilir. Sən demə, vaxtaşırı məhv edilən çətənə kolları da faydalı imiş.**

Bu barədə narkoekspert, Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri Emil Maqalov bildirib.

Müəllif yazır ki, 1 hektar çətənə 25 hektar meşə qədər oksigen istehsal edir. Bir ağac 20–50 ildə ərsəyə gəldiyi halda, çətənə cəmi 4 aya yetişir. Ağaca nisbətən ondan bir neçə dəfə çox kağız alınır.

Əsl radiasiya təmizləyicisi olan bu bitki özünü böcəklərdən qoruya bildiyi üçün dərmanlamaya da ehtiyac duymur. İlk cins şalvarlar da çətənədən hazırlanıb. "Kətan" parça sözü də buradan yaranıb.

Ekspert daha sonra qeyd edir ki, çətənədən hazırlanmış dərmanlar QİÇS və xərçəngin müalicəsində kemoterapi və radiasiya təsiri azaltmaq, revmatizm ürək, astma, yuxusuzluq, onurğa narahatlıqları kimi 250-dək xəstəliyin müalicəsində istifadə edilir. Soyadan da ucuz olan çətənə toxumunun protein dəyəri çox yüksəkdir və tərkibindəki iki yağ turşusu da təbiətdə başqa heç bir yerdə yoxdur. Bu bitki ilə qidalanan heyvanlar əlavə hormona ehtiyac duymur. Plastik məhsullar da çətənədən istehsal oluna bilər. Çətənə plastikinin parçalanaraq təbiətə geri qaytarılması olduqca asandır.

İnanmaq çətin olsa da bildirilir ki, avtomobilin gövdəsi çətənədən hazırlansa, dözümlüyü poladdan 10 qat çox olar.

***L.QURBANOVA***
***XQ***

## Sağlamlıq

### Limonlu süd möcüzə imiş

**Bir çox dərdin şəfa mənbəyi olan limon və südün bir yerdə müalicəvi təsiri daha yüksəkdir. Sınayanların təkrar-təkrar istifadə edib imtina etmədiyi limonlu süd əzələ və sümük ağrılarını aradan qaldırır.**



Əgər siz oynaq ağrılarından əziyyət çəkirsinizsə və yeriməkdə probleminiz varsa, bu məlhəm sizə təbii çarə ola bilər. Skelet quruluşu və oynaq ağrılarının inkişafına müsbət təsir edən süd və limon birləşməsi antioksidant mənbəyidir.

Limonlu süd oynaq ağrılarından əlavə əzələ və skelet quruluşunu bərpa etməyə də kömək edir, immuniteti gücləndirir, bağırsaqların nizamlı işləməsini təmin edir, daxili xəstəliklərdə köməkçi müalicə kimi çıxış edir, mədə zədəsini bərpa edir.

Bir stəkan südə yarım limon sıxıb qarışdırmaq və onu 4–5 saat soyuducuda saxlamaq lazımdır. Limonlu süd 21 gün yatmazdan əvvəl nizamlı olaraq 1 stəkan qəbul edilir. Müntəzəm istifadə ilə oynaq ağrıları azalır və hərəkət daha asanlaşır.

***Z.HÜSEYNLİ***
***XQ***

### Ofis yastığı

**Yaponlar masanın üstündə yatmaq üçün ofis yastığı yaradıblar. Yumşaq yastıq insanı lazımi anda oyatmaq üçün vibrasiya ilə təchiz olunub.**



İstifadəçi rahatlığını nəzərə alaraq istənilən mövqeyi tapmaq üçün yastığın əyilmə bucağını da tənzimləmək mümkündür.

Qeyd edək ki, ofis yastığının qiyməti 60 ABŞ dollarıdır.

***F. SALMANOVA***
***XQ***

## Elm

### İlin fizik Nobel mükafatçıları




**2023-cü il üzrə fizika sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb. Nobel Komitəsi oktyabrın 3-də ABŞ-ın Ohayo Dövlət Universitetindən Pyer Aqostini, Maks-Plank Kvant Optika və Münhen Lüdviq-Maksimilian Universitetindən macar-avstriyalı alim Ferens Krauz və İsveçin Lund Universitetindən fransız Ann L`yülyenin 2023-cü il üzrə fizika sahəsində Nobel mükafatına layiq görüldüklərini elan edib.**

Onlar bu mükafata "maddədə elektronların hərəkətini öyrənmək üçün attosaniyəlik işıq impulsları yaradan eksperimental üsullar üçün" tədqiqata görə layiq görülüblər.

***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə və audit kafedrasının müdiri, "professorlar klubu" rəyasət heyətinin sədri, professor Əvəz Ələkbərov professor Qəzənfər Paşayevə əzizi, Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin rəhbərliyi və kollektivi Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4808
SİFARİŞ 2560
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00